**Hacı Nərimanoğlu**

# ŞƏRQİ ZƏNGƏZUR - QURUCULUQ

# və

# BÖYÜK QAYIDIŞIN ÜNVANI

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin "Şərqi Zəngəzur - Quruculuq və Böyük Qayıdışın ünvanı" layihəsi çərçivəsində nəşr olunub.

Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Agentliyin rəsmi mövqeyini əks etdirməyə bilər.

**Bakı – 2024**

**Elmi redaktorlar:** **Fətəli Abdullayev**
siyasi elmlər doktoru

**Lətif Babayev**
tarix elmlər doktoru

**Rəyçilər:** **Telman Quliyev**
tarix elmlər doktoru

**Aytən Bayramova**
filologiya elmləri doktoru

**Məsləhətçilər:** **prof. Abbas Abbasov**
**prof. Qulu Məhərrəmli**
**prof. Əliağa Cəfərov**

**Ön söz:** **Fuad Bədəlov**
Azərbaycan Respublikası Elm və
Təhsil Nazirliyinin Şərqi Zəngəzur
Regional Təhsil İdarəsinin müdiri

**Hacı Nərimanoğlu**

**Şərqi Zəngəzur - Quruculuq**
**və**
**Böyük Qayıdışın ünvanı**

**Bakı, "Füyuzat" - 2024, 240 səh.**

ISBN: 978-9952-584-07-3

© H.Nərimanoğlu



**Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin**

**Fərmanından:**

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan

Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə–Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

...1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları)…

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti,
Bakı şəhəri, 7 iyul 2021-ci il




**Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati rayonlar:**

**Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları**

**Ərazisi: 7.448 kv. km**

**Əhalisi: 343,5 min nəfər**

## Prezident İlham Əliyev Şərqi Zəngəzurun bərpasının və Böyük Qayıdışın memarıdır

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin "Şərqi Zəngəzur – Quruculuq və Böyük Qayıdış ünvanı" layihəsi çərçivəsində nəşr olunan eyni adlı bu kitabda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə işğaldan azad edilmiş Şərqi Zəngəzurda aparılan geniş miqyaslı tikinti, quruculuq işləri, mənfur düşmənin murdar ayaq izlərinin itirilməsi, məhv edilmiş mülki, sosial obyekt və infrastrukturlarının inşası, Şərqi Zəngəzurun gələcək mənzərəsi, inkişaf perspektivləri əks olunub.

Keçmişini bilməyən, tarixinə güvənməyən xalqın gələcəyə yolu hamar ola bilməz. Torpaqlarımızın azad edilməsinə aparan yol həm də gerçək tariximizi, milli kimliyimizi, keçmişimizi öyrənib dərk etməkdən başlanıb.

Başı bəlalar çəkmiş Zəngəzur mahalının ayrı-ayrı bölgələrinin gerçək tarixi keçmişinin bu günkü və gələcək nəsillərə çatdırılması, Zəngəzur torpaqlarının şərqi, qərbi ilə birlikdə ən qədim dövrlərdən Azərbaycan türklərinə mənsub olduğunun faktlarla ictimaiyyətə çatdırılması, vətəndaşlarımızın Zəngəzurun keçmişi, bu günü və gələcəyi barədə maariflənməsi, daha çox informasiya alması, müvəqqəti itirilmiş Qərbi Azərbaycan torpaqlarımıza sahiblik hisslərinin qorunub saxlanması bu kitabda qırmızı xətt kimi keçir.

Hacı Nərimanoğlunun bu növbəti kitabında 2020-ci ilin 27 sentyabrında başlayıb 44 gün davam edən Vətən müharibəsində xalqımız, müzəffər ordumuz, şəhid və qazilərimi-

zin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 28 il yağı əsarətində qalmış torpaqlarımızı əsirlikdən azad etməsi, əsgər və zabitlərimizin tarixdə misli bərabəri olmayan qəhrəmanlığı, şücaəti, cəsur hücumları qarşısında erməni silahlı qüvvələri darmadağın edilməsi, diz çöküb aman diləməsi, təcavüzkar düşmən və onun hərbi-siyasi dəstəkçilərinin xəyalına da gətirmədikləri acı məğlubiyyətə düçar olması, xalqımızın milli mənlik duyğularını, qürur, şərəf və ləyaqətini savaşla, döyüşlə özünə qaytarması geniş əks olunub. Tarixi ədalətin bərpası – Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin bərpası, separatist ünsürlərdən tam təmizlənməsi 2023-cü ilin 19-20 sentyabrında cəmi 23 saat 40 dəqiqə sürən anti-terror əməliyyatı ilə sona yetdi, 30 ildən artıq davam edən Qarabağ məsələsinin həllində son nöqtə qoyuldu, Qarabağ, Şərqi Zəngəzur ellərimiz əbədi olaraq Ana Vətənə - Azərbaycana qovuşdu. İşğaldan azad edilən yurd yerlərimizdə genişmiqyaslı dirçəliş, tikinti, abadlıq işlərinə başlandı, daha bir əhəmiyyətli, məntiqli addım Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması oldu. Ənənəvi sosial-iqtisadi, tarixi-mədəni, coğrafi bağlılıqları olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsi Zəngəzurun bütövləşməsinə, şərqi ilə qərbinin qovuşmasına, 1933-cü ildən coğrafi xəritələrdən silinmiş Zəngəzur adının yenidən bərpasına, Azərbaycanla Naxçıvan və Türkiyəyə, Türk dünyasına birbaşa quru yolun açılmasına da stimul oldu.

Sevindiricidir ki, işğaldan azad olunmuş Şərqi Zəngəzur torpaqlarında yaşayış məskənlərinin inşası ümumtəhsil məktəblərinin tikintisi ilə paralel aparılır. Bu, həm də döv-

lətimizin təhsilə, elmə böyük diqqət və qayğısının təcəssümüdür. Həmin məktəblərin məzunları arasında bu ilki respublika bilik yarışlarının qalibləri – tələbə adı qazananlar, müxtəlif fənn olimpiadalarının qalibləri də vardır. Əminik ki, elmli, bilikli gələcək nəsillər nankor qonşularımızla münasibətdə keçmişdə yol verilən səhvləri bir daha təkrar etməyəcəklər. Təqdirəlayiq haldır ki, oxuculara təqdim edilən bu kitabda gənc nəslin tariximizin dərslərindən öyrənib bilməli, ibrət almalı olduğu belə məsələlərə geniş yer verilib. Ulu Öndər Heydər Əliyev məhz bu amili nəzərdə tutaraq demişdi: **"Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indiki Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün yol açmalıyıq".**

Artıq hərb meydanında qələbələrdə olduğu kimi, indi də abadlaşan doğma torpaqlara sakinlərin hər köçü barədə xəbərlər insanların qəlbini fərəhləndirir. Bu qayıdış, yurda dönüş vətəndaşlıq borcudur, milli şərəf, qeyrət, ləyaqət məsələsidir, o torpaqlar uğrunda canlarını fəda etmiş şəhidlərimizə, savaşçı qazilərimizə sevgi, ehtiramın əməli ifadəsidir.

Tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun bundan əvvəl nəşr olunmuş I və II Qarabağ müharibəsinin şəhidləri haqqında 5 kitabı, Zəngəzurun kəşməkeşli tarixinə güzgü tutan "Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular", "Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə arxivlərində", "Türk, ya erməni soyqırımı?", "Zəngəzur: köç, deportasiya, soyqırımı, işğal tarixi", "Azərbaycan Xalq Cümhuriyyəti: 100 sual, 100 cavab", "Zəngəzur:100 sual, 100 cavab", «Qaçaq Nəbi tarixdə, elmi və bədii ədədbiyyatda, incəsənətdə», eləcə də

“TURAN Aşiqləri”, “Rəcəb Tayyib Ərdoğan”, “Qardaşlığın Zəfəri”, “Şuşa-270” və digər elmi, publisistik əsərlərindəki ideya, mövzu aktuallığı, elmi yenilik, tarixi faktların zənginliyi bu kitabında daha aydın görünür. Akademik İsa Həbibbəyli "Əyyub Abasov: Zəngəzur faciəsini yaşayan və yaşadan ədib" və akademik Yaqub Mahmudov "Zəngəzur: köç, deportasiya, soyqırımı, işğal tarixi" kitablarına yazdıqları ön söz və rəylərdə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri Hacı Nərimanoğlunun “Zəngəzurun tarixşünaslığına qiymətli töhfələr” verdiyini, əsərlərinin “tarixi mənbələrin zənginliyi, obyektiv reallıqların əks etdirməsini”, “bu günkü və gələcək nəsillər üçün qiymətli mənbə olduğunu” xüsusi vurğulayıblar.

Eyni fikirləri tamamilə yazıçı-publisist Hacı Nərimanoğlunun geniş oxucu auditoriyası üçün nəzərdə tutulan bu kitabına da şamil etmək olar. Ancaq kitab, fikrimizcə, ilk növbədə Şərqi Zəngəzur bölgəsinin ümumtəhsil məktəblərinin müəllim və şagirdləri üçün zəngin elmi-tarixi, əhəmiyyətli praktiki məlumat mənbəyidir. Nəşr Şərqi Zəngəzur regionuna daxil olan hər bir rayonun tarixi və bu günü haqqında oçerklər, 2020-ci ilin 27 sentyabrından başlanan şərəfli hərbi zəfər, quruculuq və məskunlaşma tarixinin salnaməsidir. Müstəqil dövlətçiliyimizə, torpağa, vətənə sevgi ruhu aşılaması baxımından, eləcə də fakt, sənəd, foto materialların zənginliyi, əhatəliliyi, istinadların etibarlılığı ilə bu nəşr masaüstü kitaba çevriləcəkdir. Kitab Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu çağırışına da layiqli cavabdır: **“Vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Hər bir azərbaycanlı, hər bir vətəndaş,**

**hər bir uşaq öz tarixini bilməlidir. Bilinməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır.”**

Razılıq hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi tərəfindən həyata keçirilən “Şərqi Zəngəzura qayıdışa mənəvi dəstək” layihəsi çərçivəsində 2022-ci ilin aprelində Böyük Qayıdışın ilk ünvanı olan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbində "QHT kitabxanası" yaradılıb. QHT  tərəfindən kitabxanaya 200 nüsxə elmi-kütləvi, ictimai məzmunlu, vətənpərvərlik ruhlu ədəbi-bədii kitablar, foto-plakat, şəkillər, albomlar alınıb hədiyyə edilib, məktəblilərin bilik və bacarıqlarının artmasına, məktəbin maddi bazasının genişlənməsinə layiqli töhfə verilib.

Vətən müharibəsində qələbədən sonra ölkəmiz, xalqımız qarşısında duran əsas vəzifə, ən böyük mənəvi borc doğma, əzizlərimizin nəşi uyuyan dədə-baba yurdlarımıza qürurlu qayıdışın, əbədi məskunlaşmanın təmin olunmasıdır.

“Şərqi Zəngəzur – Quruculuq və Böyük Qayıdışın ünvanı” kitabı oxucuda Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu qətiyyətli sözlərinin də ən yaxın gələcəkdə gerçəkliyə çevriləcəyinə inamı bir daha gücləndirir: **“Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı”.**

**Fuad Bədəlov**
Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri

# I fəsil.

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONU

## Cəbrayıl rayonu



Cəbrayıl rayonunun adı vaxtilə burada mövcud olan Cəbrayıl kəndinin adından götürülmüşdür. Cəbrayıl kəndinin əsasını qoymuş Cəbrayıl ata VIII əsrdə yaşamış Sultan Əhməd adlı hökmdarın yaxın adamlarından olub və Ziyarət dağından Araz çayına qədər ərazilər Cəbrayıl ataya və onun övladlarına məxsus idi. Bu şəxs hələ öz sağlığında böyük hörmət sahibi olub, vəfat edərkən öz mülkünün axar-baxarlı bir yerində - Alpaşa dağının üstündə dəfn edilmişdir. Cəbrayıl kəndinin şimalında "Cəbrayıl ata" adı ilə məşhur olan məqbərənin uzunluğu 4.5, eni 2.4, hündürlüyü 1.8 metrdir ki, oradakı məzar və qədim yaşayış yerlərinin izləri indiyə qədər qalır. Cəbrayıl atanın Mirzəcan, Yarəhməd, Şahvələd, Bünyad, Qurban, Xubyar, Hasan və digər adlı oğlanları olduğu mənbələrdə göstərilir. Sonralar onun adından Cəbrayıllı tayfası formalaşmışdır. Orta əsrlərdən bəhs edən mənbələrdə məşhur şahsevən, cavanşir, əfşar və b. tayfalarla yanaşı, cəbrayıllı tayfasının da adı çəkilir. Rus imperiyası işğaldan sonra vergi yığmaq məqsədilə siyahı tərtib edərkən (1823-cü il) Cəbrayıllı tayfasında 17 tirə, 443 ev, 2200 nəfərdən ibarət əhalini qeydə almışdır. XIX əsrin ikinci yarısında və XX əsrin 50-ci illərində Cəbrayıl kəndinə Qıraxdın da deyilmişdir. Bu da 1831-ci ildə Daşkəsən kəndində "Karantin" (qırx gün deməkdir) idarəsinin yaranması və 1848-ci ildə həmin idarənin Cəbrayıl kəndinə köçməsi ilə əlaqədardır. Yerli əhalinin dili dönmədiyindən "Qıraxdın" kimi tələffüz etmişlər. Cəbrayıl ərazisi Midiya (e.ə. VII-IV əsrlər), Əhəmənilər imperiyasının (e.ə. IV-III əsrlər), Albaniya (e.ə. IV-III əsrlər) dövlətinin tərkibində olmuşdur. Albanların dövründə Cəbrayıl ərazisi Pazkank, Əhristan və Dizak adlanan mahalın tərkibində olub. 971-1086-cı illərdə Cəbrayıl Şəddadilərin, 1250-ci illərdən

monqolların, 1387-ci ildən Teymurilərin, 1412-ci ildən Qaraqoyunluların, 1478-ci ildən Ağqoyunluların və nəhayət, 1501-ci ildən Səfəvilərin tərkibinə daxil idi. 1841-ci ildə Cəbrayıl ərazisi mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinin, 1846-cı ildə isə Şuşa qəzasının tabeliyinə verilmişdir. 1873-cü ildə Cəbrayıl və ona qonşu olan ərazilər Şuşa qəzasının tabeliyindən çıxarılıb Yelizavetpol (Gəncə) quberniyasının tərkibində müstəqil Cəbrayıl qəzası təşkil edilmişdir. Qəzanı qubernator tərəfindən təyin edilən rəis idarə edirdi. Bu dövrdə Cəbrayıl qəzasının ərazisi 66,3 min kv.km, əhalisi  72753 nəfər olmuşdur, əhalinin 42,4%-i yarımköçəri həyat sürürdü. Qəzanın ərazisi indiki Cəbrayıl rayonundan daha geniş olmuşdur. Cəbrayılda baramaçılıq, xalçaçılıq geniş yayılmışdı. Xüsusən "Qasımuşağı", "Kürd", "Qaraqoyunlu", "Bəhmənli" adlı xovlu, zili, çuval, çul, məfrəc, heybə, xurcun, vərni, asmalıq, palaz, kilim, cecim kimi xovsuz xalçaları məşhur olmuşdur. Daşkəsən kəndində uzun illər fəaliyyət göstərən ipək emalı fabriki inqilabdan sonra Xankəndinə köçürülmüşdür. Qəzada 5 ipək fabriki olub. XVIII əsrin axırlarında Cəbrayılda həftəbazarı yaranmışdı. 1840-cı ildən bazarlarda rus pulları işləməyə başlayır. 1876-cı il avqust ayının 5-də Cəbrayılda bir sinifli rus məktəbi açılıb. 1930-cu il avqustun 8-də mərkəzi Cəbrayıl kəndi olmaqla, Cəbrayıl rayonu təşkil edildi. Rayonun ərazisi indiki hüdudları daxilində sahəsi 1050 kv.km, əhalisi 24300 nəfər olmuşdur.

Cəbrayıl rayonunun ərazisi tarixi memarlıq və dini, maddi və mədəni abidələrlə zəngindir. Bunlardan Dağ Tumas kəndi yaxınlığında yerləşən "Divlər Sarayı" mağarası, «Tumas ata» piri, Qalacıq kəndindəki "Məscid Təpəsi", "Canqulu" və "Qumtəpə" kurqanları, Tatar kəndi yaxınlığındakı

Qızılqaya dağındakı tikili, Şıxlar kəndi yaxınlığında "Şəhərcik qalıqlar" (XIV əsr), "Qışlaq yerləri", Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri, Dağ Tumas kəndindəki "Başıkəsik Gümbəz", Sirik kəndindəki "Qala", Diri dağındakı "Qız qalası", Xudafərin körpüləri, Çələbilər kəndindəki məscid kompleksi, Xudyarlı kəndindəki Dairəvi və səkkizguşəli turbələr (XIX əsr), rayon mərkəzindəki "Sultan Məcid hamamı" türk qəbiristanlığındakı türbə və məqbərələrin hər biri nəsildən-nəsilə ötürülmüş canlı tarixdir. Rayonun ərazisində çoxlu qədim yazılı abidələr vardır ki, bunlardan da Ağoğlandakı Orxan yazılı abidəsi xüsusilə qiymətlidir. Xudafərin korpuləri Azərbaycan və Şərq tarixinin nadir abidələridir, yüz illərdir ki, Arazın Quzey və Güneyini birləşdirən, ədəbiyyat, incəsənətimizin əbədi mövzularından biridir. Diridağdakı Qız qalası, Gordubaba dağındakı məzar yeri, «Hacı Qaraman», «Cəbrayıl ata», «Dul-dul», «Mazannənə» ziyarətgahları ətraf rayonlarda da yaxşı tanınır.  Rayonun ərazisi sement istehsalı üçün qiymətli xammalla, mərmər və başqa tikinti materialları ehtiyatları, dəmir filizi ilə zəngindir. 1993-cü il işğalınadək əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul idi. Rayonda tikiş, xalça, cihazqayırma sexləri və müxtəlif sənaye obyektləri fəaliyyət göstərirdi. Cəbrayıl aşıqların ulu babası sayılan Aşıq Qurbaninin, Aşıq Pərinin, Muğrum Kərimin, Aşıq Humayın, Aşıq Abdullanın və b. el sənətkarlarının vətənidir. Elm, mədəniyyət bu torpaqda həmişə inkişaf edib. Rayonda 510 çarpayılıq xəstəxana birləşmələri, 72 məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və s. fəaliyyət göstərirdi. Rayon tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonun tibb müəssisələrində 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 301 texniki

işçi çalışırdı. Yetişməkdə olan nəslin təlim-tərbiyəsi ilə 1600 nəfərdən çox müəllim məşğul olurdu.

44 günlük Vətən müharibəsindən sonra Cəbrayıl yenidən dirçəlir, geniş miqyaslı tikinti, quruculuq, dirçəliş işləri gedir, yeni infrastruktur layihələri həyata keçirilir. Zəngəzur dəhlizinin açılması da Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaradacaqdır. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə regional iqtisadi-ticarət əlaqələrini genişləndirəcəkdir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 04 oktyabr 2021 tarixli Fərmanının icrası bu istiqamətdə görüləcək işlərin əsas istiqamətlərini də müəyyən edib və bir sıra xarici ölkə mütəxəssisləri də bu layihəyə cəlb olunub. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edir. Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılması da İranla ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir edəcəkdir. Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması işğaldan azad edilmiş digər rayonların da bərpasında faydalı olacaqdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Böyük Britaniyanın "Chapman Taylor" şirkəti ilə Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanmış Cəbrayıl şəhərinin Baş planı 25 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 238 nömrəli

Qərarı ilə təsdiq edilib. Cəbrayıl şəhəri illər ərzində işğalçılar tərəfindən urbisid və ekosidə məruz qalıb, əraziyə küllü miqdarda maddi ziyan vurulub. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi. Təsdiq edilmiş yeni Baş plana əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək. Şəhərdaxili yol profillərində təxminən 60 km uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin

ümumi uzunluğu 45 km-dən çox olacaq. Planda əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mər-



kəz, idman komplekslərinin inşası planlaşdırılıb. Cəbrayıl şəhərinin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18%-i yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən “yaşıl zolaq” mərkəzi park olaraq müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

Cəbrayıl rayonunun əhalisi 73076 nəfərdir (18262 ailə).

# Kəlbəcər rayonu



"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilindədir - sözün ilkin forması Kevliçer kimi qəbul edilib və "çay üstündə qala" deməkdir; kevli "çayın üstü" və çer/car "qala" mənasını verir. Yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtərçay çayı boyunca cərgə ilə düzülmüş qədim süni mağaralar mövcuddur. Buna görə də mütəxəssislər toponimi kevil/kəvl və qədim türk dillərindəki cər (qaya, yarğan) komponentləri ilə əlaqələndirirlər. Ərazidə oronomik toponimlərin əksəri türk mənşəlidir. Bir sıra qədim türk tayfalarının adı bu gün də bu toponimlərdə yaşayır. Ərazi qədim insan məskənlərindən birdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb. Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə "Türk qəbristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Tirkeşəvənd, Kəlbəcər, Zar və b. kəndlərin ərazisindədir. Qəbirstanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcər 1993-cü ilin aprel ayının 2-dən işğal edilib, dinc əhaliyə vəhşicəsinə divan tutulub, yerli əhali min illər boyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salınıb. 1993-cü ilin qiymətlərinə görə Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulmuşdur. İşğal nəticəsində Kəlbəcərdən 53.340 nəfər adam qovulmuş, 511 dinc əhali öldürülmüş, 321 nəfər isə əsir götürülmüş və itkin düşmüşdür. Əhali 46 şəhər və rayonda 20%



olmaqla müvəqqəti məskunlaşmışdı. Əhalisinin sıxlığı (nəfər / 1 km²) 36,35 nəfər, şəhər əhalisi: 11 min 766 nəfər, kənd əhalisi: 65 min 237 nəfər, kişilərin sayı 38 min 396 nəfər, qadınların sayı: 38 min 607 nəfər, Qarabağ nüharibəsi əllilərinin sayı -75 nəfər, şəhid ailələrinin sayı – 488 olub. Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunsa da, yerinə yetirilmədi. Əksinə, rayon ərazisində ermənilərin məskunlaşdırılmasına başlanıldı.

15 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonu işğaldan azad edildi. 10 noyabrda Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı Bəyanata əsasən Kəlbəcər rayonunun 15 noyabr tarixində döyüşsüz Azərbaycana təhvil verilməsi qərarlaşdırılsa da, Rusiyanın vasitəsilə bu müddət 25 noyabr tarixinə qədər uzadılmışdır. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması,ərazinin böyüklüyü və humanizm göstərilmişdir.



Məğlubiyyətlə barışa bilməyən, ərazini tərk edən ermənilər bu zaman bütün tikililəri dağıtmış, meşələri də yandırmışdır.

2022-ci il iyunun 26-da Prezident İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub. Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır. Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaq.

Kəlbəcər rayonunun ərazisi 3054 kv kilometr, əhalisi; 77003 nəfər, əhalisinin sıxlığı ( nəfər / 1 $km^2$) 36,35 nəfər, şəhər əhalisi - 11 min 766 nəfər, kənd əhalisi - 65 min 237 nəfər, kişilərin sayı - 38 min 396 nəfər, qadınların sayı - 38 min 607 nəfər, Qarabağ nüharibəsi əlillərinin sayı -75 nəfər, şəhid ailələrinin sayı - 488 ailədir.

# Laçın rayonu



Azərbaycanın qədim tarixi ərazilərindən biri olan Laçın bölgəsi antik dövrlərdə və erkən orta əsrlərdə Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olub.

Rayonun Mirik kəndi ərazisindəki "Qaranlıq kaha", "Bayqara" mağaraları, Hoçaz kəndindəki mağara məbəd, hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Azıx və Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər tariximizin maraqlı, dəyərli və nadir sənət əsərlərindəndir. Bununla yanaşı rayonun ərazisində olan qədim qaya təsvirləri, mağaralar, daş üzərində süjet xarakterli oymalar, qəbirüstü abidələr və kurqanlar, at və qoç fiqurları, həmçinin gildən hazırlanmış müxtəlif bəzək, məişət və digər əşyalar, ərazidəki Ağoğlan qəsri (IX əsr), Dəmrovlu Pir Məbədi ( XI əsr), Məlik-Əjdər türbəsi (XII əsr), Uşaq qalası (XV əsr), Kar kümbəz (XVII əsr), habelə X-XIX əsrlərə aid birtağlı və ikitağlı körpülər, eləcədə çoxsaylı su dəyirmanları və s. kimi tarixi abidələr öz memarlıq üslubu ilə qədim dövrlərdən ərazidə türk tayfalarının məskən saldığını təsdiqləyir. Laçın rayonunda 54 dünya və 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidələr mövcud olmuşdur. Ərazi çar Rusiyası dövründən başlayaraq 1930-cu ildə müstəqil inzibati rayon kimi təşkil olunana qədər Qarabağ xanlığı və Zəngəzur qəzasına daxil olmuşdur. Əvvəllər Abdallar adlanan, 1924-cü ildən isə şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzidir. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tagı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılmışdır. Laçın sözü "məğrurluq" mənasını bildirir.

Laçın rayonu 18 may 1992-ci ildə erməni işğalına məruz qalmışdır. İşğala qədər rayonda bir şəhər, bir qəsəbə, 125 kənd mövcud olmuş, 48 sənaye, 63 kənd təsərrüfatı, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət,

96 məişət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri fəaliyyət göstərmişdir. Erməni işğalı nəticəsində 13745 yaşayış evi qarət edilərək yandırılmış, rayon ərazisindəki 54 dünya, 200-dən çox yerli əhəmiyyətli qədim tarixi abidələr erməni vandalizminə məruz qalmış, ictimai və şəxsi təsərrüfatlarda olan 25 min başdan çox iri və 200 min başdan çox xırda buynuzlu heyvan qarət olunmuşdur. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7.1 milyard ABŞ dollarından çox ziyan dəymiş, 58736 nəfər laçınlı öz doğma torpağından didərgin düşərək məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır. Eyni zamanda hazırda məcburi köçkünlük həyatı yaşayan, rayonun rəsmi mətbuat orqanı olan "Laçın" qəzeti 1931-ci ildən nəşr olunur

Şanlı Azərbaycan Ordusu 1 dekabr 2020-ci il tarixdə Laçın rayonunu işğaldan azad etmişdir. I və II Qarabağ müharibəsində bütün istiqamətlərdə döyüşən Laçının igid övladlarından 285 nəfəri şəhid olmuş, 66 nəfəri girov götürülmüş, 120 nəfər əlil olmuş, yüzlərlə uşaq yetim qalmışdır. Müharibədə xüsusi şücaət göstərmiş laçınlılardan beş nəfəri Azərbaycan Milli Qəhrəmanı adına layiq görülmüşdür. Hazırda Laçın rayon İcra Hakimiyyəti başçısı aparatı, rayonun bütün icra strukturları, idarə, müəssisə və təşkilatları Ağcabədi rayonu ərazisindəki Taxta-körpü köçkünlər qəsəbəsində fəaliyyət göstərir.

2023-cü il mayın 28-də Prezident İlham Əliyevə Laçın şəhərinin Baş planı təqdim olunub. Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb. Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf

etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək. Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur. Ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

Laçın rayonunun əhalisi 75.669 nəfər, sahəsi 1835 kv.km-dir.

# Qubadlı rayonu



Qubadlı rayonu 1930-cu ildə təşkil olunmuşdur. Ərazisi 802 kvadratkilometrdir. Paytaxt Bakıdan 387 km, ən yaxın dəmiryol stansiyası olan Həkəri stansiyasından 35 kilometr məsafədədir.

1993-cü il 31 avqust işğalı ərəfəsində Qubadlı rayonunun əhalisi 29903 nəfər idi. Rayon əhalisi 93 кənddə və rayon mərкəzi olan Qubadlı şəhərində məsкunlaşmışdı. Əsas əhali kəndlərdə yaşayırdı. Əhalinin orta sıxlığı 1 kvadratkilometrə 37 nəfər idi. İri yaşayış məntəqələri Qubadlı şəhəri, Xanlıq, Mahmudlu, Dondarlı, Mahruzlu kəndləri idi. Rayonun əhalisi 38 min nəfərdən çoxdur. Respublikamızın 41 şəhər və rayonunda müvəqqəti məskunlaşmışdır. Əhalinin mütləq əksəriyyəti Sumqayıt və Bakı şəhərlərində, Abşeron rayonu ərazisindədir. Rayon əhalisinin əksəriyyəti (64 faizə qədəri) Sumqayıt ərazisində məskunlaşdığından Qubadlı rayon İcra hakimiyyəti, digər icra ctrukturları, fəaliyyəti bərpa olunan idarə, müəssisə və təşkilatlar Sumqayıt şəhərində yerləşir.XIX əsrin 80-ci illərinin ortalarında Zəngəzur qəzasında fəaliyyət göstərən 4 dünyəvi məktəbdən biri 1882-ci ildə Qubadlıda açılmışdı. Bu məktəb el arasında çox vaxt Həsən bəyin məktəbi adlandırılmışdı. Qubadlı kəndi XX əsrin əvvəllərində bölgənin mədəni həyatında daha bir yeni, mütərəqqi addımın atıldığı yer oldu: bölgənin ilk dünyəvi qız məktəblərindən biri məhz Qubadlıda fəaliyyətə başladı. Vətənimizə xeyli tanınmış şəxsiyyət bəxş etmişdir. Qubadlı bölgəsi çarizmə qarşı xalq azadlıq hərəkatının əsas mərkəzlərindən biri olmuşdur. Qubadlının Aşağı Mollu kəndində anadan olmuş Qaçaq Nəbinin başçılığı ilə qaçaqlar uzun müddət ərzində hökümətə, haqsızlığa və zülmə qarşı mübarizə aparmışlar. 20-ci əsrdə Qubadlı dəfələrlə erməni işğalçı qüvvələrinin hücumlarına məruz qalmışdır (1905-1906, 1918-1920-ci illər). 1905-ci

ildə çar Rusiyasında baş qaldıran inqilabi hərəkat və kütləvi iğtişaşlar ermənilərə fürsət vermişdi ki, öz çirkin niyyətlərini Qubadlı bölgəsində də həyata keçirsinlər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası 5 polis sahəsindən ibarət idi. İndiki Qubadlı rayonuna aid olan kəndlərin əksəriyyəti III polis sahəsinə (mərkəzi Dondarlı kəndi idi), bir neçəsi isə II və IV polis sahələrinə daxil idilər.Azərbaycanda Sovet Sosialist Respublikası adlandırılan hökümətin qurulduğu ilk dövrlərdə də Zəngəzurun bir parçası olan Qubadlı bölgəsinin də başının üstündən qara buludlar çəkilmədi.Bu dövrdə bütövlükdə Zəngəzurla birlikdə Qubadlının kəndləri yandırılmış, dinc əhaliyə divan tutmuşdur. Bununla belə bütün çətinliklərə və əzab-əziyyətlərə baxmayaraq hər dəfə işğalçı erməni qoşunları torpaqlarımızdan qovulmuş, yaşayış məntəqələri və müvafiq infrastruktur bərpa edilmişdir. Hələ 1919-cu ildə Qubadlı qəzası yaradılmışdır. By qəzanın əraziləri Cəbrayıl və Şuşa qəzaları ilə həmsərhəd idi. 1922-ci ildə Qubadlı qəzası ləğv edilərək Cəbrayıl-Şuşa qəzasına birləşdirilib. 30 avqust 1930-cu il tarixdə Azərbaycan Xalq Komissarları Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarı ilə Azərbaycanda rayonlaşma aparılmış, bu zaman I, II və III kateqoriyalı rayonlar yaradılmışdır. Həmin qərarla yaradılan I kateqoriyalı rayonlara 22 rayon daxil idi ki, onlardan da 1-i (sıra ilə 11-ci) Qubadlı rayonu idi. Qubadlı kəndi rayonun mərkəzi olub. 1931-ci il noyabr ayının 24-də Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Qubadlı rayonu Zəngilan rayonu ilə birləşdirilmiş, 1933-cü il mart ayının 14-də ayrılaraq müstəqil rayon olmuşdur. 04 mart 1963-cü ildə Qubadlı rayonu bir daha Zəngilan rayonu ilə birləşdirilmiş, 1 il sonra 17 iyun 1964-cü ildə yenidən ayrılmışdır.

Qubadlıda Mədəniyyət Nazirliyi xətti ilə mühafizə olunan 50-yə qədər abidə qeydə alınmışdı. XIV –XIX əsrə aid olan türbələr, qalalar, bulaqlar, körpülər, səngərlər, daşdan yonulma qoç və at heykəlləri, məscidlər tarixi mədəniyət abidələri kimi dövlət tərəfindən qorunan abidələrin sırasında idi. Saray, Poladlı, Xocamsaxlı, Çardaxlı kəndləri ərazisində keçilməz sıldırım qayalar üzərində son dövrə qədər qalan istehkam qalaçalar ayrı-ayrılıqda VII-IX əsrlərə aid edilsə də, əslində bu istehkam qalaçalar b.e.ə. I yüzillikdə Atropatena və Albaniya dövlətlərini ayıran sərhəd boyunca vahid keşikçi-gözətçi məntəqələr sisteminin tərkib hissəsidir. "Qubadlı" topon️iminin qədimliyi də maraq doğurur. "Qubadlı" yer adına ilk dəfə İkiçayarası (Mesopotomiya) bölgəsindəki mixi yazılarda rast gəlinir."Qubadlı" adının qızılbaş-şahsevən tayfaları ilə bağlılığına dair fikirlər də mövcuddur. Mənbələrin təhlili nəticəsində "Kobatlı" - "Qubadlı" yer adının bəydili nəsli ilə əlaqələndirilməsi bu torpaqların bilavasitə türk yurdu olduğunu bir daha təsdiqləyir, çünki Bəydili Oğuz xanın Yıldız xandan olan nəvəsi idi. Tarixçi  Halaçoğlu "Kürtleşen Türkmen Aşiretleri" kitabında "Kubatlı əşirəti"ndən də bəhs edir.

Rayonda tarix-diyarşunaslıq muzeyi fəaliyyət göstərirdi. 1970-80-ci illərdə də bir sıra abidələr inşa olunmuşdu. Bunlara "Fərhad və Şirin" bulağı, "Ceyran" bulağı, Xalq qəhrəmanları Qaçaq Nəbinin və Həcərin, 1941-1945-ci illər müharibəsi, 20 yanvar şəhidlərinin abidələri aiddir.

1941-1945-ci illər müharibəsinin məhrumiyyətləri və çətinlikləri Qubadlı rayonundan da yan keçməmişdir.



*Qubadlı 1835-ci ilə aid Cənubi Qafqazın xəritəsində*

Müharibə illərində Qubadlı rayonundan 3500 nəfərə qədər insan döyüşən cəbhəyə getmiş, onlardan yalnız 1500 nəfəri sağ qayıtmışdır. Ötən əsrdə Qubadlı dəfələrlə Erməni işğalçı qüvvələrinin hücumlarına məruz qalmışdır (1915, 1918, 1920). 1988-ci ildən başlayaraq Ermənistanla (120 km) və Dağlıq Qarabağla (45 km) sərhəddə yerləşən Qubadlıya hücumlar başlanmış, 1993-cü ilin avqustun 31-də isə rayon işğal olunmuşdur.Müharibədə rayondan 40 qadın, 4 uşaq, 53 isə 60 yaşdan yuxarı qoca olmaqla 238 nəfər şəhid olmuşdur. Onlardan 8 nəfəri ölümündən sonra Azərbaycan Respublikasının Milli Qərhrəmanı adına layiq görülmüşdür. Şəhidlərdən 117 nəfəri mülki əhalidəndir; 40 nəfəri qadın, 4 nəfəri uşaq, 53 nəfəri qoca, ahıl yaşlı insanlardır.

44 günlük qalibiyyətli Vətən müharibəsində müzəffər Ordumuzun, qəhrəman şəhid və qazilərimizin şücaət, cəsarəti sayəsində Qubadlı 25 oktyabr 2020-ci ildə mənfur qonşularımızın əsarətindən qurtulmuşdur. 25 oktyabr 2021-ci

ildə “Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidenti  Sərəncam imzalamışdır. 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. Baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin “S.A_Partners” şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır. Yaxın 20 illik perspektiv üçün Qubadlıda bitkiçilik və ekoloji kənd təsərrüfatı, balıqçılıq və balıqyetişdirmə, müasir sənətkarlıq, yüngül sənaye, təbiət əsaslı aqroturizm və digər sahələrin inkişafı planlaşdırılır. Beləliklə, şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq. Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək.

Hazırda rayonun Mahruzlu və Zilanlı kəndlərinin tikinti işləri aparılır. Mahruzluda 190 evin tikilməsi və 836 nəfərin məskunlaşması, Zilanlıda 193 evin tikintisi və 926 nəfərin məskunlaşması üçün 2, 3, 4, 5 otaqlı evlərin, məktəb binası, uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman-sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, çayxana, ailə-sağlamlıq mərkəzi və digər obyektlərin inşası davam edir, bu kəndlərdə birinci faza üzrə nəzərdə tutulan işlərin cari ilin sonunadək yekunlaşması və tikilən evlərə əhalinin ilk köçü  planlaşdırılır.

Hazırda Qubadlı rayonunun əhalisi 39 843 nəfərdir.

# Zəngilan rayonu



Zəngilan toponimi "Zəngi" türk tayfasının yaşayış yeri, yaxud "zəngin ərazi, torpaq" anlamını verir. Rayona Zəngilan adı 1930-cu ildə verilmişdir. İlk adı Pirçivan olan rayonun mərkəzi isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır. Daimi axarı olan Oxçu çayının kənarında qərarlaşan kəndin bağları, əkinləri başdan-başa düzən, hamar, həm də olduqca münbit torpaqlarda yerləşir. Mənfur qonşularımız ermənilərin mis molibden mədənlərinin, Qacaran, Qafan şəhərlərinin xəstəxana və digər xidmət, təsərrüfat obyektlərinin kimyəvi, çirkab tullantıları Oxçuçayın suyunu lil qatı ilə çirkləndirib, zəhərlədiyi indiki dövrdən fərqli olaraq, keçmişdə çay balıqla zəngin olmuş, bağlar, əkinlər məhsuldarlılığı ilə diqqət cəlb etmişdir. Bəzi fikirlərə görə, qədim İpək Yolunun üzərində yerləşən bu kəndi zəngin "alan" kimi tanımış və adlandırmışlar. "Alan" hal-hazırda da işlədilən türk sözüdür. Mənası "ərazi", "sahə" deməkdir.

Rayon ərazisində ən qədim insan məskənləri mövcud olmuşdur. Sovet hakimiyyəti illərində arxeoloji-elmi tədqiqatlar aparılmasa da, Ağalı kəndi ərazisindəki yerdənqazma sığınacaqların-kahaların ilk quldarlıq dövrünə aid olduğu barədə ehtimallar vardır. "Ağalı kahaları" adı ilə tanınan bu sığınacaqların bir çoxundan sonrakı dövrlərdə qoyun-quzuların saxlanma yeri kimi istifadə edilirdi. Rayonun ərazisində 60-70-ci illərdə təsərrüfat işləri zamanı tapılan xeyli küp qəbirlər (küp qəbirlər Azərbaycanda e.ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur) və e. ə. IV – II əsrlərə aid edilən, əksəriyyəti Makedoniyalı İsgəndərin adına zərb olunan onlarla sikkə ərazinin lap qədim zamanlardan beynəlxalq ticarətdə mühüm rol oynadığından xəbər verir. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulub.

Rayonun ərazisi həm Araz çayı boyunca şərqdən Qərbə, həm də Həkəri, Bərgüşad və Oxçu çayları boyunca cənubdan-şimala və əksinə uzanan tarixi ticarət yolları üzərində yerləşir. Bu ərazi ibtidai insanların ilk məskənlərindən biri olmuşdur. Bunu rayonun müxtəlif yerlərindəki tarixi abidələr, o cümlədən Yeməzli kəndi ilə Yuxarı Yeməzli kəndi arasında olan və "Şəhid Məhəmməd" adlı yerdən tapılan pul və əşya qalıqları sübut edir. 60-cı illərdə bu ərazidə aparılan əkin və yol çəkilişi zamanı xeyli küp qəbirlər aşkar edilmişdir. Bu küp qəbirlərdən tapılmış müxtəlif əşyalar sübut edir ki, bu ərazi çox qədim bir tarixə malikdir. Kişilərin dəfn olunduğu qəbirlərdən tapılan bülöv daşı, qadınların dəfn olunduğu yerdən tapılan muncuq və qolbaqlar, həmçinin müxtəlif saxsı qablar, silahlar, nizə və oxların metal və bürünc ucluqları, sikkələr və s. əşyaların bir qismi qorunub saxlanılmışdır. 1962-ci ildə orada tapılan və saxsı qabda olan əşya və sikkələr eramızdan əvvəl IV-II əsrlərə aiddir. Məlum olur ki, bu sikkələr bürünc ellin (yunan) pullarıdır. Rayonun "Şəhid Məhəmməd" adlı yerində tapılan sikkələr də bunu təsdiq edir. Rayonun ərazisi müxtəlif dövrlərdə ayrı-ayrı inzibati ərazi bölgülərinə məruz qalmışdır. Rusiyanın işğalı zamanı 1828-ci ilə qədər bölgənin ərazisinin Bəsitçaydan qərbə tərəf hissəsi Naxçıvan, şərqə tərəf hissəsi isə Qarabağ xanlığının tərkibində idi. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra yeni ərazi-inzibati bölgüsü aparılmış, 1868-ci ildə Yelizavetpol quberniyası, onun tərkibində də Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları yaradılmışdır. Yeni bölgüyə əsasən Zəngilan rayonunun ərazisi Zəngəzur qəzasına daxil edilmişdir.

1925-ci ilin sənədlərində Zəngilan Cəbrayıl qəzasının tərkibində göstərilirdi. Xəritədə Zəngilan rayonundan Genlik, Aladin, Dəlləkli əraziləri qeyd olunurdu. 1929-cu ildə

Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının qərarı ilə Zəngilan rayonunun Nüvədi, Toğud, Ernəzir kəndləri, 1946-cı ildə isə 4 min hektar meşə sahəsi Azərbaycan Respublikasından alınıb Ermənistan Respublikasına bağışlandı.Son iki yüz ildə vahid sərhəddə malik olmayan Zəngilan 1930-cu ilin avqust ayının 8-də müstəqil rayon kimi formalaşdı və ərazisi dəqiq müəyyən olundu.

1967-ci ildə Zəngilana şəhər statusu verildi. Həmin vaxt Zəngilan rayonunda bir şəhər, 5 qəsəbə, 79 kənd olmuşdur. Rayon 1992-ci ilin dekabrında baş verən Şayıflı qırğınını və 1993-cü ilin 27 oktyabrını yaşadı. Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlılar 67 gün tam mühasirə şəraitində ermənilərlə vuruşdu. 25-29 oktyabr 1993-cü ildə Zəngilan rayonunun əhalisi son anadək vuruşaraq, 235 nəfər şəhid və itkin verərək Araz çayını keçmiş, İran İslam Respublikasının ərazisi ilə keçərək Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdılar.

20 oktyabr 2021-ci ildə “Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Zəngilan şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən şəhərin Baş planı hazırlanıb və aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq 30.10.2023-cü il tarixində Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilib. Arxitektura Komitəsi nüfuzlu beynəlxalq şəhərsalma təşkilatı – İsveçrənin “sa_partners” şirkətini və Bakı Dövlət Layihə İnstitutunu əməkdaşlığa cəlb etmişdir. Baş planın konsepsiyasına əsasən, Zəngilan logistika, turizm və ticarət, bərpa olunan enerji, müasir innovasiyalar mərkəzi kimi inkişaf etdiriləcək. Şəhərin beynəlxalq əhəmiyyəti nəqliyyat dəhlizinin üzərində yerləşmə-

si onun strateji məntəqə rolunu gücləndirəcək, sürətli inkişafına töhfə verəcək. Şəhərin bilavasitə yaxınlığında ən müasir dünya standartlarına uyğun inşa edilərək artıq istismara verilmiş Zəngilan Beynəlxalq Hava Limanı, inşası davam edən magistral dəmir və avtomobil yolları onu əhəmiyyətli regional logistik mərkəzə çevirəcək. Eyni zamanda şəhər gözəl iqlimi, mənzərəli landşaftı, yaşıl çayətrafı bulvarı




və digər ictimai məkanları, habelə “ağıllı şəhər”, “ağıllı mobillik” və “yaşıl enerji” yanaşmaları, zövqlü memarlığı, rahat şəhər mühiti və müasir sosial infrastrukturu sayəsində yüksək həyat keyfiyyəti ilə seçiləcək.

Zəngilan şəhərində yaşayış ərazilərinin və ictimai məkanların uğurlu plan həlli yüksək yaşıllaşdırma göstəricilərinə nail olmağa imkan verir. Belə ki, Baş plana uyğun olaraq şəhər ərazisinin 135,2 ha (40,5%) sahəsini yaşıllıqlar təşkil edir. Şəhərlərdə ümumi istifadədə olan yaşıllıq sahəsinin bir adama

düşən norması qanunvericiliklə 8-10 $m^2$ nəzərdə tutulduğu halda, Zəngilan şəhərində bu göstərici 44,7 $m^2$ təşkil edəcək. Şəhərin Baş Planı ilə ümumi ərazisi – 333 ha, əhali sayı isə – 16000 nəfər olacaq. Şəhərdə yaradılacaq əsas təhsil, inzibati, səhiyyə və mədəniyyət obyektləri: 960 uşağın təhsil alacağı 4 məktəbəqədər təhsil müəssisəsi, 2880 şagird yerlik 3 ümumtəhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası və ambulator poliklinika, inzibati bina, mədəniyyət mərkəzi, İşğal və Zəfər muzeyləri kompleksi və s. Şəhərdaxili küçə-yol şəbəkəsinin uzunluğu 29 km**,** velosiped yollarının uzunluğu isə 14,6 km kimi nəzərdə tutulmuşdur. Şəhərin memarlıq simasını milli ənənələri özündə qoruyan müasir və minimalist həllər, eləcə də zəngin təbiəti, sağlam və yaşıl mühiti formalaşdıracaq. Binaların inşasında əsasən yerli materiallardan istifadə olunacaq. Fasadlarda təbii daş və boya, taxta elementlərinə üstünlük veriləcək.

Şəhərin Baş planı əsasında ilk mühüm layihələr artıq reallaşdırılmışdır. Bunlar, təbii ki, Zəngilan Beynəlxalq Hava Limanı və 29 sentyabr 2023-cü il tarixində dövlət başçısının da iştirak etdiyi II Milli Şəhərsalma Forumuna ev sahibliyi etmiş Zəngilan Konqres Mərkəzidir. Eyni zamanda, hazırda şəhərdə Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş bir sıra layihələr sürətlə həyata keçirilməkdədir: 630 ailənin yaşayacağı 4 yaşayış məhəlləsi; 960 yerlik tam orta məktəb; 160 yerlik uşaq bağçası; 91 çarpayılıq mərkəzi rayon xəstəxanası; inzibati bina; İşğal və Zəfər muzeyləri kompleksi.

Zəngilan rayonunun əhalisi 42547 nəfər - kişilərin sayı 21111, qadınların sayı 21436 nəfər, Şəhid ailələrinin sayı 240 ailə, Qarabağ əlillərinin sayı 209 nəfər, 14-29 yaş gənclərin sayı 9036 nəfərdir.

# Şərqi Zəngəzurun sosial - iqtisadi potensialı






## ŞƏRQİ ZƏNGƏZUR: QEYDİYYATDA OLAN ƏHALİ ÜZRƏ ƏMƏK BAZARI (min nəfər)






## ŞƏRQİ ZƏNGƏZUR: İNZİBATİ RAYONLAR ÜZRƏ MİNERAL RESURSLAR




## ŞƏRQİ ZƏNGƏZUR: ƏKİN SAHƏLƏRİNİN PROQNOZLAŞDIRILAN STRUKTURU (ha)



## ŞƏRQİ ZƏNGƏZUR: ÇOXİLLİK ƏKMƏLƏR ÜZRƏ PROQNOZLAŞDIRILAN STRUKTUR (ha)




## ŞƏRQİ ZƏNGƏZUR: BİTKİÇİLİK MƏHSULLARININ İSTEHSALI ÜZRƏ PROQNOZ (min ton)



## ŞƏRQİ ZƏNGƏZUR: HEYVANLARIN PROQNOZ SAYI (min baş)




## ŞƏRQİ ZƏNGƏZUR: ƏSAS HEYVANDARLIQ MƏHSULLARININ PROQNOZ İSTEHSALI (min ton)



## ŞƏRQİ ZƏNGƏZUR: TORPAQ EHTİYATLARININ TƏRKİBİ (min ha)




## ŞƏRQİ ZƏNGƏZUR: MEŞƏ EHTİYATLARI (min ha)




ŞƏRQİ ZƏNGƏZUR: TURİZM POTENSİALI
1 Gəncəsər monastırı
2 Xudavəng monastırı
3 Lex qalası
4 Zar mağarası
5 Böyük bulaq
6 Ağoğlan monastırı
7 Dəmirovlu pir məbədi
8 Məlik Əjdər Türbəsi
9 Həmzə Sultan sarayı
10 Uşaq qalası
11 Xudafərin körpüsü
12 Laləzar körpüsü
13 Gürcülü türbəsi
14 Hacı Bədəl körpüsü
15 Oğlan-Qız daşı
16 Məmmədbəyli türbəsi
17 Şəhri Şərifan şəhərinin qalıqları
18 Qız qalası
19 Zəngilan şəhər məscidi
20 Qız qalası
21 Sultan Məcid hamamı
1 İstisu
2 Qoturlu
3 İlıqsu
mədəni turizm
ekoturizm
Kəlbəcər
Laçın
Qubadlı
Cəbrayıl
Zəngilan



## II fəsil.
## ZƏFƏR TARİXİMİZİN XRONİKASI



Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə

bəyanat imzalayıblar. Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarılmalıdır.

Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi

Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu.

Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi.

Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

İşğaldan azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edirik:

**27 sentyabr**

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr**

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr**

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr**

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və

Alaqurşaq kəndləri

**25-26 oktyabr**

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**

Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabr**

Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri

Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri

Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri

Zəngilan rayonunun Beşdəli kəndi

Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

Xocalının Qarabulaq, Moşxmaat kəndləri

**8 noyabr**

ŞUŞA şəhəri

**9 noyabr**

Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri

Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri

Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri

Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri

Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri

Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi

Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri

**10 noyabr**

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.

**20 noyabr**

Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub.

Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.

**25 noyabr**

Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib.

Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir.

2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

**1 dekabr**

Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

Ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

## Ermənistan qoşunlarının döyüş itkiləri

| Sıra №-si | İtkilər | Cəmi |
|---|---|---|
| 1. | Şəxsi heyət | 10000-ə qədər |
| 2. | Tank | 287 |
| 3. | PDM | 66 |
| 4. | PDM-K | 3 |
| 5. | 152 mm-lik ÖAQ (2S3 Akasiya) | 14 |
| 6. | 122-lik ÖAQ (2S1 Qvozdika) | 14 |
| 7. | Top (müxtəlif çaplı) | 315 |
| 8. | Minaatan (müxtəlif çaplı)/TƏV | 63/53 |
| 9. | 300 mm-lik BM-30 ("Smerç") | 4 |
| 10. | SU-25 təyyarə | 5 |
| 11. | 122 mm-lik BM-21 ("Qrad") | 97 |
| 12. | 220 mm-lik "Uraqan" | 2 |
| 13. | 273 mm-lik WM 80 YARS | 2 |
| 14. | 220 mm-lik TOS (sursatı ilə birlikdə) | 2 |
| 15. | S-300 ZRK atıcı qurğusu | 7 |
| 16. | S-300 ZRK işıqlandırma və yönəltmə r/lokatoru | 1 |
| 17. | S-300 ZRK RL aşkaretmə stansiyası | 2 |
| 18. | 5N84 (Oborona) RLS | 1 |
| 19. | ZRK "Tor" | 6 |
| 20. | ZRK "Osa" | 38 |
| 21. | ZRK "Osa" doldurucu qurğu | 1 |
| 22. | ZRK KUB atıcı qurğusu | 2 |
| 23. | ZRK KUB İKT stansiyası | 2 |
| 24. | ZRK KRUQ RTS | 1 |
| 25. | ZRK S-125 antena postu (UNV-2D) | 2 |
| 26. | ZQ M55 Zastava (MTLB üzərində) | 5 |
| 27. | ZQ-23-2/4 (MTLB üzərində) | 9 |
| 28. | PUA | 22 |
| 29. | ƏTRK "ELBRUS" (raket) | 2 |
| 30. | Ballistik raket | 2 |
| 31. | "TOÇKA-U" raket kompleksi | 1 |
| 32. | PMZ (mina döşəyən) | 1 |
| 33. | REM (RTK) vasitəsi /Retranslyator | 5/1 |
| 34. | R-142 (komanda-qərargah maşını), dizel aqreqatı | 2/1 |

| | | |
|---|---|---|
| 35. | NEBO-M (hava hədəfləri RLS) | 1 |
| 36. | P-19 radiolokasiya stansiyası | 1 |
| 37. | P-18 radiolokasiya stansiyası/antena postu | 3/1 |
| 38. | 19J6 radiolokasiya stansiyası | 3 |
| 39. | Repellent (radiotexniki maneə vasitəsi) | 4 |
| 40. | Yük avtomobili (22 sursatlı), minik avtomobili | 253/46 |
| 41. | PİKAP avtomobil/xüsusi avtomobil | 5/1 |
| 42. | MTLB | 3 |

## Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlər

| Sıra №-si | Hərbi qənimətlər | Cəmi |
|---|---|---|
| 1. | Döyüş sursatları (müxtəlif çaplı) | 2994285 |
| 2. | Tank | 101 |
| 3. | PDM | 63 |
| 4. | PDM KŞ | 1 |
| 5. | BRDM-2 | 8 |
| 6. | Top və haubitsalar | 169 |
| 7. | Minaatan | 64 |
| 8. | TƏİRK | 97 |
| 9. | Tank əleyhinə idarəolunan raketlər | 358 |
| 10. | Qumbaraatan | 635 |
| 11. | Atıcı silahlar | 3615 |
| 12. | Şilka ZQ-23-4 | 11 |
| 13. | KUB-2K12 (ZRK-nın 1RL-93 raket tuşlama stansiyası) | 1 |
| 14. | KUB-2K12 (ZRK-nın atıcı qurğusu) | 1 |
| 15. | 3M9M3 tipli məmulat İZR-i (raket) | 3 |
| 16. | 9M331 TOR kompleksi (9M334 tipli tara) | 6 |
| 17. | 9M331 TOR kompleksi İZR-i (raketi) | 21 |
| 18. | 9M33M2, 9M33M3 tipli məmulat İZR-i (raket) | 31 |
| 19. | OSA döyüş maşını | 1 |
| 20. | 9T217BM3 tipli nəqliyyat doldurucu maşın | 2 |
| 21. | "İqla-S", "İqla", "İqla-1" məmulatı | 138 |
| 22. | "Strela-2" məmulatı | 6 |
| 23. | "İqla-S", "İqla", "İqla-1", "Strela-2" buraxıcı mexanizm | 55 |
| 24. | Minik avtomobili | 120 |

| | | |
|---|---|---|
| 25. | Yük avtomobili | 512 |
| 26. | Xüsusi avtomobil | 94 |
| 27. | Qoşqu | 47 |
| 28. | BTS – 4 | 5 |
| 29. | MTLB | 48 |
| 30. | BRM-1K | 6 |
| 31. | ÖAQ (2S1 Qvozdika) | 12 |
| 32. | Traktor | 10 |





Ermənistan ordusundan qənimət kimi götürülmüş texnikaların bir hissəsi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirilib, onlar həmçinin 2021-ci ilin aprelində Bakıda açılmış Hərbi Qənimətlər Parkında sərgilənir.



## Azərbaycan suverenliyini tam bərpa etdi

2023-cü il sentyabrın 19-20-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirləri keçirilib. 23 saat 48 dəqiqə davam edən əməliyyatda Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus döyüş mövqeləri, hərbi təyinatlı avtomobillər, artilleriya və zenit-raket qurğuları, radioelektron mübarizə stansiyaları və digər hərbi təyinatlı vasitələr zərərsizləşdirilib, legitim hərbi obyektləri və döyüş texnikası, hərbi infrastrukturu yüksək dəqiqliyə malik silahlarla hədəfə alınaraq atəş zərbələri ilə məhv edilib, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub:

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir.

Prezident, Ali Baş Komandan İlham Əliyev 10 yanvar 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsində bu əməliyyatı belə dəyərləndirib: “Antiterror əməliyyatı çox

uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Başqa variant ola bilməzdi. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular. Ondan sonra, sadəcə olaraq, danışıqlar gedirdi və daha doğrusu danışıqlar yox, bizim şərtlərimizi onlar sanki müzakirə edirdilər. Ancaq biz hansı şərt qoymuşduqsa, o şərt də təmin edildi, o cümlədən separatist qurumun buraxılması və bütün digər şərtlər. Biz dedik ki, təslim olursunuzsa əməliyyatı dayandıracağıq. Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunacaq-olunmayacaq? Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqeyimiz birmənalı idi – onların tutulması. Bəziləri artıq Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəziləri Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara

deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil”.

## "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin bəyanatı

Azərbaycan öz tarixinin ən şərəfli günlərini yaşayır;

2020-ci ilin sentyabr-noyabrında 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabrında cəmi 23 saat 40 dəqiqə sürən anti-terror əməliyyatı nəticəsində dövlətimizin bütün ərazisində suverenliyini bərpa etməsindən sonra, 2024-cü il aprelin ortalarında Qarabağda müvəqqəti yerləşmiş Rusiya sülhməramlı hərbi kontingenti ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarıldı, xalqımızın böyük əksəriyyətinin şübhəli nigarançılığına, intizarına son qoyuldu, Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi ölkəmizin müstəqil, balanslı, heç bir hərbi bloka qoşulmamaq haqqında öhdəliklərinə, siyasi strategiyasına sadiq qaldığı əyani şəkildə dünyaya bir daha göstərildi. Eyni zamanda atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Müşahidə Mərkəzi fəaliyyətinə son qoydu. Eyni zamanda Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası, habelə dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı çərçivəsində, onun süqutu dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun keçməsini, sərhəd xəttinin razılaşdırılmış hissələrində öz



sərhəd xidmətlərinin eyni vaxtda və paralel yerləşdirilməsini, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanılmasını razılaşdırdı. Bununla Qazax və Naxçıvanda 1992-ci ildə işğal edilən kəndlərimizin ölkəmizə qaytarılması prosesi başlandı.

"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi olaraq, bu şərəfli tarixi hadisələrin gerçəkləşməsinin siyasi memarı Prezident, Ali Baş Komandan İlham Əliyev başda olmaqla, ölkə vətəndaşlarımızı təbrik edir, regionumuzda daimi sülhün, ölkəmizdə firəvan yaşamın, əmin-amanlığın tezliklə bərqərar olacağına inanırıq.

17.04.2024



**Gerçəkləşən ATA Vəsiyyəti, OĞUL Vədi**

**Prezident, Ali Baş Komandan İlham Əliyev:** Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!

Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!







**Şəhid və Qazilərimizə ithaf**

*Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!*

**Azərbaycan Prezident, Ali Baş Komandan**
**İlham Əliyev**

Torpaq, Vətən, Haqq, Ədalət uğrunda savaş müqəddəs kitabımız "Qurani-Kərim"də ən böyük savab əməl hesab olunur və bu yolda canını qurban verənlər müqəddəs Şəhidlik zirvəsinə ucalır, dinimizə görə Haqq dərgahında əcrə yetişmiş, cənnətə qovuşmuş sayılırlar.

“Haqq yolunda şəhid olanları ölmüş hesab etməyin, əksinə, onlar öz Rəbbinin dərgahında diridirlər və əcrə yetişən sayılırlar.” Ali-İmran, 169.

"Allah yolunda savaşın sizinlə savaşanlarla. Ancaq təcavüz etməyin. Təcavüzkarları sevməz Allah. Harda yaxalasanız öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxarın onları." Bəqərə, 190-194

"Ey iman sahibləri, qisas alırsınızsa, yaşayırsınız deməli, beləcə qorunursunuz Allahın əzabından". Bəqərə, 179

"Fitnədən əsər-əlamət qalmayana qədər onlarla savaşın". Ənfal, 39

"Sizə qarşı hərb açıldığı üçün, zülmə uğramanız səbəbi ilə cihada izin verildi". Həcc,39

"Qüvvəniz yetən qədər qüvvə yığın, savaş atlarını hazır saxlayın ki, qorxuya salasınız Allahın və sizin düşməninizi". Ənfal, 60

"Küfrü artırmaq deməkdir savaşı başqa aya keçirmək. Bununla kafirlər azdırırlar sizi". Tövbə, 37

"Ey Peyğəmbər! Savaşa qalx kafirlərlə. Budur o böyük qurtuluş".Tövbə, 73 və sair.

Məhəmməd Peyğəmbər (s.ə.s), Həzrət Əli (r.a), İmam Hüseyn (r.a) torpaq, din uğrunda, Allahın sevmədiyi, öldürməyi əmr etdiyi təcavüzkarlarla savaşda özlərindən sonra gələn islam ümmətinə, müsəlmanlara Şəhid olmağın yolunu, nümunəsini, mərtəbəsini də göstərmişlər. Bədir, Hüneyn, Əbtac, Xeybər döyüşlərində Peyğəmbərimiz özü öndə getmiş, hücum, müdafiə planları qurmuş, sərkərdəlik etmiş, hər dəfə də qalib olmuşdu. Uhud döyüşündə çoxlu yara alıb al qanı axan Peyğəmbərimiz özünün sonuncu oxlarını da yanında vuruşan Əbu Vənnasa verərək deyib: - Al bu oxları da at, vur, öldür düşməni!

Peyğəmbərimizin qılıncı üzərində yazılmışdı: "Qorxaqlıqda ar və zillət, irəli atılmaqda şərəf və izzət vardır".

Şəhidlik hər bir türk düşüncəsində, dünyagörüşündə bu

dünyada yetişə biləcəyi ən yüksək məqamdır. Türkün böyük şairi Mehmet Akif  Ərsoyun Çanakkala şəhidlərinə həsr etdiyi dahiyanə şeirin son misraları sanki eynilə Azərbaycan şəhidlərinə yazılıb:

*"Ey şehid oğlu şehid, isteme benden makber,*
*sana aguşunu açmış duruyor Peygamber."*

Azərbaycanın 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük savaşda canlarını qurban verən şəhidlərimizin böyük bir qismi 1988-1994-cü il I Qarabağ müharibəsi şəhidlərinin övladları, mənəvi yetirmələri və davamçıları idi. Allahtaala  şəhidlərimizi cənnətlə müjdələmişdir və sevgili Peygəmbərimiz isti qucağını açıb şəhidlərimizi gözləyir.

Şair Kamil Sərbəndi yazır:

*Kim Şəhid olmuş, bəqa mülkündə cənnətdir yeri,*
*Atəşə düşməz, nə də görməz əzabi- məhşəri.*
*Bunları Allah edib nazil, yazıb Peyğəmbəri*
*Ayeyi-Quran ilə dillərdə əzbərdir Şəhid.*

Şəhidlərimiz fəxrimiz, başucalığımızdır, torpağı vətən edənlərimizdir, düşmən belini qıranlarımız, xalqımızın mənlik, heysiyyətini özünə qaytaranlarımızdır, əyilmiş qəddini, bağlı dilini, qırpıq gözlərini, bağlı qollarını açanlarımız, sapı özümüzdən olan xəyanətkarın kökünü kəsib doğrayanlarımızdır.

*Şəhidlər,*
*Siz torpaq altında dərin köklərimizsiz*
*yatırsınız al- qan içində.*
*Siz torpaq altında dərin uyqudaykən*
*düşməni cağırdılar*
*satıldıq , oyanın!!!*
*Biz torpaq üstündə dərin uyqudayıq*
*qalxın, oyadın, oyandırın bizi,*
*Şəhidlər!!!*

Xalqımıza, türksoylu qardaş ölkələrimizə, bütün azadlıqsevər millətlərə qələbə sevinci gətirən Ordumuzun II Qarabağ savaşında qazandığı zəfər, xüsusilə alınmaz, əlçatmaz, ünyetməz sayılan Şuşa qalasının alınması dünya hərb tarixinə yazılan unikal döyüş səhifəsidir, nadir qəhrəmanlıq, cəsarət, şücaət nümunəsidir. İnsan ayağı dəyməyən keçilməz meşəliklərlə, vəhşi heyvanların əhatəsində, yalnız təbiəin yetirdiyi ağac, bitkilərlə qidalanan, özlərinə yeyəcək tapan xüsusi təyinatlılarımız gündüzlər gizlənib yalnız gecələr Şuşaya doğru irəliləyib yol gedirdilər. Şuşaya aparan bütün yollarda istehkamlar düzəldən ermənilərin yatsa yuxularına girməzdi ki, insan ayağı dəyməyən bu sıldırım hündür qayalıqlardan bəni-insan yuxarı dırmaşa bilər, keçilməzi vəhşi meşəliklərdən kimsə cığır aça bilər. Bunu yalnız Azərbaycan əsgəri bacara bilərdi. Onlar hamısı yüngül silahlı idilər, ilk sırada döyüşə atılanlar də səs salmamaq üçün bıçaq, süngü ilə, illərin təlim məşqlərində qazandıqları əlbəyaxa savaşlarla qarşılarına keçənləri qırıb çatırdılar. İsti otaqlarda yeyib yatmış mənfur düşmən bu qorxunc qara paltarlıların qorxubilməyən hücumu qarşısında əzilib sınır, məhv olurdular. Hətta, avtomat atəşlərindən ağır yara alan döyüşçülər də qanları axa-axa caynaqlarını keçirdiyi əzanı dartıb qoparmadan, can almadan can vermirdilər.

Üzü üstə yerə sərilən hər əsgəri başqası əvəz edirdi. Belə savaş yalnız kino-filmlərdə görünmüşdü. Onlar xəyalı gerçəyə çevirmişdilər, Azərbaycan əsgərlərinin fiziki, mənəvi ruhu, enerjisi bitib tükənmək bilmirdi. Atilla qoşunlarının Avropa yürüşlərində düşmən üstünə atılanda hayqırdığı "vur aaa!!!" nidası iki min ildir ki "uraaaa!" sədası ilə yaddaşlara həkk olunduğu kimi, Azərbaycan xüsusi təyinatlılarının "Allahü-əkbər!" nidaları da düşməni eləcə vahiməyə salırdı. Budur müsəlman, islam, türk ruhu, iman, inamı!

30 ildən bəri Qarabağın hər qarışını istehkama çevirən düşmən və onun hərbi-siyasi havadarları bu amili, bu ruhu nəzərə almamışdı, anlamamışdı.

Sıldırım qayalarda biri-birinin çiyinləri üzərində Şuşa qalasına qalxan Azərbaycan əsgərinin bu qəhərmanlığı, şücaət, rəşadəti ən gözəl film, bədii əsər mövzusudur, həm də ən böyük alqışa, əbədi sevgiyə layiqdir.

*Alqış Vətən torpağını,*
*Candan əziz bilənlərə.*
*Alqış olsun Vətən üçün,*
*Döyüşlərdə ölənlərə!*
*Belə oğullarla torpaq – Vətəndir,*
*Əllərdən düşməyən bayraq – Vətəndir,*
*İgidlər uyuyan torpaq - Vətəndir,*
*Diz çökək, güc alaq Şəhid adından,*
*Torpaq Vətən olur Şəhid qanından.*

Ana kitabımız olan "Kitabi-Dədə Qorqud"da, Dədə Qorqudun öyüd, vəsiyyət, kəlamlarında yağı düşmənlərdən intiqam, qisas almaq ən şərəfli borc, örnək sayılıb:

Qazan xan durub söylədi:

*- Uca Tanrıdan səs gəldi.*
*Beyrək mənə süs gəldi -*
*Niyə qanım yerdə qalıb?*
*Alın onun qisasını...*

28 ildən bəri yağı tapdağında qalmış Qarabağın əsarətdən azad edilməsi uğrunda döyüşən Vətənimizin ən sayseçmə gəncləri ürəklərində həm də bu inamı daşıyır, intiqam, qisas üçün savaşır, bu ruhla, amalla vuruşurdular.

*Diriyik, ömrümüz tez qırılsa da,*
*Hərəmiz Vətənin bir parçasıyıq-*
*Ruhumuzla yurdu qoruyasıyıq.*

Torpaq, Vətən,  Bayraq sevgisi şəhidlərimizin qanında, canında idi. Müharibədən onlarla canlı kadr yaddaşlarda əks olunub; qanı axmaqda olan yaralı qazilərimiz son nəfəsdə dövlət bayrağımızı gözlərinə, köksünə, ağuşuna, yaralı sinəsinə sıxır, qanı ilə isladır, torpağa qovuşmadan sanki bayrağına borcunu ödəməsi, əmri yerinə yetirməsi barədə raport verir.

*Bayraqları bayraq edən üstündəki qandır,*
*Torpaq-əgər uğrunda ölən varsa, Vətəndir!*
*Torpaq Şəhid qanı ilə suvarılmasa,*
*Azadlıq ağacı bar verməz.*

Qarabağı Azərbaycana, Azərbaycanı Qarabağa qovuşduran müzəffər Ordumuzun Şəhid və qazilərinə, əsgərlərinə sevgimiz əbədidir, onlar hər zaman bizimlədir!

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirə tək, qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

## Şəhid ataları və qazilərin Şərqi Zəngəzura səfəri

"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirdiyi "Şərqi Zəngəzur - Quruculuq və Böyük Qayıdışın ünvanı" layihəsi çərçivəsində 2024-cü il mayın 4-də Lənkəran, Astara, Sabirabadda doğulub 44 günlük Vətən müharibəsində Şərqi Zəngəzur bölgəsinin Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarında erməni işğalçılarına qarşı savaşlarda igidlik göstərərk şəhid olmuş əsgərlərimizin valideynlərinin və sağlamlığını itirən döyüşçülərin həmin torpaqlara səfərini təşkil edib.

Şəhid ataları, ziyalılar erməni vandalizminin izlərini – talan edilib dağıdılan yaşayış məskənləri, qəbiristanlıq, ziyarətgahların, vəhşicəsinə məhv edilən meşə, meyvə bağlarının, regionun təbiətinə vurulan sağalmaz yaralarn canlı şahidi olublar. Şərqi Zəngəzurda görülən genişmiqyaslı bərpa, quruculuq, tikinti işləri barədə əyani məlumat alıblar, Zəngilan rayonunun Aşağı Ağalı kəndində yaradılan nümunəvi şəraiti görüblər. Səfərdə iştirak edən Vətən mü-




haribəsi şəhidi Mahsun Bağırzadənin (30 may 1998; Xanbulan, Lənkəran rayonu – 21 oktyabr 2020; Qubadlı rayonu) atası Zahir Bağırov, şəhid Bəxtiyar Mayılovun (13 aprel 1995, Surra, Sabirabad rayonu – 4 noyabr 2020, Qubadlı rayonu) atası İxtiyar Mayılov, şəhidin döyüş yoldaşları – Lənkəranlı baş leytenant Elnur Talıbov, II qrup əlil Astaralı Möhnət Səmədov və AMEA Lənkəran Regional Elmi Mərkəzinin əməkdaşları ilə Qubadlıdakı N. hərbi hissəsində görüş olub, zabitlər şəhid dostları barədə xatirələrini danışıblar, Vətən sevgisi, birlik, bərabərlik, milli ruh, düşmənə nifrət hissləri ilə döyüşən şəhidlərin savaşdığı, şəhadətə qovuşduğu son məkanları göstəriblər.




VƏTƏNİ MÜDAFİƏ ETMƏK, VƏTƏN YOLUNDA ŞƏHİD OLMAQ, VƏTƏN NAMİNƏ ÖZÜNÜ FƏDA ETMƏK DUYĞULARI, HİSSLƏRİ BÜTÜN AZƏRBAYCANDA HÖKM SÜRMƏLİDİR!
Ümummilli Lider Heydər Əliyev

# Xankəndi şəhərində Zəfər paradı







08 noyabr 2023-cü il






ZƏFƏR

## III fəsil.
## ŞƏRQİ ZƏNGƏZURUN DİRÇƏLİŞİ

Prezident, Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 44 günlük tarixi qələbədən bir həftə sonra - 16 noyabr 2020-ci ildə Qarabağ və Şərqi Zəngəzur bölgəsinə ilk dəfə səfər etdilər. Belə səfərlər müntəzəm olaraq davam etməkdədir:

**Kəlbəcər**

16 avqust 2021-ci il
26 iyun 2022-ci il
27 may 2023-cü il
25 avqust 2023-cü il
07 noyabr 2023-cü il

**Cəbrayıl**

16 noyabr 2020-ci il
14 fevral 2021-ci il
26 aprel 2021-ci il
04 oktyabr 2021-ci il
26 may 2022-ci il
19 oktyabr 2022-ci il
04-05 may 2023-cü il
17 iyun 2023-cü il
28 sentyabr 2023-cü il
18 may 2024-cü il

**Laçın**

14 fevral 2021-ci il
16 avqust 2021- ci il
26 iyun 2022- ci il
21 sentyabr 2022- ci il
04 may 2023-cü il
27-28 may 2023-cü il
25-26 avqust 2023-cü il
10 may 2024-cü il

**Qubadlı**

23 dekabr 2020-ci il
25 oktyabr 2021-ci il
19 oktyabr 2022-ci il
04 may 2023-cü il

**Zəngilan**

23 dekabr 2020-ci il
20 oktyabr 2021-ci il
14 fevral 2021-ci il
26 aprel 2021-ci il
27 may 2022-ci il
19 oktyabr 2022-ci il
04 may 2023-cü il
28 sentyabr 2023-cü il
29 sentyabr 2023-cü il
18 may 2024-cü il

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şərqi Zəngəzurda
















# Prezident İlham Əliyev: Azərbaycan bayrağını asmağa bir salamat bina tapa bilmədik...










# Bunun adı ermənilikdir...






## Prezident İlham Əliyev: Bu gün Şərqi Zəngəzur sıfırdan yenidən inşa edilir, bütün Qarabağ kimi




Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 29-da Zəngilanda keçirilən "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində çıxışı zamanı deyib: "Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik. Çünki onun coğrafi yerləşməsi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir, ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası bu bölgənin inkişafı baxımından mühüm amil olub. O, insanlar üçün asan çıxışı təmin edəcək. Gələcəkdə isə əminəm ki, Zəngilanda xarici turistlərin sayı çox olacaq. Çünki bu bölgə Azərbaycanın ən gözəl diyarlarındandır - meşələri, çayları, gölləri. Misilsiz ekosistemə malik olan Zəngilan bizim ən böyük sərvətlərimizdən biridir. Bu gün Şərqi Zəngəzur sıfırdan yenidən inşa edilir, bütün Qarabağ kimi".

## Tariximizin şərəfli dövrü: Zəfər, Dirçəliş, Qayıdış

1991-1994-cü illər I Qarabağ müharibəsi zamanı Azərbaycanın ərazisinin 20 faizini işğal edən Ermənistan dövləti həmin əraziləri həmişəlik olaraq əlində saxlayacağına əmin idi. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs sazişinin imzalanması, münaqişənin nizamlanması missiyası həvalə edilən ATƏT-in Minsk qrupunun hər vəchlə mövcud status-kvonu saxlamaq cəhdləri ermənilərə işğal edilmiş Azərbaycan ərazilərində qanunsuz məskunlaşdırma həyata keçirməyə və regionun yeraltı və yerüstü sərvətlərini talamağa imkan yaratmışdı. Prezident İlham Əliyev münaqişənin qan tökmədən, ərazimizin danışıqlar yolu ilə azad edilməsi üçün səbirlə danışıqlar aparırdı. Lakin havadarlarına arxalanan Ermənistan torpaqları azad etmək istəmirdi. Ermənilər eyforiya içərisində idilər, özlərini "məğlubedilməz" hesab edirdilər. Ermənistanın müdafiə naziri David Tonoyan yeni ərazilər uğrunda yeni müharibə ilə Azərbaycanı hədələyir, baş nazir Nikol Paşinyan "Qarabağ Ermənistandır. Nöqtə" deyirdi. Lakin ermənilər anlamırdılar ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Azərbaycan isə zərgər dəqiqliyi ilə torpaqların işğaldan azad edilməsi üçün ciddi hazırlıq işləri görürdü. Ən müasir silahlarla təmin edilən nizami ordu yaradılması, hərbi potensialımızın qat-qat artması, iqtisadiyyatın möhkəmlənməsi, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin güclənməsi və əlverişli beynəlxalq, geosiyasi vəziyyətin yetişməsi Ordumuzun Zəfər yürüşünə başlamasına şərait yaratdı. Erməni təxribatına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlanan əks-həmlə 44 gündə Zəfərlə başa çatdı. İlk gündən Azərbaycan ordusunun Qarabağ və İranla sərhəd boyunca inamla irəliləməsi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçının ardınca

noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edilməsi müharibənin müqəddəratını həll etdi. Noyabrın 10-da Ermənistanın baş naziri kaputilyasiya aktına imza atdı. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Bundan sonra Ağdam, Laçın, Kəlbəcər rayonlarının işğal altında qalan əraziləri bir güllə atılmadan sahibinə qaytarıldı.

Dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsində öz şücaəti ilə dünyanın hərb tarixinə yeni səhifə yazdı. 1993-cü ildən bəri icra edilməyən BMT Təhlükəsizlik Şurasının qətnamələrini Azərbaycan özü yerinə yetirdi. Azərbaycan xalqı yenilməz və məğrur olduğunu bir daha dünyaya nümayiş etdirdi. Bu şanlı qələbə üç minə yaxın şəhidin və minlərlə Vətən müharibəsi qazısının qəhrəmanlığı və igidliyi bahasına başa gəldi. Şərqi Zəngəzur bölgəsinin işğaldan azad olunmasında iştirak edən minlərlə Azərbaycan döyüşçüsü müxtəlif orden və medallarla təltif olundular. Dekabrın 10-da qələbəmizin təmin edilməsində mühüm köməyi olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda Zəfər paradı keçirildi. 44 günlük Vətən müharibəsinin nəticəsində işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Şərqi Zəngəzurda da bərpa və quruculuq işlərinə başlandı. 26 aprel 2021-ci ildə Zəngilan rayonunda Prezident İlham Əliyevin iştirakı ilə ilk "Ağıllı kənd" layihəsinin, Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoyuldu.

7 avqust 2021-ci ildə Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının, 26 oktyabr 2021-ci ildə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə Zəngilan rayonunda "Dost Aqropark"ın, Azərbaycanın əsas hissəsini

Naxçıvan Muxtar Respublikası ilə birləşdirən Horadiz-Ağbənd dəmir yolunun, avtomobil yollarının inşasına xeyir-dua verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 25 oktyabr 2021-ci ildə Qubadlı rayonuna səfərləri zamanı 110 kV-luq "Qubadlı" yarımstansiyasının, 27 may 2022-ci ildə Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının, "Cəbrayıl" enerji qovşağının, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev 27 iyun 2022 ci ildə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının açılışını edib və "İstisu" sanatoriyasının, Kəlbəcər şəhərində İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2022- ci il oktyabrın 19-da Şərq Zəngəzura səfəri zamanı Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsinin, Cəbrayılda və Qubadlıda 35 kilovoltluq yarımstansiyalarının və Rəqəmsal İdarəetmə Mərkəzinin, Qubadlı şəhərində İşğal və Zəfər muzeyləri kompleksinin, Zəngilan şəhərində məktəb binasının və ilk yaşayış binasının təməli qoyulub, Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyası işə salınıb.

2022-ci il oktyabrın 20-də Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Həmçinin dövlət başçıları Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər. Dövlət başçılarının iştirakı ilə Cəbrayıl rayonunda "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin, Horadiz-Ağbənd dəmir yolu xəttinin

Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməli qoyulub. Azərbaycan və Türkiyə şirkətləri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobill yollarını inşa edir.

Heydər Əliyev Fondu da işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərində fəal iştirak edir; Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Saatlı məscidi, İncəsənət qalereyası, Xalça muzeyi, Yuxarı Gövhər Ağa məscidi, Xan qızı bulağı və digər tarixi binaların və abidələrin bərpasına dəstək verilib. Aşağı Gövhər Ağa məscidi, Mamayı məscidi, Üzeyir Hacıbəylinin ev-muzeyi, Yeni Şuşa məscidi, Ağdam Cümə məscidi, Xocavənd rayonunun Susanlıq kəndindəki kilsənin bərpası istiqamətində işlər davam etdirilir.

Fondun rəhbəri, Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva işğaldan azad olunan ərazilərimizdə tarix, mədəniyyət, dini abidələrin, ziyarətgahların qorunub saxlanması, bərpasına xüsusi diqqət göstərir. Qubadlı rayonunun Yusifbəyli kəndində XVIII əsrdə inşa olunmuş Yusifbəyli kənd məscidinin avtomobil yolunun kəndin içindən keçən hissəsində təmir, genişləndirmə işləri aparılan zaman uçub dağılması barədə KİV-də və sosial şəbəkələrdə yayılmış foto, videolardan dərhal sonra Mehriban xanım kəskin reaksiyasını bildirərək günahkarların cəzalanacağını bildirmişdi.

Eyni zamanda Qubadlı rayonunun Saray kəndində yerləşən Hacı Fətəli məscidinin, eyni məkandakı seyid Fərzalıbaba ocağının, Səfərə pirinin də mühafizəsi ilə bağlı şəxsən tapşırıq vermiş, bundan sonra avtomobil yolunun layihəsində dəyişiklik edilmişdi.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilmişdir. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin sürətlənməsi kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək. Ölkənin əkin dövriyyəsi artacaq, strateji əhəmiyyətli su anbarlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yüz minlərlə hektar sahənin suvarılması təmin ediləcək. Azad edilmiş torpaqlarda üzümçülük, taxılçılıq, pambıqçılıq və heyvandarlığın inkişafı üçün çox böyük potensial var. Bu potensial sayəsində kənd təsərrüfatının davamlı inkişafı təmin olunacaq. İşğal altında olmuş ərazilərin minalardan təmizlənməsi əhalinin öz doğma yer-yurdlarına qayıtmalarına şərait yaradır. Tezliklə Şərqi Zəngəzurda həyat öz axarına düşəcək.






**Prezident İlham Əliyev:** *"*Bu, doğurdan da böyük xoşbəxtlikdir. Həm müharibədə qalib olmaq, xalqımızın ümidlərini doğrultmaq, eyni zamanda, qurub-yaratmaq - bundan böyük xoşbəxtlik ola bilməz. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir ki, xalqımız doğurdan da uzun illər ərzində əyilmədi və öz kimliyini unutmadı. Zəngilanın Ağalı kəndində uşaqların baxışlarını, gülüşlərini görəndə vallah, adam sanki uçur. Axı onlar bu yerləri ancaq kitablarda görüblər, məktəblərdə eşidiblər, valideynlərindən, babalarından, nənələrindən eşidiblər, amma indi gəliblər oraya. Torpaq çəkir və əminəm ki, bizim keçmiş köçkünlərimizin hamısı qayıdacaq."

## Böyük Qayıdış Cocuq Mərcanlıdan başladı

Azərbaycan Böyük qayıdışa 2017-ci ildən başlayıb. 2016-cı ildə Azərbaycan Ordusunun Aprel Zəfərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası və kənd sakinlərinin geri dönüşü Böyük qayıdışın başlanğıcı oldu.

Aprel Zəfərindən bir il sonra 2017-ci il iyulun 14-də Cocuq Mərcanlı kəndində tarixi hadisə yaşandı. Yenidən öz yurd-yuvalarına qayıdan soydaşlarımızın yanında olan Prezident İlham Əliyev bu tarixi hadisənin mənasını belə izah etdi: "Bu gün Lələtəpədə və digər işğaldan azad edilən ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız Şuşada dalğalanacaq".

Bu, təsadüfən deyilən fikir deyildi. Sözünə, vədinə sadiq olan lider kimi İlham Əliyevin bu bəyanatı Azərbaycan xalqının qələbəyə inamını daha da artırdı və Aprel döyüşlərində ağır zərbə alan düşmənin canına vəlvələ saldı.

Cocuq Mərcanlı erməni əsarətində qalan Qarabağ torpaqlarına aparan yolun başlanğıcı, Şuşaya, Ağdama, Zəngilana, Füzuliyə, Qubadlıya, Laçına, Kəlbəcərə və digər əsir torpaqlarımıza açılan ümid qapısı oldu. Elə kəndin girişindəki lövhələrdə əksini tapan "Cocuq Mərcanlıdan Şuşaya" lövhəsi də hər kəsi duyğulandırmaqla yanaşı, içimizdəki inam hissini getdikcə artırdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərindəki uğuru Vətən savaşında qələbəni təmin etdi, böyük Zəfərin təməl daşı oldu. 44 günlük Vətən müharibəsindəki qələbədən sonra Azərbaycan yalnız öz iqtisadi imkanları hesabına işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzuru yenidən qurmağa başladı. Çünki düşmən 30 il ərzində bu torpaqlarda daşı-daş üstündə qoymamış, əsl

barbarlıq xislətlərini ortaya qoymuşdu. Bunu təkcə biz deyil, bütün dünya gördü.

İlham Əliyevin işğaldan azad edilən torpaqlarımızda reallaşdırdığı layihələr isə onu deməyə əsas yaratdı ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur dünyanın ecazkar məkanlarından birinə çevriləcək, oradan məcburi köçkün düşən soydaşlarımız da yurd-yuvalarına qayıdacaqlar. Böyükdən-kiçiyə hər kəs inanırdı ki, Qarabağı 44 günə düşməndən azad edən Ali Baş Komandan qısa zamanda bu torpaqlarda möcüzələr yaradacaq, Qarabağ, Şərqi Zəngəzur cənnətməkana çevriləcək və "Böyük qayıdış" konsepsiyasının icrasına başlanılacaq.






## Cocuq Mərcanlıda QHT layihəsi: "QHT Kitabxanası" yaradılıb, dəyirmi masa keçirilib

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə 2022-ci ilin aprelində "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi tərəfindən həyata keçirilən "Şərqi Zəngəzura qayıdışa mənəvi dəstək" layihəsi çərçivəsində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbində "QHT kitabxanası" yaradılıb. QHT tərəfindən kitabxanaya 200 adda kitablar və digər avadanlıq alınıb verilib. "QHT kitabxanası"nda ictimaiyyət nümayəndələrinin iştirakı ilə açılış və "Böyük Qayıdış Şərqi Zəngəzurdan başlanır" mövzuda dəyirmi masa təşkil olunub. Tədbirdə yerli icra strukturlarının, kənd bələdiyyəsinin üzvləri, müəllim və yuxarı sinif şagirdləri də iştirak edib. Sonra "Böyük Qayıdış Şərqi Zəngəzurdan başlanır" mövzusu ətrafında çıxışlar, canlı diskussiya olub. Çıxış edənlər xeyirxah layihənin – "QHT kitabxanası"nın yaradılmasına görə QHT Agentliyinə və "Zəngəzur" İB-ə təşəkkür ediblər.





**Prezident İlham Əliyev 10 yanvar 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsində Şərqi Zəngəzurda görülmüş işlər və icrası nəzərdə tutulan layihələr barədə suala da cavab verib.**

**Həmin cavabın icmalını təqdim edirik:**



*Beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək.

*Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə təsdiq olunacaq, artıq müzakirələr yekunlaşıb. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bizim əsas alətimizdir, bərpa üçün əsas alətimizdir.

*Bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layi-

hələrinin, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər, xəstəxanaların inşası davam etdiriləcək.

*Zabuxçay Su Anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək. Yəni, keçmiş köçkünlər qayıdanda artıq orada əkin-biçin üçün şərait olmalıdır.

*Qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı bizim qurumlarımız ciddi məşğuldur və həm gedənə qədər onlar üçün treninqlər keçirilir, həm də yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və yaradılacaq. Ağdamda və Cəbrayılda iki böyük sənaye zonası artıq fəaliyyətə başlayıb və bu il o zonaların fəaliyyəti böyük dərəcədə genişlənəcək.

*Bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qayıdacaq, onlar arasında beş şəhər - Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq.

*Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, - hansılarda ki, mən təməl qoymuşam, - orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq.

*Mən hesab edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda ancaq o bölgədən çıxmış insanlar yaşamamalıdır. Azərbaycanın istənilən yerindən insanlar orada yaşamaq üçün imkanlara malik olmalıdır. Təbii ki, məsələn, Bakıdan, ya Sumqayıtdan oraya gedib yaşamaq istəyən getsin, ev alsın özünə, mənzil alsın, torpaq alsın, ev tiksin və orada yaşasın. Yəni, onun üçün dövlət, təbii ki, heç bir ev tikən deyil.

*Onu da mən bizim bütün aidiyyəti qurumlarımıza bil-

dirmişəm ki, biz orada yaşamaq istəyənlər üçün evlər tikirik, orada bir bağ evi əldə etmək istəyən üçün yox. Ora bağ evi deyil, ora yaşamaq yeridir. Kim orada yaşamaq istəyirsə, dövlət onun üçün pulsuz ev də tikir, hər şey də təşkil edir.

*Ona görə özəl sektora da mənim tövsiyəm budur ki, bundan istifadə etsinlər. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün Baş planları təsdiqləndi. Şəhərlərin bütün Baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanmışdır.

*İndi ancaq Murovdağın altındakı tuneli nəzərə alsaq, bunun uzunluğu təxminən 12 kilometrdir. İndi təsəvvür edin, bir tunel 12 kilometrdir, amma belə tunellərin sayı, - düzdür, o ölçüdə yox, - onlarladır. Yəni, 2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək.

*Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı - Ermənistanla həmsərhəd olan yerlərdə biz 700 kilometrə yaxın yol çəkmişik.

*Bütün azad edilmiş torpaqlarda bir ildə 7 yarımstansiya inşa etdik və bütün bu yarımstansiyaları ümumi dairəvi şəbəkəyə qoşduq.

*Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir. Çünki qışda bu yoldan istifadə etmək demək olar ki, çox çətindir. Kəlbəcər ilə Laçın arasında 4 kilometr uzunluğu olan ikinci tunel inşa edilir. Füzuli-Şuşa yolu, Zəfər yolu bir ilə çəkilibdir. İkinci yol - magistral yol çəkilir, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın yolu, Laçın istiqamətində əlavə

yolların çəkilməsi. Mən hamısını bəlkə də sadalaya bilmərəm, çünki o qədər çoxdur ki, onları yadda saxlamaq çətindir.

*Horadiz-Ağbənd-Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolunun inşasına başlamışıq.

*Tarixi abidələrin bərpası. Şuşa şəhərində, görün, nə qədər böyük işlər görülüb. Eyni zamanda, Ağdam, Zəngilan, Hadrut, Daşaltı məscidlərinin təməli qoyulub və təmir işlərinə start verilib.

* Su ehtiyatlarımızın 25 faiz mənbəyi Kəlbəcər, Laçın, Zəngilandır. Həm o bölgəni su ilə təmin edəcək, o cümlədən içməli su ilə, eyni zamanda, ölkəmizin digər rayonlarına da su borularının çəkilişi nəzərdə tutulur.

*Ağdam, Füzuli şəhərlərinin baş planı hazırdır. Digər şəhərlərin baş planlarının hazırlanması ilə bağlı müvafiq şirkətlərlə sazişlər imzalanıb.

*İndi Ağalı kəndinin istifadəyə verilməsi nəzərdə tutulur. Yəni genişmiqyaslı işdir, çox böyük işdir - həm texniki nöqteyi-nəzərdən, maliyyə tutumu baxımından və məsuliyyət baxımından.

*Xocavənd rayonunun Hadrud qəsəbəsində hərbi hissənin yaradılmasının ən böyük əhəmiyyəti ondan ibarətdir ki, müharibədən sonra biz ordu quruculuğu prosesini dayandırmamışıq, ordu üçün xərcləri azaltmamışıq, əksinə, artırmışıq.

* Ermənistanda həm iqtidarda, həm müxalifətdə, həm də cəmiyyətdə güclü revanşist əhval-ruhiyyə var. Təəssüf ki, biz bunu real həyatda da görürük. Elə dünən Azərbaycan hərbi qulluqçularına qarşı növbəti hərbi təxribat törədilib. Heç bir əsası olmayan bu təcavüz nəticəsində Azərbaycanın hərbi qulluqçusu öldürülüb. Bu, müharibədən sonra baş verən birinci hadisə deyil. Təəssüf ki, bizim bundan əvvəlki

cəza xarakterli bütün cavab tədbirlərimiz Ermənistan üçün ibrət dərsi olmayıb…bu gün müdafiə nazirindən aldığım məlumata görə düşmən tərəfin 6-8 hərbi qulluqçusu məhv edilib, çoxları yaralanıb. Bu hadisədən bir qədər sonra erməni tərəfi təkidlə atəşin dayandırılmasını xahiş etməyə başladı. Lakin onlar başa düşməlidirlər ki, azərbaycanlı hərbi qulluqçunun ölümü heç vaxt onlara bağışlanmayacaq.

*İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə yanaşı, həm də əməliyyatlar aparılması sahəsində böyük təcrübə deməkdir. Bu, Silahlı Qüvvələrin təlim şəraitində deyil, əməli işdə yoxlanmasıdır və bizim Silahlı Qüvvələr bu yoxlamadan şərəflə çıxdılar.

*Xüsusi təyinatlı qüvvələr İkinci Qarabağ müharibəsi dövründə özlərini ən yaxşı cəhətdən göstərdilər. Xüsusi təyinatlı yeni qüvvələrin yaradılması vəziyyətin diktə etdiyi zərurətdir. Biz özümüzü layiqincə qorumağı bacarırıq.

* qondarma "dağlıq Qarabağ respublikası"nın parlamentini Şuşaya köçürmək istəyirdi və hətta orada binanın daş işləri də artıq tamamlanmışdı. Biz onu yerlə bir etdik.

*Biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq...Bizi dayandıran sadəcə odur ki, üçüncü müharibə istəmirik, bu, bizim planlarımızda yoxdur. Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək.

*Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasındakı avtomobil yolunun çəkilişinə də razılıq verilib.

*Erməni tərəfi isə alçaqcasına hücumlar edib, bizim şəhərlərimizi daim bombalayıb. Təkcə Tərtərə 16 min mərmi

düşüb. Təsəvvür edin, kiçik bir şəhər və 16 min mərmi. Bəs Gəncə, bəs Şuşa, “Skad”lar, “İskəndər”lər!

*Müharibə dövründə baş verən çox hadisələr erməni tərəfin hərəkətlərinin alçaq xarakterinə sübutdur. Hətta öz hərbi qulluqçularına münasibətdə. Səngərlərdə, maşınlarda, yük maşınlarında zəncirlə bağlanmış vəziyyətdə ölən erməni hərbi qulluqçularını nə qədər tapdıq. Ermənistanın hərbi və siyasi komandanlığı fərarilərin yerindəcə güllələnməsi barədə göstəriş vermişdi. Bütün bu informasiya bizdə var. Ona görə ki, biz təkcə Qarabağda deyil, Ermənistan ərazisinin çox hissəsində də bütün məkanı izləmişik. Buna görə baş verənlər haqqında mötəbər informasiyaya malik idik. Yeri gəlmişkən, indi də belədir.

*Biz işğaldan azad edilmiş ərazilərə dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin səfərlərini təşkil etdik. Onlar hamısı şokda idi. Elə biz hamımız da. Orada olan hər birimiz, sadəcə, şok vəziyyətinə düşürdük. Ona görə ki, biz vandalizmin və barbarlığın miqyasını bilmirdik. Bu da ermənilərin bütün ideoloji konsepsiyasını tamamilə alt-üst edirdi ki, guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq. Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə, adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər...onlar bu kilsələrin və bu qəbirlərin yerində olduğunu görəndə UNESCO-nun gəlməsi mövzusu gündəlikdən çıxarıldı.

*Cəbrayıl rayonunda 240 meqavatlıq yeni günəş stansiyasının tikintisi ilə bağlı xarici investorlar artıq bizə rəsmən müraciət edib. Xudafərin, Qız qalasında biz 140 meqavat elektrik enerjisi əldə edə bilərik. Kəlbəcər və Laçında isə 10 min meqavata yaxın enerji gücləri almaq imkanımız var. Ona görə biz elektrik xətləri də nəzərdə tuturuq. Ondan sonra ola bilsin ki, qaz xətləri də oradan keçsin. Bir xətt Qafandan, bir xətt Mehridən keçə bilər. Bir xətt Qarakilsədən keçə bilər, onlar Sisyan adlandırırlar. Ona görə Zəngəzur dəhlizi bütün Zəngəzur bölgəsini əhatə etməlidir.



## Bütün yollar Qarabağ və Zəngəzura aparır: icra olunan avtomobil yolları



**Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolu**

- texniki göstəriciləri: 81,6 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

- görülmüş işlər: 0-17, 26-44, 51-52, 58-64, 71-72, 75-80-ci kilometr hissələrində torpaq yatağının tikintisi, 1, 27,34, 37, 50, 62, 79-cu kilometrdə körpülərin, 80-ci kilometrdə tunellərin və 60-cı kilometrdə alt keçidlərin tikintisi aparılır.

**Toğanalı – Kəlbəcər – İstisu avtomobil yolu**

-texniki göstəriciləri: yol – 80,7 kilometr, I-II texniki dərəcəli, 2-3 hərəkət zolaqlı, tunel – 11,6 km

- görülmüş işlər: yolun 12-13-cü kilometr hissəsində torpaq yatağının qazılması, 12,8 və 13,3-cü kilometr hissələrdə suötürücü boruların inşası və mövcud kanalların köçürülməsi işləri davam edir. Murovdağ tunelinin giriş və çıxış hissəsində ümumilikdə 750 metr üst yarı qazma işləri aparılıb.

Yolların qış baxımı ilə əlaqədar layihə boyunca qarın təmizlənməsi və duz-qum qarışığının səpilməsi təmin edilir.

**Kəlbəcər - Laçın avtomobil yolu**

- texniki göstəriciləri: yol – 72,3 kilometr, I-II texniki dərəcəli, 2-3 hərəkət zolaqlı, tunel-9,8 km.
- görülmüş işlər: yolun torpaq yatağının tikintisi işləri 40 faiz icra olunub. Mobilizasiya işləri davam etdirilir.

**Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi**

- texniki göstəriciləri: 30 kilometr, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı.
- görülmüş işlər: yolların torpaq yatağının və yol geyimi tikintisi işləri aparılır, boruların tikintisi 95 faiz icra olunub, yol nişanları 85 faiz quraşdırılıb.

**Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolu**

- texniki göstəriciləri: 123,8 kilometr, I texniki dərəcəli, 4-6 hərəkət zolaqlı.
- görülmüş işlər: 0-23 və 42-76-cı kilometr hissələrdə torpaq yatağının tikintisi aparılır. Torpaq işləri 25 faiz, boru və keçidlərin tikintisi 29 faiz, körpülərin tikintisi 25 faiz icra olunub.

**Xudafərin – Qubadlı - Laçın avtomobil yolu**

- texniki göstəriciləri: 70,4 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.
- görülmüş işlər: Qubadlı - Laçın istiqamətində 0-37 kilometr, Xanlıq istiqamətində 0-1 və 5-14 kilometr hissələrdə torpaq yatağı tikilib, 1, 11, 23, 33 və 39-cu kilometrdə körpü tikintisi işləri aparılır. Torpaq işləri 37 faiz, yol geyimi – 4 faiz, boru və keçidlərin tikintisi 37 faiz, körpülərin tikintisi 29 faiz icra olunub.



**Qubadlı - Eyvazlı avtomobil yolu**

- texniki göstəriciləri: 26 kilometr, IV texniki dərəcəli, 2 hərəkət zolaqlı.

- görülmüş işlər: Qubadlı rayonu ərazisində Eyvazlı kəndinə gedən yolda qaya qruntları dağıdılmaqla torpaq yatağının tikintisi işləri başa çatıb.

**Şükürbəyli - Cəbrayıl - Hadrut avtomobil yolu**

- texniki göstəriciləri: 43 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

görülmüş işlər: torpaq işləri 53 faiz, yol geyimi 10 faiz, boru və keçidlərin tikintisi 55 faiz, körpülərin tikintisi 51 faiz icra olunub.

**Füzuli - Hadrut avtomobil yolu**

- texniki göstəriciləri: 13 kilometr, I texniki dərəcəli, 4 hərəkət zolaqlı.

görülmüş işlər: yolun torpaq yatağının tikintisi işləri aparılır. İlk 8 kilometr hissədə torpaq işləri və yol yatağının tikintisi 50 faiz icra olunub.

**Bərdə – Ağdam avtomobil yolu**

- texniki göstəriciləri: 45 kilometr, I texniki dərəcəli, 4

hərəkət zolaqlı.

- görülmüş işlər: torpaq işləri 45,9 faiz, yol geyimi 9,8 faiz, boru və keçidlərin tikintisi işləri 33,5 faiz, körpülərin tikintisi 84,9 faiz icra olunub.

**Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu - Zəngəzur dəhlizi:**

-yolun uzunluğu 123.8 kilometrdir,

-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu işğaldan azad edilmiş Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının ərazisindən keçir,

-hazırda inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yolları başlanğıcını məhz bu yoldan götürür,

-avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib,

-avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 6 və 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 80 kilometrlik hissəsi 3 gediş – 3 gəliş olmaqla 6, qalan 43.8 kilometrlik hissəsi isə 2 gediş – 2 gəliş olmaqla 4 hərəkət zolaqlı olması nəzərdə tutulub,

-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu boyunca ortalama ümumi uzunluğu 6 kilometr təşkil edən 3 avtomobil tuneli, 2 viaduk və 23 avtomobil körpüsü, 8 yol ötürücüsü, 50 yeraltı keçid, 5 yerüstü keçid, suların ötürülməsi məqsədilə 400 dairəvi boru və düzbucaqlı su keçidi, həmçinin kommunikasiya xətləri üçün 60 ehtiyat keçidinin inşası davam edir,

-hazırda avtomobil yolunun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra olunur, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir,




-“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 200 hektarlıq ərazisinin yarıdan çoxu minalardan təmizlənib,

-hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 29.5 və 21.5 metr təşkil edəcək,

-Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

-76,3 km uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası davam edir.

-tikinti işlərini “İnşaat Norma və Qaydaları”nın tələblərinə əsasən, AAYDA həyata keçirir.

-2024-cü il mayın 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilana səfər ediblər. Cəbrayıl rayonunun Maşanlı, Sarıcallı, Karxulu, Böyük Mərcanlı kəndlərinin, Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməli qoyulub, “AzərEnerji” ASC-nin “Zəngilan” və “Şayıflı” Su Elektrik stansiyaları, Zəngilan məscidi, “Ağalı” hoteli istifadəyə verilib.

## Şərqi Zəngəzurun Azərbaycan energetikasına töhfəsi

Bölgənin elektrik enerjisi ilə tam təmin edilməsi əsas hədəf kimi müəyyənləşdirilib. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20 MVt gücündə dörd su elektrik stansiyasından üçü artıq istismara verilib. 8 MVt gücə malik "Güləbird", ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları, həmçinin yenidən tikilən 4,4 MVt gücündə "Kəlbəcər-1" kiçik SES-dən başqa, hazırda dağıdılmış vəziyyətdə olan, ümumi gücü 140 MVt-a qədər olan 33 KSES-in bərpası istiqamətində müvafiq qurumlarla araşdırmalar aparılır.

-110 kV-luq elektrik şəbəkənin qurulması ilə əlaqədar işlər isə ümumilikdə, 2-si yenidən qurulmaqla 11 yarımstansiya və onları əlaqələndirən 110 kilovoltluq xətlərin tikintisini əhatə edir. Şuşa, Kəlbəcər, Füzuli və Cəbrayılda 110/35/10 kV-luq 5 yarımstansiya artıq istismara verilib, həmçinin bu yarımstansiyaların ölkənin ümumi enerji sisteminə qoşulması üçün elektrik verilişi xətləri çəkilib. Xüsusilə Kəlbəcərdəki mürəkkəb relyef və hava şəraitində cəmi altı ay ərzində yüksək peşəkarlıq və ağır zəhmət hesabına belə bir yarımstansiyanın ərsəyə gəlməsi Azərbaycanın müasir energetika tarixinin əlamətdar hadisələrindəndir. 110/35/10 kV-luq "Qubadlı", "Zəngilan", "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının tikintisi və Daşkəsən yarımstansiyasının yenidənqurulması ilin sonuna qədər başa çatdırılacaq, bu yarımstansiyaları ölkənin enerji sistemi ilə əlaqələndirən xətlərin çəkilişi isə davam edir. Laçın rayonunun Qoşasu kəndi ərazisində isə yarımstansiyanın və əlaqələndirici xətlərin layihələndirilməsi işləri görülür.

-Paylayıcı şəbəkənin qurulması çərçivəsində Şuşa şəhərində 35/10 kV-luq 4 MVA gücündə "Daşaltı" yarımstansiyası tikilərək istismara verilib. Xocavənd, Cəbrayıl və Zəngilan rayonlarında isə 35/10 kV-luq yarımstansiyalarda bərpa işləri aparılıb. Hazırda Şuşa şəhərində 6 ədəd 35/0,4 kV-luq, Hadrut qəsəbəsində bir ədəd 35/10 kV-luq yarımstansiyaların tikintisi davam etdirilir. Suqovuşan qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün 35 kV-luq xətt çəkilib və 35/10 kV-luq "Suqovuşan" yarımstansiyası inşa edilərək istismara verilib.

-Ümumilikdə, işğaldan azad olunmuş ərazilərdə 300 kilometrə yaxın müxtəlif gərginlikli hava və kabel xətləri çəkilib, bərpa edilib, xeyli sayda transformatorlar quraşdırılıb. Həm Qarabağda, həm Şərqi Zəngəzurda elektrik enerjisi təsərrüfatının qurulması prosesi intensiv şəkildə davam etdirilir. Dövlət başçısının ifadə etdiyi kimi, cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

-Dayanıqlı enerji təminatı üçün böyük potensiala malik "Xudafərin", "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihələrinin icrası da uğurla irəliləyir. "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarına aid bəndlərin tikintisi tamamlanıb. Hazırda hər iki su elektrik stansiyanın qurğu və avadanlıqlarının alınıb quraşdırılması, həmçinin tikintiyə çəkilmiş xərclərin, dəymiş ziyanın həcminin hesablanması ilə bağlı müzakirələr davam etdirilir. Ümumi qoyuluş gücü 200 MVt olan "Xudafərin" və 80 MVt gücündə "Qız Qalası" su elektrik stansiyalarının inşasının 2024-cü ilədək tamamlanması planlaşdırılır. Hələ Vətən müharibəsi ərəfəsində ərazilərimizin işğaldan azad olunacağına böyük ümumxalq inamının rəmzinə çevrilmiş bu layihələrin reallaşması təkcə Azərbaycana illik 358 milyon kVt·st

elektrik enerjisi istehsalı, mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması imkanı yaradacaq. Strateji hədəflər isə daha böyükdür və regionun gələcəyi ilə bağlı dövlətimizin başçısının aydın, uzunmüddətli dayanıqlı inkişafa əsaslanan baxışlarını əks etdirir. Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl Enerji Zonası" elan edilməsi qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsuludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bu ərazilərin enerji təminatında bərpa olunan enerji mənbələrindən maksimum istifadə ediləcəyi, ekoloji təmiz, səmərəli innovativ texnologiyaların tətbiq olunacağı barədə qəti mövqeyini ifadə edib: "Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq. Əminəm ki, Azərbaycan transformasiyanın nadir təcrübəsini nümayiş etdirərək, Lüksemburqun ərazisindən dörd dəfə böyük olan dağıdılmış ərazini yüksək yaşayış standartlarına malik firavanlıq məkanına çevirəcək. Bu məqsədlə Yaponiyanın TEPSCO şirkəti cəlb edilməklə "Yaşıl Enerji Zonası" nın yaradılması üzrə müfəssəl Konsepsiya hazırlanıb. Baş Plan isə tərtib olunmaqdadır. Layihə çərçivəsində ərazilərin inkişafı və məskunlaşma variantları üzrə müxtəlif enerji tələbatı və təchizatı ssenarilərinə baxılıb. Eyni zamanda, bu bölgələrdə hidro, günəş, külək, biokütlə, geotermal və digər bərpa olunan enerji potensialının öyrənilməsi, mövcud resurslardan istifadə etməklə külək və günəş enerji stansiyalarının və həmçinin su anbarlarında, kiçik çaylarda su elektrik stansiyalarının tikilməsi istiqamətində davamlı araşdırmalar aparılır. Bu bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu

ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çayları və digər kiçik çayları böyük hidro enerji potensialına malikdir. Həmçinin ilkin təhlillərə əsasən Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir. Zəngin enerji potensialı və "yaşıl enerji" ilə bağlı yüksək məram daim yeni imkanlar axtarışında olan investorlar, xüsusilə də fəaliyyətlərində bərpa olunan enerjini prioritet sayan enerji şirkətləri üçün çox gözəl fürsətdir. Qarabağ və Şərqi Zəngəzurda bir sıra böyük layihələrin məhz xarici investisiya








hesabına həyata keçirilməsi əsas prioritetlərdəndir. Bu aspektdə, Zəngilan/Cəbrayıl rayonlarının ərazisində 240 meqavatlıq Günəş Elektrik Stansiyası layihəsinin reallaşdırılması üzrə BP ilə əldə edilmiş razılaşma digər şirkətlər üçün də mühüm mesajdır. Hazırda bu stansiyanın inşasının texniki-iqtisadi aspektləri və ölkə şəbəkəsinə inteqrasiyasından irəli gələn məsələlər müzakirə edilir. İllik təxminən 500 milyon kVt·st elektrik enerjisinin istehsalı proqnozlaşdırılan bu layihə üzrə torpaq sahəsinin müəyyənləşdirilməsi, topoqrafik tədqiqatlar, şəbəkəyə qoşulma imkanlarının öyrənilməsi, hidrometeoroloji təhlillər və ətraf mühitə təsirin qiymətləndirilməsi istiqamətində də müvafiq işlər görülür.

"Yaşıl Enerji Zonası"nın yaradılmasına töhfə verəcək digər bir layihə Laçın yaxud Kəlbəcər ərazisində 100 MVt-dək gücdə külək elektrik stansiyasınıntikilməsi perspektividir. Bu layihə üzrə müəyyən edilmiş ərazilərin məlumatları əsasında hazırlanmış "Məlumat sorğusu" sənədi potensial investorlara artıq təqdim edilib. Hazırda "Məlumat sorğusu" mərhələsi üzrə işlər davam etdirilir.

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2022-ci il oktyabrında Şərqi Zəngəzura növbəti səfərlərində Zəngilan şəhərində məktəb binasının, ilk yaşayış binasının təməlini qoyub, Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyası işə salıb, Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olub, Ağalı kəndində sakinlərlə görüşüb, Qubadlı şəhərinin Baş planı ilə tanış olub, Qubadlıda İşğal və Zəfər muzeyləri kompleksinin, 35 kilovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə, "Cəbrayıl" Qovşaq Yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olub, Cəbrayılda 35 ki-

lovoltluq yarımstansiyanın və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, Cəbrayılda yaradılacaq meşə təlim mərkəzi, ağıllı tingçilik və dostluq meşəsi kompleksinin layihəsi ilə tanış olub, rayon ərazisinə 18 baş ceyran buraxıb, Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun Şükürbəyli–Cəbrayıl hissəsi istifadəyə veriblər.

Prezident İlham Əliyev: Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq. Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir.

## Zəngilan və Laçın Beynəlxalq hava limanları

Vətən müharibəsindəki qələbədən sonra "Zəngəzur dəhlizi"nin açılması – avtomobil və dəmiryolu nəqliyyat-tranzit sistemini regionun ən mühüm logistika qovşağına çevirir. "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizləri kimi əsas layihələrdə fəal iştirakı Azərbaycanı Avrasiyanın etibarlı nəqliyyat və logistika mərkəzlərindən biri kimi tanıdır.



Rusiya, Azərbaycan və Ermənistan dövlət başçılarının son Soçi görüşü və Brüsseldə aparılan danışıqların əsas xətti bölgədə nəqliyyat qovşaqlarının açılması idi. Rusiya və Qərbin dəstəyi ilə reallaşan bu kommunikasiya qovşağı

Azərbaycanı Naxçıvanla, İran və Türkiyə ilə polad körpülərlə birləşdirəcəkdir. SSRİ-dən regiona miras qalmış dəmiryol qovşaqları ötən əsrin sonlarına qədər İranı Rusiya ilə birləşdirirdi. Culfadan keçən bu xətt Naxçıvan vasitəsilə

Rusiyaya keçidi təmin edirdi. Türkiyənin hazırda Cənubi Qafqazda geniş iqtisadi layihələri gerşəkliyə çevrilib. Dəmiryolu xəttinin Ermənistan ərazisindən keçməklə Gümrü, oradan Qarsa doğru uzanması da reallığa çevrilir. Zəngəzur dəhlizi Türkiyə və Rusiyanı quru nəqliyyat yolları ilə də birləşdirəcəkdir. Təbii ki,  burada Azərbaycan, Türkiyə və Ermənistan arasında mövcud problemlərin də aradan qaldırılması üçün imkanlar açılır.






15-16 dekabrda Brüssel görüşündən sonra Ermənistanın baş naziri Paşinyan bəyan edib ki, Azərbaycan prezidenti ilə dəmir yolunun inşası ilə bağlı razılaşmanı təsdiq edib. Burada söhbət Ermənistan, Naxçıvan və Azərbaycan arasında Arazdəyən-Culfa-Mehri-Horadiz xəttində dəmir yolunun işinin bərpasından gedir. Ermənistan bunun sayəsində dəmir yolu ilə Rusiya və İrana, Azərbaycan isə Naxçıvana çıxış əldə edəcək. Türkiyə ilə sərhəd və kommunikasiyaların açılması ilə bağlı razılıq əldə olunarsa, Gümrü-Qars dəmir yolu da işə başlaya bilər.

Digər bir yol –Astara-Rəşt-Qəzvin dəmir yolu isə Hind okeanı ilə Baltik dənizini birləşdirən "Şimal-Cənub" nəqliyyat dəhlizinin elementi kimi baxılır. Bu dəmir yolunun Qəzvin-Rəşt-hissəsi artıq istismara verilib. Rəşt-Astara hissəsində isə işlər davam edir. Azərbaycan bu layihədə mühüm rola malik olar dövlətlərdən biridir. Tranzit ölkə olaraq Azərbaycan hökuməti ilk növbədə Astara(Azərbaycan)-Astara(İran) dəmir yolu xəttini inşa edərək İran ilə Azərbaycanın dəmir yolları sistemlərini birləşdirib. İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələri Zəngəzur dəhlizi yeni nəqliyyat infrastrukturundan geniş istifadə edəcəklər. Proqnozlar özünü doğrultsa, 2 ildən sonra "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi fəaliyyətə başlayacaq və Azərbaycan tranzit ölkə olaraq dəhlizdə mühüm əhəmiyyət kəsb edəcək. Burada söhbət yalnız tranzit gəlirlər əldə etməkdən getmir. Dünyanı Çin, Hindistan, Rusiya kimi iri iqtisadi dövriyyəyə malik olan dövlətləri ilə Azərbaycanın geniş iqtisadi və siyasi əlaqələri yaranacaq. Bakı-Tbilisi-Qars dəmir yolu da yükdaşımalar üçün əlverişli tranzit imkanları yaradır. Bakı-Tbilisi-Qars dəmir yolunun potensialından maksimal dərəcədə istifadə etmək üçün işlər aparılır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa marşrut hesab edilir.

2021-ci ildən ilk dəfə olaraq BTQ vasitəsi ilə ixrac yüklərin nəqlinə başlanılıb. Bütün bu perspektiv "Azərbaycan Dəmir Yolları"nı (ADY) mühüm infrastruktur kimi əhəmiyyətini fövqəl dərəcədə artırır. Dünya miqyasında ən mötəbər beynəlxalq təşkilatlardan biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanda dəmir yollarının keyfiyyəti ilə bağlı hesabatına görə ölkəmiz dəmir yollarının səmərəliliyi baxımından dünyada 12-ci, keyfiyyətinə görə 34-cü yerdədir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan bölgələrimiz Azərbaycanın və Cənubi Qafqazın zəngin təbii gözəllikləri, mineral sərvətləri, qədim tarixi abidələri il zəngin guşələrindəndir. Qarabağı və Şərqi Zəngəzurun təsdiqlənmiş yaşıl enerji potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı Hökumət əlverişli şərait yaradır. İqtisadiyyat Nazirliyinə 900-dən çox müraciət daxil olub. Onların təxminən üçdə biri xarici, qalanı yerli şirkət və sahibkarlardır.

Prezidentin müvafiq sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzurda iqtisadi canlanmanın təşkili, bu sahədə çalışacaq sahibkarlar üçün stimullaşdırıcı mexanizmlər, sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün daha əlverişli şəraitin yaradılması məqsədilə maliyyə, vergi, gömrük və kommunal xidmətlər üzrə güzəştlər tətbiq edilir.







Zəngilan rayonu Ağalı kəndində
Ağıllı (SMART) kənd layihəsi



Zəfərdən Dirçəlişə
Qarabağ
Dirçəliş
Fondu
Azərbaycan Respublikası Ekologiya və Təbii
Sərvətlər Nazirliyi və Qarabağ Dirçəliş Fondu
yaşıllıq zolağının bərpası layihəsini həyata keçirir







## Xankəndi-Şuşa-Laçın avtomobil yolu



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il mayın 10-da Laçında yerli sakinlərlə görüşüb, kiçik su elektrik stansiyalarının açılışını edib, Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub, dövlətimizin başçısı görülən işlər barədə məlumat alıb.
Bu avtomobil yolunun ümumi uzunluğu 34 kilometrdir. İkinci texniki dərəcəli yolda torpaq yatağının eni 15 metr, hərəkət zolağının hər birinin eni isə 3,75 metrdir.
Yol üzərində 2 körpü, 4 tunel və suötürücü borular inşa olunacaq. Uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında qazma işləri yerinə yetirilib. Digər iki tuneldə - 540 və 300 metr uzunluqlarındakı ikinci və dördüncü tunellərdə isə işlərə yaxın vaxtda başlanılacaq.

## Araz çayı mehriban qonşuluq körpüsünə çevrilir



2024-cü il mayın 19-da Azərbaycan-İran dövlət sərhədində Şərqi Zəngəzur bölgəsinin Cəbrayıl rayonu ərazisində tarixi Araz çayı üzərindəki Xudafərin körpüsünə bitişik "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları işə salınıb. Su tutumu 1,6 milyard kubmetr olan "Xudafərin" və 56,75 milyon kubmetr su tutumuna malik "Qız Qalası" hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyaları paritet əsasda iki ölkənin maraqlarına xidmət edəcəkdir. Bu layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq.

# Zəngəzur ellərinin yeni dirçəlişi
















## IV fəsil.
## TÜRKİYƏ ŞƏRQİ ZƏNGƏZURUN DİRÇƏLİŞİNDƏ

Azərbaycan-Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Əsrlər boyu Azərbaycan və türk xalqları bəzən vahid dövlətdə birləşmiş, eyni dil, din, tarix, mədəniyyətin daşıyıcıları olmuş, qaynayıb qarışmış, həmişə bir-birinə arxa, dayaq durmuşlar. Türkiyə Cümhuriyyətinin qurucu lideri Mustafa Kamal Atatürk XX əsrin əvvəlində  Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» - deyirdisə, əsrin sonunda Ulu öndər Heydər Əliyev iki qardaş dövlət, xalq arasında münasibətləri belə ifadə edirdi: "bir millət, iki dövlət". Türk dünyasının bu iki liderinin vəsiyyəti, müdrik kəlamları bu gün hər zamankından daha aydın, parlaq görünür. Bu dostluq, qardaşlıq çətin sınaqlardan keçib bu günümüzə çatmışdır. Bolşevik Rusiyası Birinci Dünya müharibəsindən məğlub çıxdıqdan sonra geri çəkilən rus ordusu ilə birlikdə erməni silahlı bandaları da Cənubi Qafqaza gəldilər. Rusiya hərbçiləri silahlarının böyük bir hissəsini həmin ermənilərə vermişdilər. O dövrdə Bakıda qurulan bolşevik hakimiyyətinin başında duranların da əksəriyyəti erməni idi və dinc türkmüsəlman əhaliyə qarşı görünməmiş zülm, qətl, qarət, talançılıq edirdi. 1918-ci ilin martında Bakıda, ardınca Quba, Zəngəzur, Naxçıvan, İrəvanda törədilən soyqırımda amansız vəhşiliklə öldürülənlərin sayı 30 mindən çox olmuşdu.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda Bakı yadellilərin əlində idi. Osmanlı dövləti iyunun 4-də Batumda imzaladığı müqavilə ilə Azərbaycana hərbi yardım etməyi üzərinə götürdü. Cümhuriyyət liderlərinin müraciəti əsasında Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı ilə Qafqaz İslam



Ordusu adlandırılan silahlı qüvvə Azərbaycan istiqamətində yola çıxdı. Gəncədən başlanan milli ruhlu yüzlərlə gənc vətənpərvərin də qoşulduğu bu yürüşün qarşısında təpədən dırnağadək silahlanmış erməni hissələri ağır itkilər verərək geri çəkilirdi. Xatırladaq ki, 1918-ci ildə Osmanlı ordusunun bir bölüyü də Zəngəzura gəlmiş, quldurbaşı Andranikin qaniçən terrorçu dəsətələrinə qarşı savaşlarda yerli könüllülərə təlim keçmiş, birlikdə savaşmış, 20-dən çox şəhid vermişdi. Bu gün də həmin terk şəhidlərin məzarları xalq arasında ziyarətgah kimi qorunub saxlanır.

Həlledici döyüşlərin getdiyi Bakı şəhəri sentyabrın 15-də azad edildi. Sentyabrın 17-də isə Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu xilaskarlıq missiyası Anadolu və Qafqaz türklərinin yaddaşında əbədi yaşayır.

Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakının ən hündür guşəsində Türk Şəhidliyi ucaldıldı. Qafqaz İslam Ordusunun Bakı uğrunda döyüşlərdə canlarını fəda etmiş 1130 türk şəhidinin şərəfinə ucaldılmış abidənin açılış mərasimi 2000-ci il aprelin 9-da oldu. Açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl iştirak etdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə də ilk olaraq Türkiyə tanıdı. Bakı şəhərinin azad edilməsinin yüz illiyi 2018-ci ildə Azadlıq meydanında möhtəşəm paradla qeyd edildi. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bu möhtəşəm tədbiri Prezident İlham Əliyevlə birgə izlədi. Eyni zamanda, iki dövlətin ordularının əsgərləri Azadlıq meydanında yan-yana addımladı. Prezident İlham Əliyev paraddakı çıxışında Qafqaz İslam Ordusunun Nuru paşanın rəhbərliyi altında sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsini tarixi hadisə adlandıraraq dedi: "Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır. ...Onların məzarları yan-yanadır. ... onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir". Həmin çıxışında Türkiyə Prezidenti vurğuladı ki, şəhidlər fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular. Türkiyə dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkədir. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir: "Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik", - dedi.

38 dövlətin qarışdığı, 70 milyondan artıq hərbçinin (onların 60 milyonu avropalı idi) qoşulduğu, 10 milyon əsgərin yaşamını itirdiyi Birinci dünya müharibəsinə (28 iyul 1914–11 noyabr 1918) Osmanlı dövləti 1914-cü ildə "Üçlər ittifaqı" tərəfindən qoşuldu. Buna cavab olaraq oktyabrın 2-də Rusiya, 5-də Böyük Britaniya, 6-da isə Fransa Osmanlıya müharibə elan etdi. Suriya, Fələstin və Qafqazda Osmanlıya qarşı yeni cəbhələr açıldı. 1914-cü ilin dekabrından başlayaraq Qafqaz cəbhəsində Rusiyanın hücumları türk ordusuna acı faciələr yaşatdı. Dekabrın 21-i şaxtalı günlərdə başlanan yürüşdə təkcə Sarıqamışda soyuqdan donub həlak olan və əsir düşən türk əsgərlərinin sayı 30 min nəfərdən çox idi. Əsirləri saxlamaq üçün Xəzər dənizindəki Bakıdan 10, 5 km aralı Nargin adasında (indiki Böyük Zirə) çar Rusiyasının tikdirdiyi 125 nəfərlik 40 barakda 3 il ərzində əsir alınan 10 minə yaxın türk əsgər və zabitləri saxlanırdı. Narginə əsirlərin gətirilməsi 1915-ci ilin mart ayında başlanmış, 1918-ci il oktyabrında düşərgə bağlanmışdır.

Milli düşüncəli ziyalıların, ruhanilərin, sahibkarların qurduğu Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti, "Qardaş köməyi", "Möhtaclara kömək", "Türk əsirlərinə yardım komitəsi" və digər cəmiyyətlər türk məhkumlara müxtəlif yollarla ərzaq, dava-dərman, geyim çatdırır, nəzarətçi rus, ermeniləri rüşvətlə ələ alıb qaçırırdı. Arxivlərdə gizli qaçırılan 100-dən çox türk əsgər, zabitin adı var.

1915-1916-ci illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verən dəniz və quru döyüşlərində, xüsusilə tarixi Çanaqqala savaşında yüzlərlə könüllü azərbaycanlı gənc Anadolu türkləri ilə bir səngərdə çiyin-çiyinə savaşaraq qazi və şəhid olmuşdu.

Tarix təkrar olunur. 2020-ci il sentyabrın 27-də Azərbaycan Vətən müharibəsinə, qurtuluş savaşına qalxaraq 30 ilə

yaxın erməni işğalı altında qalmış torpaqlarını cəmi 44 günə azad etdi. Tarixdə misli görünməmiş bu şanlı savaşda qazanılan qələbədə Türkiyə Cümhuriyyəti dövlətinn, xalqının, Prezident Ərdoğanın, dövlət yetkililərinin, başda Bəxtiyar paşa olmaqla hərbçi generallarının türk xalqının mənəvi-siyasi dəstəyi mühüm rol oynadı. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir və minnətdarlıq duyğuları ilə əbədi xatırlayacaqdır.

Türkiyənin “Bayraqdar-TB2” silahlı pilotsuz uçuş aparatları (PUA) bu savaşlarda kiçik, çoxyönümlü, ucuz pilotsuz döyüş təyyarələrinin düşmənin ağır silahlanmış canlı qüvvəsini necə aşkar etdiyinin və qarşıdurmaların nəticələrini necə qətiyyətlə formalaşdırdığının ən yaxşı nümunəsi oldu. Görünən budur ki, F35, F-16-lar yaxın gələcəkdə tarixə çevriləcək, havadan müdafiə sənayesində artıq pilotlar olmayacaq, robotla idarə edilən təyyarələrdən istifadə ediləcək.

İkinci Qarabağ müharibəsi zamanı “TB2”lər, PUA-lar 3 min saat fasiləsiz uçuş edib, Ermənistana məxsus 90 tank da daxil olmaqla, 900-dən çox hərbi hədəfi məhv edib.

Türkiyənin istehsalı olan hərbi sənaye məhsulları satış və sifariş həcminə görə ön  sıralardadır. Rəcəb Tayyib Ərdoğan: “Türkiyə dünyada ilk dəfə analoqu olmayan lazer silahının istehsalına başladı. Pilotsuz döyüş təyyarə sistemimizi təqdim edərək, PUA arsenalımızı dünyanın bir nömrəsi edəcəyik. Dünyada öz savaş gəmisini dizayn, inşa və təmir edə bilən 10 ölkə içərisində yer alırıq. Quru və dəniz nəqliyyat vasitələrində həm dost, həm də müttəfiq ölkələrin ehtiyaclarını qarşılayırıq. Hazırda dünyanın ən yaxşı 100 müdafiə şirkəti siyahısında 7 şirkətimiz var. Gələn il yeni tipli sualtı qayıqlarımızın birincisini istismara verməyi planlaşdırırıq.”

Prezident İlham Əliyev: “Türkiyə müdafiə sənayesinin məhsulu olan məşhur “Bayraktar” Vətən müharibəsində böyük dəyişikliyə səbəb oldu. Bu gün Ərdoğan Türkiyəsi dünya üçün bir örnəkdir. Müstəqillik, mərdlik, cəsarət və inkişaf örnəyidir. Türkiyənin müdafiə sənayesinin məhsulu olan məşhur “Bayraktar” Vətən müharibəsində böyük dəyişikliyə səbəb oldu. Bizim uğurlarımızın əldə edilməsində müstəsna rol oynadı. Bütün dünya türk xalqının zəkasını, istedadını bir daha gördü. Türk sənayesinin inkişaf etmiş sənaye olmasını bir daha gördü. Bu gün tarixi gündür. Ona görə ki, bu Zəfər paradında türk və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Təkcə Bakı şəhərinin yox, bütün Azərbaycan şəhərlərinin Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib. Əvvəllər də belə olub. Təbii ki, müharibə dövründə bu daha da geniş vüsət almışdır. Bu, insanların ürəyindən gələn duyğulardır. Bu, əsrlər boyu qoruduğumuz sərvətdir.

Bizim üstünlüyümüz ondadır ki, həm xalqlar, həm liderlər bir yerdədir. Bir-birinə qardaş deyir. Eyni zamanda, bütün məsələlərdə biz bir yerdəyik. Ağır günlərdə də bir yerdə olmuşuq, gözəl günlərdə, sevincli günlərdə, bugünkü kimi gündə də biz birlikdəyik və bu, təbiidir.”

Vətən müharibəsinin 44 günlük salnaməsini vərəqləsək, aydın görərik ki, müharibənin ilk günlərindən, ilk saatlarından Türkiyə Azərbaycanın yanında olub. Rəcəb Tayyib Ərdoğan, Türkiyənin dövlət və hökumət rəsmiləri Azərbaycanı bir gün də olsun tənha qoymayıblar, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və olacağını sözlə, əməllə göstəriblər. Qələbəmizdə mühüm rol oynayan bu siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Vətən müharibəsinin hər günü bizim şanlı tariximizdir.



Həmin günlərdən başlayaraq ölkənin hər şəhər, kənd və qəsəbələri bir millət, iki dövlət sevgisinin rəmzi olaraq, Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilib.

2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Rəcəb Tayyib Ərdoğanın, böyük nümayəndə heyətinin, əsgər və zabitlərin iştirakı birliyimizi, dostluğumuzu və qardaşlığımızı bir daha bütün dünyaya nümayiş etdirdi. Türkiyə Prezidenti R.T.Ərdoğanın parlaq, təsirli çıxışı yaddaşlara əbədi yazıldı: "Artıq Azərbaycan torpaqları illərcə həsrət qaldığı Tərtərçaya qovuşmuşdur. Şuşanın başının üzərindəki duman artıq dərdli deyil. Xarı bülbül artıq azaddır və daha parlaq açacaq. Köndələnçay artıq daha gur axacaq. Araz türküsünü daha güclü çağıracaq, "Qarabağ Şikəstəsi"ni oxuyan nəfəs daha bərk çıxacaq.

*Arazı ayırdılar,*
*Qum ilə doyurdular,*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar...*
*Ay Laçın, can Laçın, mən sənə qurban Laçın.*

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azadddır. Bu gün Azərbaycan şairi, milli mücahid Əhməd Cavadın ruhunun şad olduğu gündür. Bu gün Nuru Paşanın, Ənvər Paşanın, İslam Qars Ordusunun əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız, bütün türk dünyası üçün böyük qürur günüdür. Rəbbimə bizlərə bu günü yaşatdığı üçün sonsuz həmd diləyirəm. Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, 30 illik həsrət sona çatmışdır. Türkiyə  və Azərbaycan kürək-kürəyə verdiyi müddətdə bütün çətinlikləri birgə aşmağa davam edəcək.



Qarabağ Azərbaycandır! Qarabağ artıq ana vətəni ilə qucaqlaşmış, 30 illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdiyi müddətdə bütün çətinlikləri birgə aşmağa davam edəcək”. 10 dekabr 2020

Vətən müharibəsindən sonra dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Şuşada imzaladıqları Şuşa Bəyannaməsi münasibətləri yeni səviyyəyə çıxardı. II Qarabağ savaşında bir daha sınaqdan parlaq çıxan bu dostluq, qardaşlıq işğaldan azad edən torpaqlarda aparılan quruculuq, abadlıq dövründə də davam edir. İki qardaş ölkə liderinin çoxsaylı hökumət nümayəndələri, iş adamları ilə birlikdə işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Zəngilan rayonlarına səfərləri, açılış törənləri, imzalanan sənədlər bir daha dünyaya göstərdi ki, xalqlarımız və dövlətlərimiz çətin gündə də, xoş gündə də bir yerdədir. Əsirlikdən azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarının dirçəlişi, yenidən məskunlaşdırılması, bölgələrdə yeni mülkü obyektlərin, infrastruktur layihələrinin inşasında bir yerdədir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli layihələrlə birlikdə Azərbaycan-Naxçıvan-Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizi dəmiryolu və avtomobil yolunun açılması da bu birliyi, regionun iqtisasi mənzərəsini dəyişdirəcək, tərəqqiyə yeni, daha böyük imkanlar yaradacaqdır. 2021-ci il noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin bu dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə verdiyi töhfələrə görə Azərbaycan Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim edərkən dedi: “Hörmətli Prezident, Əziz

qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev. Qarabağda təxminən otuz il davam edən işğala qətiyyətli rəhbərliyinizlə 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb.

Fürsətdən istifadə edərək əziz Qardaşım cənab İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etməkdən dərin məmnunluq duyur, azadlıq yolunda şəhid zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm."

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Bunu Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb: "Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər birbirinə arxa-dayaq olsun".

Prezident İlham Əliyev bunu səmimiyyətlə etiraf etmişdi ki, artıq savaşdan, Zəfərin lk saatlarında sonra Rəcəb Tayyib Ərdoğan deyirdi Şuşaya gələcək, mən də demişdim ki, o Şuşaya gəlməyənə qədər oraya heç bir başqa ölkədən kimsə gəlməyəcək. Hətta Türkiyədən gələnlər olmuşdu, oraya getmək istəyənlər olmuşdu. Mən onlara dedim ki, sağ

olun, amma gözləyin, Qardaşım gəlsin getsin, ondan sonra yolunuz açıqdır. Şuşa Bəyannaməsinin imzalanması bizim münasibətlərimizi daha da yüksək səviyyəyə qaldırdı. Faktiki olaraq biz Şuşa Bəyannaməsinin imzalanması ilə de-fakto olan münasibətlərimizi de-yure səviyyəsinə qaldırdıq, yəni, müttəfiqlik səviyyəsinə. Onsuz da bu, hər sahədə müttəfiqlik əlaqələri idi. Ancaq biz bunu artıq rəsmiləşdirdik və bu, gələcək fəaliyyət üçün bir yol istiqamətidir. Biz bu yolla gedəcəyik. Gündən-günə möhkəmlənən münasibətlər, artan birgə layihələr və bizim həmrəyliyimiz, qardaşlığımız hesab edirəm ki, bu gün bütün qonşu ölkələr üçün bir örnəkdir. Əgər bütün qonşular Türkiyə ilə Azərbaycan kimi münasibətlər qursaydılar, o zaman dünyada heç bir savaş, heç bir müharibə olmazdı.



## Azərbaycan və Türkiyə prezidentləri Şərqi Zəngəzurda

İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Ermənistan və İranla həmsərhəd olan Zəngilanın işğaldan azad olunmasının 2-ci ildönümündə Zəngilan Beynəlxalq Hava Limanının, "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin, Cəbrayılda Qumlaq stansiyasının açılışını ediblər, "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlini qoyublar.

İki liderin çıxışlarından sətirlər:

**İlham Əliyev:** Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Adətən rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq həm Şuşada, həm də bu gün əngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. Bu tarixi biz birlikdə yazırıq. Necə ki, bütün müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik. İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuşdur. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi. Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz".

**Rəcəb Tayyib Ərdoğan:** Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdığımız əlaqələrimizi daha necə inkişaf etdirə biləcəyimizi müzakirə etdik. Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik. Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin olması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir. Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq. Bu coğrafiyadan keçəcək torpaq yollar və dəmir yolu xətləri təkcə Azərbaycan və Türkiyə üçün deyil, bütün bölgə ölkələri üçün iqtisadi və ticari fürsətlər yaradacaq. Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək. Bu inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla Azərbaycanın bütün qonşuları istifadə edəcəklər. Bir sözlə, bu layihələr kənarlaşdırıcı deyil, əhatəedicidir. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir.

Bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək. Dünyanın bu

gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür.

Türkiyənin də davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram. Azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən





qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir. Buraya gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə, İnşallah, Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördük, işçi qardaşlarımızla görüşdük. Bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Füzulidə də bildirdiyim kimi, bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.

**Rəcəb Tayyib Ərdoğan:** Zəngilan və Füzuli hava limanları regionun dirçəlişi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

Qarabağ bölgəsində ilk beynəlxalq statuslu Füzuli Hava Limanı cəmi 8 aya inşa olunaraq istifadəyə verilib. Bu, Azərbaycanın Qarabağ bölgəsində tikdiyi ilk hava limanıdır və dünyada Qarabağın giriş qapısı kimi fəaliyyət göstərəcək. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası bu hava limanını beynəlxalq hava limanları siyahısına daxil edib. Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İda-

rəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb. Bundan əlavə, hava limanında beynəlxalq mülki aviasiya, daşıma standartlarına uyğun avtomatlaşdırılmış sistemlər və idarəetmə qülləsi var. Füzuli Beynəlxalq Hava Limanına enən ilk xarici dövlət başçısı isə Türkiyə Prezidenti olub. Füzulidə mülki tikinti işləri sürətlə gedir.



*"Böyük Qayıdış"ın "Füzuli salnaməsi"*

## Zəngilanda “Dost Aqropark”ı

20 oktyabr 2022-ci ildə Zəngilanda “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Bu layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan “Dost Aqropark”ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə “Made in Qarabağ” etiketlərinin ilk nümunələrini vurdular.

Dövlət başçıları “Dost Aqropark”ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər.

“Dost Aqropark”ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100

min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq.

"Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.

**Prezident Rəcəb Tayyib Ərdoğan dedi:** Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu "Aqropark"ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.



*Şərqi Zəngəzuru Naxçıvanla birləşdirəcək Horadiz-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlqoyma mərasimi. 26.10.2021*



Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda – iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.




Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu, ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun”.






## Zəngilan və Cəbrayıldan Azərbaycan-Türkiyə qardaşlığına dair mesajlar



**Prezident İlham Əliyev:** Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir

Zəngilan Beynəlxalq Hava Limanının açılışı Şərqi Zəngəzurun sürətlə inkişafına öz töhfəsini verəcək. Heç şübhəsiz ki, bu hava limanının inşası və açılışı Azərbaycana strateji-hərbi və sosial-iqtisadi üstünlüklər qazandırır.

Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

İlham Əliyev:

-Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, “Xoş gəlmisiniz!” demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli

Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni, bu, onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik.

Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edilmişdir, Azərbaycan Bayrağı qaldırılmışdır və ondan sonra Ermənistan təslim oldu.

Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, “Dost Aqropark”ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da

- “Dost Aqropark” özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür. Yolların, - yolların bir hissəsi artıq hazır vəziyyətdədir, - dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulmuşdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilmişdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görülən və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni, o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir,

Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz Qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat – bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz Qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:

-İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara bilməyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal döv-

ründə Cəbrayılı nə hala salmışlar. Mən Qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gələnən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir...Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

...Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır.

Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

...Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!"

**Sözardı:** Ərdoğanın, Türkiyənin Azərbaycan dövlətinə, xalqına, prezidentinə münasibəti səmimidir, Türkiyənin, Ərdoğanın qardaşlığı içdən, cani-könüldən gələn istəkdir, başqa ikinci bir lider, dövlət, xalqla müqayisəyəgəlməzdir. Azərbaycan dövlətinin güclənməsi, xalqının firəvanlığı Türkiyənin mənafeyinə uyğundur, Türkiyə lideri daim buna

çalışır. Türkiyə ilə siyasi, hərbi, mənəvi, iqtisadi birlik 3 tərəfdən naxoş münasibətli dövlətlərlə əhatə olunan Azərbaycana hava-su kimi lazımdır.

Türk dillərində qartalın boyuna, rənginə, cinsinə görə çoxlu adları var: Toğrul, toğan, ala toğan, çürə toğan, ər toğan və s. Ər Toğan qartalın böyük növlərindən biridir. Caynaqları iri, gözləri köz kimi qırmızıdır. Çaqqalı, tülkünü caynaqlarına allb göylərə qaldırır. Buludlara çatanda buraxır yerə. O dişli, dırnaqlı yirtıcılar parçalanıb dağılırlar. Toğan türklərin ərvah quşlarından biridir. Babalarımızın arxaik düşüncısinə görə alp igidlər döyüşdə ağır yaralar alanda bədənləri ölür, ruhları ölmürdü. Bir toğrulun, toğanın bədəninə köçərək yaşayırdı. Toğanların elə növü var idi ki, qanadları açılanda 20 arşın olurdu. Qardaşımız Ərdoğanın qanadları indi Egey dənizindən Xəzər dənizinədək gəlib çatır. Bir gün o qanadların Türküstan üzərindən Çin sınırlarına qədər uzandığını görəcəyik. Fars dilində türk dillərindən alınma korsak, yəni qorxaq tülkü sözü var. Korsaklar bizim Turanın qarşısında dayana bilməyəcəklər.

Ərdoğanın illər öncə içdən gələn sevgi ilə dediyi, hər bir azərbaycanlının qəlbində özünə dərin məhəbbətlə yer tutmuş bu səmimi sözləri ürəkləri riqqətə gətirir: “Mən ölsəm də, türk əsgəri Azərbaycanda ona verilən vəzifəni yerinə yetirəcək”.

Ərdoğanın bundan sonrakı taleyinin, ömür, siyasi fəaliyyətinin nəticəsindən asılı olmayaraq, Ərdoğan adı Azərbaycan xalqının yaddaşında, tariximizdə əbədi olaraq sevgi, məhəbbətlə yaşayacaqdır.



Qürur duyuram ki, haqqında inam və sevgi ilə yazdığım "Rəcəb Tayyib Ərdoğan" kitabımın Bakıdakı təqdimatında görüş, söhbətimiz - "Ərdoğan: "Çözürüz bu sorunu, mütləq çözürüz..." (9 il əvvəlin söhbəti ilk dəfə)"- mediamızda ən çox oxunan yazılardan biridir; təkcə moderator.az və yeni-sabah.az - da 40 mindən çoxdur, feysbuk və digər saytlarda isə bundan daha artıqdır.

O yazımın son cümləsinin altından hər zaman imza etməyə hazıram: Var ol, Ər Kişi, Ərdoğan Kişi, adını hər bir Azərbaycanlının ürəyinə yazdıran Kişi, bu işlər sənsiz olmazdı…

## Qarabağ - Türk dövlətlərinin qardaşlıq məkanı

*"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır".*

**Prezident İlham Əliyev**



*16 mart 2023-cü il.*
*Türk Dövlətləri Təşkilatının Zirvə Toplantısı*



Qarabağ, Şərqi Zəngəzur Türk Dövlətləri Təşkilatını birləşdirən, dostluq, qardaşlıq telləri ilə bir-birinə bağlayan məkana çevrilib.

Türkiyə Prezidenti R.T.Ərdoğandan sonra Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğızıstan Prezidenti Sadır Japarov işğaldan azad edilmiş torpaqlarımıza səfər ediblər, aparılan genişmiqyaslı işlərlə tanış olublar, rəhbərlik etdikləri dövlətlərin maliyyəsi ilə tikilən, xalqımıza hədiyyə olunan obyektlərin açılışlarını ediblər.

Son illər bu dirçələn torpaqlarda dəfələrlə Türk Dövlətləri Təşkilatının, digər mötəbər qurumların toplantılarının keçirilməsi də ənənəyə çevrilib.

Xatırladaq ki, hazırda beş dövlət - Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Türk Dövlətləri Təşkilatının daimi üzvüdür. Şimali Kipr Türk Respublikası, Türkmənistan və Macarıstan isə TDT-də müşahidəçi qismində təmsil olunur.



***Özbəkistan Prezidenti Şavkat Mirziyoyev 2023-cü il avqustun 23-də ölkəsinin hədiyyəsi olaraq Füzulidə Mirzə Uluqbəyin adını daşıyan gözəl məktəbin açılışını edib.***



***Qazaxıstan Prezidenti 2024-cü il martın 12-də Füzulidə ölkəsinin maliyyəsi ilə qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyan Uşaq Yaradıcılıq Mərkəzini tikərək Azərbaycan xalqına hədiyyə edib, rəsmi açılışdan sonra Şuşada olub.***



***25 aprel 2024-cü il. Prezident İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində***



***Türk dünyasının coğrafiyası***

## “Zəngəzur dəhlizi”nə alternativ

Prezident İlham Əliyev 2022-ci il martın 11-də Bakı şəhərində imzalanmış “Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu”nun təsdiq olunması haqqında 5 aprel 2022-ci ildə Fərman imzalayıb.

Azərbaycanın əsas hissəsini Naxçıvanla və Türkiyə ilə birləşdirən yolun İrandan keçməsinə dair əldə edilən razılığa əsasən Zəngilan rayonunda Ağbənd istiqamətində birinci körpünün inşası üçün təməlqoyma mərasimi keçirilib. Prezidentlər R.T.Ərdoğanla İlham Əliyev Qars-Naxçıvan dəmir yolu layihəsinə dair niyyət protokolu da imzalayıb.

Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlığa, iki qonşu ölkə arasında əlaqələrin inkişafına mühüm stimul verəcək bu layihənin reallaşması nəticəsində Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla, ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur. Həmin körpülər Ermənistanın dövlət sərhədindən 5 km aralı məsafədən keçəcək. Həmçinin tərəflər ərazilərində gündə 500 ədəd giriş və 500 ədəd çıxış olmaqla, ən azı 1000 ədəd yük nəqliyyatı parkını (ixrac, idxal və tranzit malları) qəbul edə biləcək dövlət sərhədindən buraxılış məntəqəsinin tikilməsini öz öhdəsinə götürüb. Bütün infrastruktur bir il ərzində reallaşdırılacaq.

Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli format-

larda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirən Prezident İlham Əliyev Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlinin qoyulmasının bu yolların şaxələndirilməsi baxımından da önəmini qeyd edib. Vurğulayıb ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgə üçün sabitliyə və əməkdaşlığa xidmət edəcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən ay Naxçıvana səfəri çərçivəsində Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanmasından sonra region dövlətlərinin nəqliyyat -infrastruktur imkanlarını genişləndirəcək bu addımı tarixi hadisə adlandıran Prezident İlham Əliyevin vurğuladığı kimi, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir. Ərazidə avtomobil yolu ilə yanaşı, dəmir yolu körpüsünün də tikintisi nəzərdə tutulub.

Beləliklə, Azərbaycanın digər rayonlarının İran vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə bağlantını reallaşdırmaq imkanları yaranır. Nəticədə, Şərq-Qərb Nəqliyyat Dəhlizinin potensialı artırılır, eləcə də bölgədə nəqliyyat və iqtisadi əlaqələr intensivləşir, iqtisadi, ticari, logistik və enerji sahələrini əhatə edən əlaqələr genişlənir.

Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bu məsələlərə əhatəli, dolğun aydınlıq gətirib: "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, - Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu,

o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, - amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir.

Onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu, onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı, digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni, bu, çox ədalətli mövqedir.

Bir məsələ də önəmlidir, bu yolun təhlükəsizliyi. Çünki mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan-Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, bu yol açılmasın. Biz üç il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi. Onu da bildirməliyəm ki, bu şayiələri, belə ucuz şayiələri yayan da Fransadır. Biz dəqiq bilirik ki, hər yerdə danışırdılar və bu gün də yəqin davam edir ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Halbuki bunun heç bir əsası yoxdur, heç bir hazırlıq da getmir və bu gün




hazırlığı gizlətmək də mümkün deyil. Çünki hər şey yuxarıdan, peykdən görünür, digər informasiya mənbələri var. Biz, sadəcə olaraq, üç il gözləmişik, görəndə ki, bu alınmır, bizim başqa yolumuz qalmayıb. Biz qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik və bildiyiniz kimi, İranla artıq razılıq da əldə edildi, nəinki razılıq, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlamışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Yəqin ki, bu il biz ona da başlayacağıq.

Beləliklə, Ermənistan yenə dalan olaraq qalacaq."

Heç şübhə yoxdur ki, yaxın gələcəkdə Zəngəzur qərbi, şərqi ilə birlikdə əbədilik sülh, əmin-amanlıq, hər kəs üçün sərbəst gediş-gəliş bölgəsinə çevriləcək, bütöv Azərbaycanı, Türkiyəni, Türk dünyasını birləşdirən məkan olacaqdır.

## Qarabağa və Şərqi Zəngəzura 2024-cü ilin sonuna qədər 20 min köçkün qayıdacaq

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsla birlikdə 2024-cü il aprelin 26-da Berlində birgə mətbuat konfransında jurnalistin sualına cavab verərkən deyib. Dövlətimizin başçısı əlavə edib: “müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır. Bu, ümumxalq məsələsidir. Necə ki, torpaqlarımızın azad edilməsi ümumxalq məsələsi idisə, bu gün torpaqların bərpa edilməsi də ümumxalq məsələsidir”.

| İnzibati ərazi vahidləri | 1-ci növbə | | 2-ci növbə 1-ci faza | | 2-ci növbə 2-ci faza | | 2-ci növbə 3-cü faza | | Ümumi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Məskunlaşma qrupları (ədəd) | Yaşayış məntəqələri (ədəd) | Məskunlaşma qrupları (ədəd) | Yaşayış məntəqələri (ədəd) | Məskunlaşma qrupları (ədəd) | Yaşayış məntəqələri (ədəd) | Məskunlaşma qrupları (ədəd) | Yaşayış məntəqələri (ədəd) | Məskunlaşma qrupları (ədəd) | Yaşayış məntəqələri (ədəd) |
| **Ağdam r.** | 13 | 13 | 9 | 15 | 12 | 35 | 2 | 7 | 48 | 115 |
| **Tərtər r.** | 2 | 2 | 1 | 1 | - | - | 4 | 11 | 19 | 63 |
| **Kəlbəcər r.** | 15 | 15 | 20 | 22 | 23 | 62 | 5 | 46 | 63 | 145 |
| **Xocalı r.** | - | - | 1 | 1 | - | 1 | 17 | 44 | 18 | 46 |
| **Xankəndi ş.** | - | - | - | - | - | - | 1 | 2 | 1 | 2 |
| **Şuşa r.** | 2 | 2 | - | - | - | - | 7 | 36 | 9 | 38 |
| **Laçın r.** | 12 | 12 | 17 | 22 | 16 | 61 | - | 29 | 45 | 124 |
| **Xocavənd r.** | 3 | 10 | 1 | 3 | 4 | 16 | 7 | 47 | 15 | 76 |
| **Füzuli r.** | 11 | 11 | 8 | 23 | - | 18 | - | 2 | 27 | 76 |
| **Cəbrayıl r.** | 12 | 12 | 7 | 20 | 6 | 45 | - | 12 | 25 | 89 |
| **Zəngilan r.** | 11 | 11 | 6 | 9 | 5 | 30 | - | 21 | 22 | 71 |
| **Qubadlı r.** | 9 | 9 | 6 | 9 | 9 | 41 | - | 32 | 24 | 91 |
| **Cəmi** | 90 | 97 | 75 | 125 | 75 | 309 | 43 | 289 | 316 | 936 |

## 2024-cü ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura yatırılan vəsaitin həcmi 12 milyard manat olacaq

Prezident İlham Əliyev: Qarabağda və Şərqi Zəngəzurda bütün bərpa, yenidənqurma işləri maksimum şəffaf şəkildə aparılır. Ayrılan vəsaitlə bağlı, müntəzəm olaraq ictimaiyyətə, o cümlədən media nümayəndələrinə məlumat verilir və sirr deyil. Bu yaxınlarda elan edilmiş məlumat göstərir ki, işin həcmi doğrudan da genişmiqyaslıdır. Bu ilin sonuna qədər, müharibə başa çatandan sonra Qarabağa və Şərqi Zəngəzura 12 milyard manat, yəni, təqribən 7 milyard dollar ətrafında vəsait yatırılır və yatırılacaqdır. Görülən bütün işlər göz qabağındadır. Tender prosedurlarına tam əməl edilir. Azad olunmuş torpaqlara müntəzəm surətdə media turları təşkil edilir. O cümlədən xarici media nümayəndələri də vəziyyətlə tanış olurlar. Ermənistan bizim torpaqlarımızı necə viran qoyub və azad edilmiş torpaqlara bu gün qayıdan vətəndaşlar hansı sevinc hissləri yaşayırlar.




*Qarabağa, Şərqi Zəngəzura qayıdış; onlar səhəri doğma yurdda qarşılayacaqlar. Gecədən sonra gündüz gəlir!*

## V fəsil.
## ZƏNGƏZUR KEÇMİŞDƏN BU GÜNÜMÜZƏ

Zəngəzur qəzası Ermənistanın Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri rayonlarını və Azərbaycanın Zəngilan, Qubadlı, Laçın rayonlarını əhatə edib. Zəngəzur elləri ən qədim dövrlərdən Azərbaycan ərazilərində təşəkkül tapmış dövlətlərin tərkibində mövcud olmuşdur. Mənfur qonşularımızın Zəngəzur tarixinə, torpaqlarına iddiaları hətta 2020-ci ilin 44 günlük müharibədəki biabırçı məğlubiyyətindən sonra da səngimək bilmir.

Halbuki bu torpaqların qədim dövrlərdən Azərbaycan türklərinə mənsub olmasını çox sayda yaxın, uzaq ölkələrin tarixçi, səyyah, coğrafiyaçıları, o cümlədən erməni, rus, fars, ingilis, fransız mənbələri də birmənalı, təkzibolunmaz faktlar, məlumatlarla təsdiq edir.

III əsrdə "Kəbeyi-Zərdüşt" kitabəsinin mətnində Sakan adı, yəni türksoylu "Sakların yurdu" mənasında çəkilib. VII əsrdə alban tarixçisi Musa Kalankatlı "Alban tarixi" əsərində, həmçinin Siraklı Ananiya "Coğrafiya" əsərində Qarabağın və Zəngəzurun qədim əhalisinin hunlar və peçeneqlər olduğunu yazıblar.

XVI-XVII əsrlərdə Avropa coğrafiyaçıları tərəfindən hazırlanan xəritələrdə Qarabağ və Zəngəzur ərazisində yer-yurd adları Azərbaycan türkcəsində qeyd olunub. Avropa coğrafiyaçıları Zəngəzuru Sak yurdu adı ilə öz xəritələrində qeyd ediblər. Məşhur italyan coğrafiyaçısı Cakomo Qastaldi 1559-1561-ci illərdə hazırladığı "Asiyanın birinci hissəsinin təsviri" xəritəsində Zəngəzurun adı "Zaka" (Saka), Laçın rayonunda yerləşən Hoçaz dağının adı "Koçias", Göyçə gölü isə "Gyöççe" kimi çəkilib. Bu xəritədə həm Qarabağ, həm də Zəngəzur ərazisində ermənilərə aid heç bir

yer-yurd adı qeyd edilməyib. Ermənilərin qondarma Sevan, Sünik, Artsax adları isə heç bir qədim xəritədə əks olunmayıb. Bunun başlıca səbəbi həm Cənubi Qafqazın, həm də Şərqi Anadolunun yerli əhalisinin ermənilər deyil, türk tayfaları olmasıdır: "1571-ci ildə brabant coğrafiyaçısı Abraham Orteliusun "Avropa" başlıqlı xəritəsində bütün Şərqi Anadolu və Azərbaycan ərazisi Türkman boylarının yurdu – Turcomani adlandırılıb. XIII əsrin sonu – XIV əsrin əvvəllərində Elxani hökmdarı Qazan xanın vəziri olmuş Fəzlullah Rəşidəddin "Came ət-Təvarix" əsərində, XV əsrin əvvəlində Əmir Teymurun yürüşlərində onu müşayiət etmiş ispan səfiri R.Q.Klavixo öz səyahətnaməsində, 1459-cu ildə venesiyalı coğrafiyaçı Fra Mauro "Mappa Mundo" dünya xəritəsində Qarabağ adını çəkəndə ermənilərin nəinki Azərbaycan ərazisində, hətta bütün Qafqaz regionunda tarixi keçmişini sübut edən heç bir fakt mövcud deyil. FraMauro bütün Cənubi Qafqaz regionunu Turcomani, yəni türk boylarının ölkəsi adlandırırdı. II əsrdə Klavdi Ptolemey öz xəritəsində Cənubi Qafqaz regionunda yalnız iki dövlətdən – Albaniya və İberiyadan bəhs edir. K.Ptolemeyin xəritəsində Qafqaz regionunda Armeniya adlı ölkədən bəhs edilmir. Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fondunda sonuncu Elxani hökmdarı Ənuşirvanın hicri 750-ci ildə, yəni miladi təqvimlə 1349-cu ildə Qarabağda zərb etdirdiyi gümüş pulu saxlanılır. Bu gümüş pulun üst tərəfində ərəbcə "sultan", ikinci sətirdə uyğur türkcəsində "Ənuşirvan" yazılıb. Onun üzərində yuxarı hissədə ərəbcə "hicri 750-ci ildə Qarabağda zərb edilib" ifadəsi qeyd olunub. "Qarabağnamə"lərdə Zəngəzur yer, ərazi, mahal adı azı 20 dəfə keçir.

Adlar yerin, torpağın danışan dilidir, onun üstündə yaşa-

mışların ən etibarlı, uzunömürlü ünvanlarıdır. Zəngəzurdakı türk mənşəli toponimik adların mütləq çoxluğu da bu fikri təsdiqləyir. Toponimin adındakı "zəngi" leksik vahidi də türk tayfa adıdır. Türkdilli respublikalarda və Azərbaycanın çoxlu yer adlarında bu oğuz-türk tayfasının izləri yaşayır; Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngənə, Zəngişalı, Zəngidərə çayı, Zəngibasar, Zəngilər, Zəncan, Zəngilli, Zəngi çayı və s. Mahmud Kaşğari, Rəşidəddin, Əbdülqazi, A.Bakıxanovun əsərlərində və bir çox digər yazılı mənbələrdə oğuz-türk tayfasından biri olan "zəngi"nin adı keçir. Zəngi tayfaları Azərbaycan Atabəylər, Səfəvilər hakimiyyətlərinin əsas sütunlarından olub. Xatırladaq ki, məngi, səngi, vəngi adlı qohum türksoyların da adları mənbələrdən keçir və türksoylarının yaşadıqları yerlərdə çoxlu izləri qalmaqdadır. Ziya Bünyadovun "Azərbaycan Atabəylər dövləti" kitabında (səh.26, 42...) Xəlifə ilə Mosulun çox nüfuzlu atabəyi olmuş Zəngi arasında münasibətlərdən söz açılır: "Xəlifə özünün bütün planlarının yerinə yetirilməsini Zəngiyə həvalə etdi. Beləliklə, Bağdadda üçlər - Xəlifə, Davud, Zəngi - birliyi yarandı. Məsuda qarşı yönəldilmiş bu birlik əslində İraq sultanlığının mərkəzi hakimiyyətinə qarşı çevrilmişdi. Xəlifənin müttəfiqləri arasında atabəy Zənginin iştirakı və nüfuzu nəinki müttəfiq əmirlərin belə addım atmasına yol vermədi, Sultan Zəngini Farsa və onun nahiyələrinə hakim təyin etdi."

Zəngəzurdakı ikinci leksem əski türkcəmizdən bu günə qədər dilimizdə işlənən "sır" sözünün fonetik dəyişikliyə uğramış formasıdır, asan tələffüzə görə s-z-yə çevrilib, yəni dağlıq, daşlıq, sırsıralı, qayalıq yer, təbii hasar, qala, bürc deməkdir. Bu iki söz ərazinin relyefini düzgün səciyyələn-

dirir-yəni zəngilərin yaşadığı dağlıq yer. Zəngəzur ərazisindəki adların bir çoxunda sır-sur-zur-zor daşlaşıb qalıb, "zor" sözü Qafqaz və Anadolu türklərinin dilində çox yaxşı, böyük, gözəl mənasında da gen-bol işlənməkdədir; güclü, qüvvətli, zor yer, zor kişi, zor adam və sair.

Bu baxımdan rus, erməni elmi dairələrinin belə fikirləri etibarsızdır. "Etimoloqiya nazvaniya «Zanqezur» neyasna"-?!

*https://ru.wikipedia.org/wiki/Obsujdeniye//%Zanqezur*

KİV-də bu faktla bağlı xeyli əyani material yayılmışdı; Azərbaycan Ordusu Kəlbəcərdə "qədim erməni tarixi" istehsal edən emalatxana aşkar edib. Erməni ustalar daş üzərində qədim ornament və xaç yonur, ona qədimi görünüş vermək üçün sirkədə saxlayıb, oksidləşdirirlər. Sonra isə daşları torpağa basdırır və bir müddət sonra artıq "tarixi olmuş əsərləri" üzə çıxarırlar. Erməni tarixçilərinin saxtakarlığını ifşa edən çoxsaylı mənbələr arasında İlya Çavçavadzenin "Ermənilər və qan ağlayan daşlar" kitabı xüsusi yer tutur.

"Kitabi-Dədə Qorqud"dan (X boy) bir yarpaq: "Oğuz igidi Usun oğlu Əkrək dədə-baba, el yolu, yəni Gorus-Əngələyüz-Dərəşam yolu ilə üç gün- üç gecəyə yortaraq Əlincə qalaya çatdı...". Zəngəzurun baş kəndi Gorus –Us, Uş tayfasının yaşayış yeri, yurdu, gorgahı olub. Qafqaz Albaniyasının tərkibində mövcud olmuş Sünik knyazlığı da əsasən Zəngəzurun Sisian və Gorus bölgələrini əhatə edirdi. Sisianın adı ilkin yazılı mənbələrdə "Sisakan"dır. Moisey Xorenatsi, Musa Kağankatlıda bu ad çox işlənib. "Alban tarixi"ndən sətirlər: "...Qoxtan əhalisi Sisak nəslinin varisləridir. (Arşak- Alban sülaləsi də vardı-H.N)...V əsrin əvvəllərində Qor və Qazan adlı iki qardaş böyük ordu ilə gəlib Sünikdə məskən saldı". Qor-əski türkcəmizdə həm də igid,

cəsur adam deməkdi. Gorus bəzi mənbələrdə Qorus kimi də gedib-"igid uslar yurdu". Qazan köklü 30-dan çox toponim var Zəngəzur ellərində. *Zəngəzurun* 20 yer-yurd, dağ-dərə, el-oba adı Ana Kitabımız "Kitabi-Dədə Qorqud"dakı adlarla eynidir. Sisakan toponimində həm də türk-oğuz mənşəli arxaik söz daşlaşıb qalıb; "kan" -hündür dağ silsiləsi, dağlıq yer anlamında gen-bol işlənmişdir, yəni Sisakan -"Sisak nəslinin yaşadığı dağlıq yer" mənasındadır. Sisianda Şirikan adlı kənd də vardı. Müqayisə et: Balakən, Beyləqan, Abakan, Balkan, Alban dövlətinin vilayətləri Atropatakan, Vaspurakan, Varaşkan, Paytarakan, Mardpetakan...Bunlar islamiyyətdən əvvəlki alban mənşəli yer adlarıdır. Albanların türk mənşəli olmasına şəkk-şübhə edənlər var. "Kitabi-Dədə Qorqud"un əlyazmada adı "Kitabi-Dədəm Qorqud əla lisani-*tayifeyi-oğuzan*"-Oğuzların kitabının, oğuzların baş qəhrəmanı, başçısı kimdir?! "*alpanlar başı Qazan* xan" hər boyda işlənir, Kitabımızda alp(p-b)anlar, alp-



lar elə oğuzların özüdür. Tarixçi Ramin Əlizadənin araşdırmasında qeyd olunur ki, yeddi yüz il əvvələ aid mənbədə Zəngəzur "Sak dərəsi" adlanırdı, yəni Sak (İskit) boylarının yurd yeri.

"Sünik" toponimi (knyazlığı, vilayəti, bu adda kənd də olub) sak türkdilli tayfa adı ilə bağlıdır. Zəngəzurun digər bölgəsi Laçın, Mığrı-Meğri adlarında da türk tayfalarının izi qalıb. Meğri rayonunun Nüvədi kəndindəki Qarqar yazıları öz qədimliyi, mükəmməlliyi, ümumtürk tarixi üçün əhəmiyyəti ilə "Orxon-Yenisey" abidələrindən geridə qalmırdı. Bərgüşad çay və ərazi adında atəşpərəstlərin inandığı Bərgu peyğəmbərin adı qalıb. Qubadlının Əliquluşağı kəndində V əsin yadigarı olan Göyqala Albanların ən möhtəşəm məbədlərindən biri olub, geniş ərazidə izləri qalmaqdaydı. Zəngəzurun ən böyük şəhərləri Qafan-qaf türk etnosunun, Qacaran-qacar tayfalarının yurd yerləri olmuşdur, an-əski türkcəmizdə cəmlik, çoxluq bildirir. Türk etnoslarının qədim və erkən orta əsrlərdə Azərbaycan ərazisində Manna və Maday (e.ə.VII-XII əsrlər), Sak çarlığı (e.ə. VII-V əsrlər), Atropatena (e.ə. IV eranın III əsrləri), Albaniya (e.ə. IV eranın VIII əsrləri), Cənub-Şərqi Avropada Skif çarlığı (e.ə.VII-III əsrlər), Sannat çarlığı (e.ə. III - eranın III əsrləri), Avar, Bolqar və Xəzər xaqanlıqları (e.ə. VI-IX əsrlər), Mərkəzi və Orta Asiyada Hun xaqanlığı (e.ə. III-I əsrlər), türk xaqanlıqları (VI-VIII əsrlər) və digər çoxlu türk dövlətləri Sünik-Zəngəzuru da əhatə etmişdi və bunlar mövcud olanda ermənilərin bu ərazilərdə heç bir izi olmayıb.

Zəngəzur Cavidan, Cavanşir, Babək dövründə xürrəmilər hərəkatının, ərəblərə qarşı savaşların əsas mərkəzi, 30 ildən artıq sürən qanlı döyüşlərin son məkanı olmuşdur. Həm də ona görə ki, atəşpərəstliyin ən məşhur məbədgahları bu yerlərdə idi və neçə-neçə abidədə izi yaşamaqda idi.

Ərəblər məhz Arazı keçərək, Naxçıvan-Biçənək-Gorus-Laçın-Bərdə istiqaməti ilə hərəkət edib o vaxt Alban, Arran adlanan Şimali Azərbaycanı zəbt etmişdilər.

1065-ci ildə Səlcuq-türk imperiyasının şanlı hökmdarı Alp-Arslanın başçılığı ilə 150 il davam edən səlcuqlu hökmranlığı Zəngəzur ərazisində türk-islam nüfuzunu daha da genişləndirdi.

1236-cı ildə monqol-tatarlar Zəngəzuru da işğal etdi. Elxanilər, Hülakilər, Şeyx Həsən Çoban, Məlik Əşrəf, Əmir Əxicuq, Şeyx Üveys Cəlairin hökmranlığı dövrlərinə aid bütün yazılı məxəzlərdə Zəngəzurdakı türk-Azərbaycan mənşəli yer-yurd adlarının adı keçir, bu yerlər qanlı savaşlar meydanına çevrilmişdi. “...1359-cu ildə Varzaqun yaxınlığında Cəlairi əmiri Məhəmməd bin Müzəffər tərəfindən məğlub edilən Əxicuq böyük itki verərək Qafana qaçmışdı. Çobanilərin Qafanda sığınacaq tapması hər şeydən əvvəl Qafan qalasının hərbi-strateji baxımdan alınmaz mövqeyi ilə bağlı idi....Əxicuq Qafana, ona ata kimi olan Sədrəddin Qafaninin yanına getdi. Üveys elçi göndərib Əxicuqu gətirdi və onunla barışdı” (XIV əsr salnaməçisi Zeynəddin bin Həmdullah Qəzvini, ”Zeylü-tarixi-güzidə” əsərindən). Foma Mesoplu yazır: “...1386-cı ildə Qızıl Orda xanı Toxtamışın qoşunları Sünikin 12 vilayətini talan etdilər, əhalisinin çoxunu qılıncdan keçirdilər və əsir götürdülər”. Salnaməçi onu da qeyd edir ki, aprelin 7-də qəflətən güclü qar yağması əhalinin bir hissəsini labüd ölümdən xilas etdi, çünki qoşunlar belə dağlıq ərazilərə çıxmağı, vuruşmağı bilmir, çoxlu itki verirdi.

1395-ci ildə Əmir Teymur Zəngəzuru özünə tabe etdi, bu ərazilər daha sonra Qaraqoyunlu (1410-68), Ağqoyunluların (1468-1502), 1502-ci ildə Səfəvi qızılbaşlarının hakimiyyəti altına düşdü, Osmanlı və İran xanədanları arasında

bir neçə əsr savaş meydanına çevrildi. Türkiyə Cümhuriyyəti Başbakanlığına tabe olan Dövlət Arxivində Osmanlı idarəçiliyi dövrünə-1593-cü ilə aid "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" saxlanılır, 200-ə qədər kəndin bir neçəsinin adı istisna olmaqla hamısı türk mənşəlidir. 1748-ci ildə Qarabağ xanlığını yaradıb ilbəil güclənən Pənahəli xan 1750-ci ildə iti zəkası, hərbi qüvvələrinin üstünlüyü sayəsində Zəngəzur ellərini-Bərgüşad, Tatev, Sisian, Qafan, Meğrini Naxçıvan bəylərbəyliyindən savaşla alıb öz xanlığına qatdı və bu ərazilər bir müddət Qaraçorlu mahalı adlandırıldı.

1805, 1813 və 1828-ci illərdə bağlanmış Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələrinin heç birində erməni sözü, izi yoxdur. "Kürəkçay müqaviləsi" preambula və 11 artikuldan ibarət idi. Müqavilənin preambulasında "Şuşalı və Qarabağlı İbrahim xanın Rusiya imperiyasının təbəəliyinə keçməsi" təsbit olunur, artikullarda bundan irəli gələn şərtlər müəyyənləşdirilirdi. Müqavilənin 1, 4, 6, 8 və 9-cu artikullarında İbrahim xanın, 2, 3, 5 və 7-ci maddələrində Rusiyanın öhdəlikləri əks olunmuşdur. Rusiya birmənalı şəkildə Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul edir, İbrahim xanı və onun varislərini xanlığın yeganə sahibi kimi təsdiq, təqdim edirdi. Ən mühüm məqamlardan biri İbrahim xanın adı keçən bütün artikullarda şuşalı və qarabağlı İbrahim xan kimi yazılıb. Digər vacib məsələ Qarabağ xanlığının bütövlüyünün saxlanmasına imperator tərəfindən zəmanət verilməsi idi. Müqavilənin X artikulunda qeyd edilirdi ki, bu müqavilə əbədi müddətə bağlanır və bundan belə heç bir dəyişikliyə uğramamalıdır. Sənəddə erməni adı, söhbəti yoxdur.

Rusiya Azərbaycanı ilhaq edəndən sonra da Zəngəzur Qarabağın tərkibində qaldı, 1861-ci ildə Zəngəzur qəzası

yaradıldı, 1867-ci il dekabrında Zəngəzur yeni yaradılan Gəncə (Yelizavetpol) quberniyasının tərkibində ən böyük ərazi-inzibati vahidi olub dörd dairəyə (okruq) bölünmüşdü: Hacısamlı, Alyanlı, Bərguşad və Həkəri dairələri. Zəngəzurun qəza mərkəzi Gorus şəhəri idi.

1886-cı ilin statistik məlumatlarına görə Zəngəzurdakı 326 kənddən yalnız 81-də ermənilər yaşamışdı, həm də Rusiyanın imperiya planlarına uyğun sistemli şəkildə İran və Türkiyədən minlərlə erməni əhalisi Qarabağa-Zəngəzura köçürüldükdən sonra.

1908-ci ildə Yelizavetpol quberniyası üzrə əhalinin siyahıya alınması sənədlərində Zəngəzur qəzası əhalisinin 294 min 753 nəfər olduğu göstərilir. Bunlardan 197 mini (67%) müsəlman, 97 mini (32,9%) erməni idi (Müxtəsər xronoloji Ensiklopediya).

1917-ci ildə Zəngəzurda yaşayan 224.197 nəfər əhalinin 70 %-i Azərbaycan türkləri idilər.



## Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi

Zəngəzur ərazisi 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi kimi ayrıca inzibati bölgə - qəza olub, ərazisi 7 min 892 kv.km idi.

Bolşevik Rusiyası 1920-ci il aprelin 28-də Azərbaycanı asanlıqla istila edib öz hakimiyyətini qurmuşdu, Azərbaycanda söz, külli-ixtiyar sahibi, sükan rus bolşeviklərinin əlinə keçdi, əsas ssenarist, quruluşçu rejissor, baş rolun ifaçıları işğalçı qırmızı ordunun komandirləri İ.V.Stalin, S.M.Kirov, Q.K.Orconikidze, M.K.Levandovski, A.İ.Mikoyan, V.Pankratov və b. idilər. Zəngəzurun Azərbaycandan qoparılıb ermənilərə verilməsinin xronikası da aprelin 28-dən başladı, yəni bu işğalın nəticəsi idi.

10 iyun 1920-ci il tarixdə RSFSR-lə Ermənistanı arasındakı bağlanmış hərbi-siyasi müqavilənin 3-cü maddəsində məxsusi yazılmışdı: «Rusiya hökuməti İrəvan quberniyasının, Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır».

Bu barədə rus, erməni, Azərbaycan mətbuatı ilə yanaşı Fransanın paytaxtı Parisdə çıxan "L'OEUVRE" qəzetinin 1920-ci il 1 iyul tarixli nömrəsində də materiallar dərc olunmuşdu. "Entre Russes et Armeniens" başlıqlı məqalədə yazılırdı: "Rusiya Zəngəzuru erməniləşdirdi. Ermənistan Respublikası ilə Azərbaycanın tatarlar (azərbaycan türkləri) yaşayan bölgəsinin Ermənistana verilməsi barədə müqavilə imzalandı." 1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu öz qərarı ilə Azərbaycan türklərinin tam əksəriyyət təşkil etdiyi Şərur-Dərələyəz bölgəsinin Ermənistana verilməsi bərədə qərar çıxarmış, Qarabağ və Zəngəzuru isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan etmiş, yəni bu torpaqların da ermənilərə peşkəş

edilməsinin siyasi-hüquqi əsasını hazırlamışdı. Yəni Zəngəzurun Ermənistana verilməsi 1918-ci il aprelin 28-də bolşevik Rusiyasının Azərbaycana hərbi təcavüzü, qanuni Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini devirməsi, Rusiyanın çarizm dövründə olduğu kimi, Qafqazda yenidən hər şeyi öz işğalçı imperiya, müstəmləkə, anti-türk, xristian təəssübkeşliyinə əsaslanan dəyişməz siyasətinə uyğun təkbaşına həll etməsinin nəticəsi idi. Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafbüronun üzvlərinin birgə iclasında (protokol №4, 2-ci bənd) "Ermənistanda vəziyyət haqqında Leqran yoldaşın məruzəsi" müzakirə edildi. İ.Stalin Bakıda AK (b)P MK və Bakı komitəsinin 1920-ci il 9 noyabr tarixli birgə plenumunda – RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s.-nin nümayəndələrinin iştirakı ilə birgə «Zəngəzur məsələsi»nin müzakirəsi zamanı söyləmişdi: «əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa, vermək olar». Onun belə bir mövqeyini bir sıra digər mülahizələrlə yanaşı, həm də «Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz» kimi məkrli fikri ilə izah etmək mümkündür. Rusiya bolşevikləri Azərbaycan-Ermənistan münasibətlərində birmənalı şəkildə erməniləri dəstəkləyirdilər. 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi –əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölündü. Bu «tarixi» qərarları verənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir; S.Orconikidze, Sarkis-

S.Ter-Danielyan, Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b. Həmin iclasda 3-cü məsələ kimi «Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı» müzakirə edilmiş və qərar çıxarılmışdı. Həmin qərarın «v» bəndində yazılmışdı: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir". İclasın və qərarın, demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində («q») öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçir. Digər bəndlərdə isə yazılırdı: d). Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən, neft haqqında göstərilsin). «J» və «İ» bəndlərində isə N.Nərimanova bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

1920-ci il dekabrın 1-də Bakı Sovetinin məxsusi olaraq Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən təntənəli «tarixi» iclasında N.Nərimanov xüsusi bəyanatla çıxış etdi: «Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanın bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanın qoşunları isə buradan çıxarılırlar;

Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin - neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır....”. Bakı Sovetinin həmin iclasının yekdilliklə qəbul olunan qətnaməsində «Nərimanovun Bəyanatı»nın tamamilə bəyənildiyi bildirilir və onun «...Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Güney Qafqaz və bütün Şərq xalqlarının tarixində yeni səhifə açdığı qeyd edilirdi».

M.Ə.Rəsulzadə, Stalin və Orconikidzenin Zəngəzurun ermənilərə verilməsinə dair “Nərimanov bəyanatı”na münasibəti maraqlıdır. İ.Stalin bu hadisəni belə «izah» etmişdi: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir». S.Q.Orconikidze Bakı Sovetinin həmin iclasındakı çıxışında «əzabkeş erməni xalqının» Sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayaraq bu bəyanatı «bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt» kimi qiymətləndirmişdi. Həmin çıxışında o, Azərbaycanın strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi: «Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir. Zəngəzur məhsulsuz dağlardır, taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir, Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: «Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün». Sanki Sovet Azərbaycanı artıq yükdən xilas olur». Q.Orconikidze elə həmin gün PK(b)P MK Qafqaz Bürosunun üzvü-erməni kommunistlərinin liderlərindən biri olan Nazaretyana məlum Bəyanat barədə xəbər yetirdikdə o, «mətbuatda «Bərəkallah, azərbaycanlılar!»-

deyə car çəkməyə başlayacağıq - cavabını vermişdi. S.Orconikidze 1920-ci il dekabrın 2-də Bakıdan V.Leninə və İ.Stalinə teleqramında «Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir» xəbərini çatdırmışdı.

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan torpaqlarınınermənilərə verilməsinə dair yazırdı: «Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir sürətdə Ermənistana hədiyyə etdi». Rus bolşeviklər rus işğalına qarşı qəti mübarizə aparan Njde, Dro kimi generalların əsas söz, nüfuz sahibi olduğu Ermənistanı sovetləşdirməyin asan yolunu tapmışdılar- Azərbaycan torpaqları hesabına Ermənistanın "böyüdülməsi", ermənilərin şirnikləndirilməsi. Həm də 1918-ci ilin iyunundan başlayaraq Osmanlı ordusunun Azərbaycana hərəkəti, erməni, ingilis, rus silahlı qüvvələrini qovub Bakını və bütün Azərbaycanı xilas etməsi də Moskvanın yaddaşında idi, belə bir vəziyyətin təkrar olunma ehtimalını aradan qaldırmaq üçün Osmanlı dövləti ilə Azərbaycanın quru əlaqəsini kəsmək, ərazi bütövlüyünü parçalamaq lazım idi. Anadoluda 6 vilayəti birləşdirməklə müstəqil Ermənistan dövləti yaratmaq planları pozulan ABŞ, Böyük Britaniya, Fransa, Rusiyanın həmin ssenarinin Qafqaza - Azərbaycan türklərinin tarixi torpaqlarına keçirmək hesabına kompensasiya etməkdən razı qalacağı da nəzərə alınmışdı. Acı təəssüflər və yazıqlar olsun ki, rus bolşeviklərinin məxsusi hörmət izzətlə Həştərxandan XI qırmızı ordunun vaqonunda bəh-bəhlə Bakıya gətirib Xalq Komissarları Soveti sədri kürsüsündə oturtduğu nəcib insan, istedadlı yazıçı, millətsevər Nəriman Nərimanov və ətrafındakılar erməni kommunist həmkarlarının sərgilədiyi

qətiyyəti, siyasi iradəni göstərə bilmədi, müqaviməti zəif, yetərsiz oldu, rus-erməni planlarının Azərbaycanın və özlərinin başına gətirəcəyi faciələri vaxtında görüb dəyərləndirə bilmədilər. Ancaq Zəngəzurun bütünlüklə Ermənistana birləşməsi ilk növbədə Zəngəzur camaatının, nüfuzlu bəy, din xadimləri, ziyalı, seyidlərin, hələ də öz əlində müəyyən qədər silahlı qüvvələri qoruyub saxlaya bilmiş qaçaqların, üzdə bolşevik kimi görünsə də daxilən vətənsevər, milli düşüncəli, Zəngəzurda dünənədək Həkri, Bərgüşad çaylarının sahil kəndlərindəki mülklərində nökərçilik edən gəlmə ermənilərin ağalığını qəbul etməyi xəyalına belə gətirməyən keçmiş bəylərin xidməti idi. Məhz bu amili nəzərə alaraq, mübahisəli elan edilmiş ərazilərdə əlavə gərginliyə yol verməmək üçün Moskvadan gələn təlimat üzrə, AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında «Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili» haqqında qərar qəbul edildi. Yenə yetərincə təsirli, istədikləri kimi olmadı, bir qismi eləcə kağız üzərində qalmışdı. Sovet hakimiyyətinə, rus-bolşevik işğalına qarşı üsyanlar da ara vermirdi.

Qafqazda Şeyx Şamildən sonra rus çarizminin yerli üsuli-idarəsinə qarşı ən uzunmüddətli partizan (qaçaq) mübarizəsinin rəhbəri Qaçaq Nəbi olub (1851-1896). Qaçaq Nəbi ilə ömür-gün, silah yoldaşı Həcər xanımın adı, bu savaşçıların Zəngəzurdan başlanıb 20 ildən çox davam edən mücadiləsi, şəxsi igidliyi, şücaət və cəsarətləri 150 ildən çoxdur ki, Azərbaycan, Qafqaz, İran, Türkiyə coğrafiyasında dillər əzbəridir. Rus-erməni işğalına qarşı növbəti duruniş, savaş Zəngəzurun sonuncu qazısı Bəhlul Behcətin (Qubadlı, Dondarlı 1869 – İrkutsk, 15 mart 1938) adı ilə bağlıdır. Onun Cihad çağırışı ilə 1922-ci ilin ortalarında Zəngəzur qəzasının Qubadlı və Xanlıq nahiyələrində başlanmış xalq

üsyanı 1923-cü ilin əvvəllərində daha da genişlənmişdi. Nuru Paşanın sifarişi ilə Mirzə Möhsün bəyin yazdığı "Xanlıq üsyanı" adlı məqalədə bu üsyan barədə geniş məlumat verilmişdir. Qoçu Təhməzin qaçaq dəstəsi ilə silahlı qüvvələrini birləşdirərək mərkəzi Xanlıq kəndi olan Qubadlı nahiyəsində qırmızı hökuməti devirib sovet hakimiyyətinə qarşı cihad bayrağı qaldıran Bəhlul Əfəndinin Cihad bəyannaməsində deyilirdi: "Tarixi beşiyimiz olan Zəngəzur, Qarabağ və onlara bitişik mahallar 12 yüz ildir ki, Azərbaycanın əsas tərkib hissəsidir. Ancaq bu gün özünün bu torpaqda yaşamaq hüququ olmayan, ancaq bu məsələni silah gücünə həll etməyə cəhd göstərən Andranik və onun daşnak qoşunları bu torpaqları bizim əlimizdən almaq fikrindədirlər. Onlar bu yolda bütün vasitələrdən istifadə edirlər... Cihad bayrağı qaldırmaqda məqsədimiz doğma torpaqlarımızı düşmənlərdən azad etməkdir. Vətən, din, torpaq, İslam yolunda cihad etmək hər müsəlman üçün böyük şərəfdir". Bolşeviklərin köməyi ilə bu üsyan 24 oktyabr 1922-ci ildə yatırıldı. Həm də bu Cihadın təsiri idi ki, Qafqazda Şura hökuməti ən gec Zəngəzurda qurulmuşdu. 1937-38-ci illərədək bu bölgədə təzə hökuməti qəbul etməyən qaçaqlar hökumətin, bolşeviklərin rahatlığını pozmuşdu. Zəngəzurun 5 kəndini birləşdirən Alyanlı (Qubadlı rayonu-H.N) camaatına Araz kənarından gətirilmiş rus sərhədçilərinin, çoxu ermənilərdən ibarət NKVD hissələrinin tutduğu amansız divan tarixin yaddaşındadır; Stalinin birbaşa göstərişi ilə Moskvadan gələn direktivə əsasən sosializmin bütün ölkədə tam və qatı qələbəsini elan etməyə mane olan qaçaqların üzərinə şəxsən respublika rəhbəri Mircəfər Bağırov toplu, pulemyotçu dəstələri ilə qoşun yeritmişdi, ən yaxın silahdaşlarından bir neçəsini də itirmişdi, keçilməz meşə, dağ, qaya-kahaları ilə səngərlərə çevrilmiş

qaçaqlar əfv adı ilə aldadılıb üzə çıxarılmış, onlardan 72-i tək Muradxanlı kəndində öz əhli-əyallarının gözü qarşısında amansızlıqla qətlə yetirmiş, əli silah tutan bütün kişi əhalisi güllələnmiş, Əlyanlı obalarından sağ qalanlar doğma, əzizlərinin qanları axıdılmış bu yerlərdən baş götürüb didərgin düşmüş, Bərdə rayonunun Alyanlı kəndində məskun olmuşdular.

1921-ci ildə Vaşinqtonda çap olunan "Ze ivninq star" qəzetində Qarabağ üsyanından, Sultan bəy Sultanovun mübarizəsindən, üsyanın Qazax qəzasına yayılmasından bəhs edilən məlumat çıxmışdı. Qəzetdə yazırdı: "Azərbaycan məlumat bürosundan alınan xəbərə görə Azərbaycanda anti-sovet üsyanı daha intensiv hal alıb. Qarabağda son döyüşdə rus qırmızı qüvvələri 1000 nəfər itirmiş, 3000 nəfəri isə yaralanmışdır. Əhəmiyyətli sayda döyüş sursatı və artilleriya ələ keçirilmişdir. Üsyan indi Qazax qəzası boyunca yayılmışdır. Azərbaycan vətənpərvəri Sultan bəy Sultanov üsyan hərəkatına başçılıq edir və general Levandovski Sovet ordusuna komandanlıq edir".

İrəvandan Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərindən N.Nərimanovun adına gələn 28 mart 1921-ci il tarixli, 477 №-li məxfi məktubda yazılmışdı: “Ermənistan KP MK-nin sədri sizdən xahiş edir ki, təcili olaraq Zəngəzur mahalının Azərbaycan hissəsinin Qubadlı qəzasından aşağıdakı əksinqilabçılar təcili olaraq geri çağırılsın: 1) Xudabaxış bəy Sultanov (İnqilab komitəsinin sədri), 2) Aslan bəy Sultanov (qəza milis idarəsinin rəisi), 3) Behbud bəy Sultanov (istintaq komissiyasının üzvü), 4) İsrafil bəy Sultanov (baş milis işçisi, yəni qəza milis idarəsinin cinayət axtarış şöbəsinin rəisi), 5) İsfəndiyar bəy Hocaxanski (qəza milis idarəsinin sahə müvəkkilləri şöbəsinin

rəisi). Zəngəzurun bütün məsul şəxslərinin və şəxsən mənim xahişimə əsasən yenidən İnqilab Komitəsinin aşağıdakı tərkibdə təşkil olunmasını təklif edirik: İnqilab Komitəsinin sədri Nəzər Heydərov, onun yoldaşları Oruc Babayev, katib Canbin Möminov, milis rəisi Əli Şərifov. Onlar Xalq Daxili İşlər Komissarlığının mandatları ilə təmin edilsin və yoldaş Baqramova verilsin ki, adları çəkilən yoldaşlara təqdim etsin. Əsli ilə düzdür. MK Dəftərxana müdiri A. Karinçova”.

Bu məktub-tələb dərhal eynilə icra olunması üçün N.Nərimanovun dərkənarı ilə Xalq Daxili İşlər Komissarı Həmid Sultanova tapşırıldı və yerinə yetirildi, bununla da yuxarı Zəngəzurun ermənilərə verilməsi üçün maneə aradan qalxdı, yaşıl işıq yandırıldı.

1921-ci ilin 3 iyununda RK[b]P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə iclas keçirib məxfi qriflə Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərara təkrar baxıldı. Bu iclasda bir nəfər də olsa azərbaycanlı, müsəlman yox idi. Əsas məqsəd yenə də cızılmış ssenarini başa çatdırıb







L'ŒUVRE

Directeur: GUSTAVE TÉRY

Entre Russes et Arméniens

La Russie des Soviets ayant, dans un traité signé le 1er juillet avec la République arménienne, cédé à l'Arménie la région de Zangezour, située dans l'Arzerbeïdjan, les Tatars de ce pays s'en sont pris aux Arméniens avec qui ils ont engagé des combats.



AZERBAIJAN REVOLT GAINS

LONDON, October 5.—The Azerbaijan Information bureau is informed that the anti-soviet rising in the Azerbaijan Republic is growing more intense. In the last fighting at Karabagh, the Russian red forces lost 1,000 men killed and 3,000 wounded, and considerable artillery and munitions captured. The rebellion has now spread throughout the district of Kasakh.

The Azerbaijan patriot Sultan Bey Sultanov heads the insurgent movement and Gen. Lesvadovsky commands the soviet army.

reallaşdırmaq idi; Azərbaycanla Osmanlını bir-birindən ayırmaq, Ermənistanın ərazisini genişləndirmək, Azərbaycanı zəiflətmək idi.

Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-in tərkibində saxlandı, 3.637 kv.verstlik hissəsi - 4505 kvadrat kilometr ərazisi Ermənistana verildi. 1933-cü ildə Zəngəzurun Azərbaycandan zorla qoparılaraq Ermənistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Sisian və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan (707 kv.km), Qubadlı (802 kv.km), Laçın (1835 kv.km) rayonları yaradıldı. Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Şura Hökumətinin tərkibində mövcud olmuş Zəngəzur qəzası coğrafi, inzibati ərazi vahidi olaraq xəritədən silindi.



## Nankor qonşulara torpaq peşkəşləri

Moskva ilə Yerevan hətta bununla da kifayətlənmədi; 70 il fasilə vermədən SSRİ dağılana qədər, I Qarabağ müharibəsindən sonra ta 27 sentyabr 2020-ci il Vətən müharibəsinə qədər Azərbaycanın bütün sərhəd xətti boyunca torpaqlarımızın hissə-hissə zəbt edilməsi, eləcə də içərisindəki xain planla yaradılmış Dağlıq Qarabağ və Naxçıvan muxtariyyətləri də daxil, 1988-ci ildən Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası, 7 rayonumuzun 28 il davam edən və bu gün də əsir, girov saxlanan Xankəndi, Xocalı, Xocavənd, Ağdərənin işğalı, bütün bunlar eyni ssenarinin, zorakı işğal, təcavüz, daha çox torpaq, ərazi qoparma siyasətinin davamıdır.

1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər əraziləri də ələ keçirməyə, genişlənməyə başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 km2), Qazax qəzasından 535096 desyatin (5832,82 km2 ), Naxçıvan MSSR-dən 657 km2, Zəngəzurun Mehri rayonundan Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə Mehri kəndlərinin Ermənistana verilməsi rəsmən təsdiqlənmişdi. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km2 -ə çatdırıldı. 1923-cü ilin iyununda Şuşa, Cəbrayıl, Qubadlının 169 kəndi, sonralar daha 31 kəndi DQMV-ə verildi, bu kəndlərin əksəriyyətində ermənilər yaşamırdılar. Əhalisnin

90 faizi azərbaycanlılardan ibarət olan Göyçə mahalı Ermənistana verildi. Az.K(b)MK-nın 25 dekabr 1924-cü il tarixli iclasında Azərbaycanın Qubadlı və Ermənistanın Zəngəzur qəzası arasında 136 sərhəd mübahisəsinə baxılır və...ermənilərin 13 kənd üzrə tələbi qəbul olunur. Moskvanın təzyiqi, məkrli planları, sırf xristian təəssübkeşliyi, ermənipərəstliyi, imperiya maraqları və "sapı özümüzdən olan baltaların" şərəfsiz xəyanətləri nəticəsində ermənilər dəfələrlə Azərbaycandan torpaq qoparmışdılar; Şuşa qəzası torpaq şöbəsinin müdiri Roqozinin 26 iyul 1923-cü il tarixli məruzəsində göstərilirdi ki, Zəngəzur və Şuşa qəzalarının tərəkəmələri arasında sərhəd mübahisəsinin həlli zamanı silahlı toqquşma baş verməsin deyə, 20 yaylaq ermənilərə verilmişdir. 1928-ci ildə Gədəbəyin ən səfalı kəndlərindən - Başkənddən 4400 hektar, 1968-ci il Şınıx zonasında yerləşən Tağlar, Qaravəllilərdən bundan da çox torpağı alıb Ermənistana verdilər. XX əsrin 90-cı llərində hadisələr yenidən başlayana kimi Başkənddə 10 mindən çox erməni yaşayırdı. Bu kəndi kənardan gələn ermənilər alınmaz qalaya çevirmişdilər. Kəndin ətrafinda səngərlər qazılmış, istehkamlar qurulmuşdu. 7 may 1969-cu ildə rəsmi Bakının qərarı ilə Laçının nadir guşələri-Qaragöl və ətraf yaylaqlarının 250 hektar sahəsi ermənilərə növbəti bəxşiş olmuşdu. Ermənilər 20-ci illərə aid xəritələri Bakı, Tiflis və Moskvadakı arxivlərdən oğurlayıb, yerinə düzəltdikləri saxta tarixlə yeni sənədlər tərtib etmişdilər. Faciəyə baxaq; bu sənədlərə qol çəkənlər Azərbaycandan MİK-in o vaxtki işlər müdiri Qadaqçayan, Moskva və İrəvan tərəfdən isə Qriqoryan, İsaxanyan, Qalustyan, Çerekeşvili, Metreveli, Akopcan, Karkaşadze, Matekeviç, Kotyuk, Tatulov və Komarovski olmuşlar. Azərbaycan rəhbərləri bu ümummilli xəyanətdən dövləti cinayətdən guya ki xəbəsizlərmiş kimi adlarını bu

imza siyahısına saldırmayıblar, qərar isə ən yüksək səviyyələrdə razılaşdırılmışdı. 1980-ci illərdə Laçın və Qubadlının yenidən ən səfalı guşələri yenə qoparılmışdı. Bunlara müqavimət göstərənləri isə müxtəlif adlarla həbsxanaya atırdılar. Moskvanın təzyiqi qarşısında müti icraçılara çevrilən, bununla da vəzifədə qalma sürəclərini bir az da uzadan, vəzifə kreslosunu vətənə, xalqa yox, Moskva, Yerevan, Tbilisidən gəlmə tapşırıqların itaətkar xidmətçilərinə çevirən respublika rəhbərləri hər torpaq bağışlama prosesində xalqı ayağa qaldırmaq əvəzinə, xalqın qəzəbini, mübarizə ruhunu hər cür inzibati yollarla söndürməyə, gizləməyə çalışırdı. 1980-ci illərdə ermənilərə Zəngəzurda təkcə Qaragöl-İşıqlı səmti deyil, Qubadlının strateji əhəmiyyətli yüksəklikləri, təbii gözəlliklərlə dolu Şurnuxu, Şamsız, Qurdbulağı, Ağbulaq, Şahverdilər kəndləri, Kəpəz dağı, Çayzəmi, Vəli düzü, Yazı düzünün bir hissəsi də qoparılıb verildi. İnanırıq ki, sərhədlərin dəqiqləşməsi sürəcində bu ərazilər mütləq Azərbaycana qatılacaq. Bu kəndlərin başı üstündəki müstəsna strateji əhəmiyyətli Kəpəz dağı kimdə olsa, İranadək nəzarət imkanı onun olacaqdır.

Böyük siyasi xadim olan Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra 1991-ci il fevralın 5-də respublikanın Ali Sovetində cıxışında demişdi: “1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kv. kilometr olub. İndi isə 86,6 min km-dir. Gör əlimizdən nə qədər torpaqlarımız gedib....Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağın məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın, hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan

Azərbaycana rəhbərlik etdiyim dövrdən, 1982-ci ilin dekabrına qədər Azərbaycan ərzisindən bir qarış da olsa Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki,o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik".

Azərbaycan Dövləti, Hökuməti, Parlamenti Rusiya və Azərbaycan bolşeviklərinin xalqımızın iradəsi əleyhinə olaraq verdikləri, heç bir hüquqi qüvvəsi olmayan qərarları ləğv etməli, xalqımızın və müstəqil dövlətimizin həmin torpaqlara qarşı iddialarını beynəlxalq hüquqa uyğun şəkildə sənəd-sübutlarla rəsmiləşdirərək hüquqi prosedurlara başlamalıdır.

Prezident İlham Əliyevi 10 yanvar 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsində bu barədə dedi: "XX əsrin əvvəlinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur, - şərqi, qərbi yoxdur, – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir. O vaxta qədər hissə-hissə bizim torpaqlarımız Ermənistana verilirdi və təxminən 100 min kvadratkilometrdən,-mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam, - 86,6 min kvadratkilometrə düşdü".

# Zəngəzur Azərbaycanın tarixi xəritələrində









**Azərbaycan xanlıqlarının xəritəsi**




**Qarabağ xanlığının xəritəsi**




Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı xəritəsi




Yelizavetpol (Gəncə) quberniyasının xəritəsi. XIX əsrin sonları




**Zəngəzur qəzası. 1903-cü il xəritəsi. Fraqment**




Zəngəzur qəzası. 1918-1920






**Azərbaycan Xalq Cümhuriyyəti dövrü. 1918-1920**




**Ermənistan SSR-in 1926-cı il xəritəsi**


GEORGIA
TIFLIS
CASPIAN
ARMENIA
GANDJA
BAKU
IRAVAN
Karabakh
SHUSHA
Mugan
Zangezur
SEA
TURKEY
Map of the Azerbaijan
Democratic Republic
1918 - 1920
IRAN


RUSSIA
Samur
GEORGIA
Kartsakhi
Sadakhlo
Qazax
Ijevan
Dilijan
ARMANIA
AZERBAIJAN
Yerevan
Barda
Agdam
Khankendi
Baku
Zangezur Corridor
Horadiz
Ordubad
IRAN
Astara

# VI fəsil.
# KEÇMİŞİ UNUTMAYAQ

## Zəngəzurda ermənilərin törətdiyi qırğınlar və etnik təmizləmə

Zəngəzurda 1905-1906-cı illərdə rus imperiyasının qurduğu ssenari əsasında törədilən erməni-müsəlman davasında axıdılan qanlardan sonra türk və kürdlərin bir çox kəndləri boşalıb müsəlman əhalisi qaçqın düşsə də, onların əksəriyyəti bir müddətdən sonra doğma yurdlarına geri qayıtmışdılar. Əslində bu ilk davada ermənilər də layiqli cavab almış, xeyli itki vermişdi. Ancaq növbəti məkrli niyyətlərini gerçəkləşdirmək üçün daha bic, planlı hərəkət etməyə başlamışdılar; erməni kilsəsinin fitvası ilə müsəlmanlarda olan silahları pulla, hiylə ilə, rus himayədarlarına xəbərçilik etməklə ələ keçirmiş, həm də Rusiyadan, indiki İran və Türkiyədən xeyli silah-sursat almağa müvəffəq olmuş, hətta, Fransa, İngiltərə, Amerikaya da yol tapmış, daha mütəşəkkil təşkilatlanmış, çoxlu pul toplamışdılar.

1917-1920-ci illərdə Zəngəzurun türk əhalisi ikinci dəfə soyqırımı və deportasiya ilə üzləşmişdi. Lakin 1906-cı ildən fərqli olaraq, bu dəfə onların əksəriyyətinə öz doğma yerlərinə qayıtmaq müyəssər olmamışdı.

1918-ci il sentyabrın 4-dən başlayaraq general Andranik Ozanyan Amerika, Fransa, İngiltərə, Yunanıstan və Rusiyanın çox böyük səxavətlə silahlandırdığı ciddi hərbi intizama malik qoşunla Zəngəzurda 115-dən çox türk-kürd kəndini dağıtmışdı, Sisian və Gorusun 70 kəndində hər beş müsəlmandan birini qətlə yetirib Gorusu mərkəz seçərək özünü "Zəngəzur qubernatoru" elan etmişdi. Ancaq elə həmin günlərdə Zəngəzurda tariximizin yaddaşına xalqın ira-

dəsinin nəyə qadir olduğunu göstərən bir şanlı səhifə də yazılmışdı. 1919-cu ilin fevralında Laçınlı Sultan bəy Paşabəy oğlu Sultanov öz dəstəsi ilə Zabux dərəsində Andranikin 8 minlik canlı qüvvəsinin əsas hissəsini mühasirəyə salaraq, çoxunu məhv etmiş, 600 ermənini əsir götürmüşdü. Andranik bu biabırçı məğlubiyyətdən sonra xəfiyyəsi olduğu, planlarını yerinə yetirməyə zamin durduğu İngiltərə və Fransa hökumətlərinin yardımı ilə miskin görkəmdə 1919-cu il martın 25-də əvvəl Tiflisə, oradan da Avropa və Amerikaya qaçmışdı.Erməni daşnakları Əsgəran qalası, Şuşa da daxil, bütün dağ Qarabağa nəzarəti ələ keçirib "Qarabağ Respublikası" yaratmışdı. "Bakı Soveti" isə Şaumyanın əlində idi. Koalisiya qüvvələrinin - ingilis, fransız, italyan hərbçi və  diplomatlarının təlimatı ilə hazırlanıb qarşıya qoyulan məqsəd Rusiyanı Qafqazdan çıxarıb yenicə müstəqilliklərini elan etmiş 3 respublikanı özlərinin nüfuz dairəsinə daxil etmək, Bakı neftinə yiyələnmək, Naxçıvanla Şuşa arasında yaşayan müsəlman əhalini məhv etməklə bu əraziləri boşaldıb yeni yaradılacaq xristian Ermənistan respublikasına qatılmasına maneəsiz zəmin hazırlamaq idi. Zəngəzur və Qarabağdakı erməni qoşunlarının birləşib Gəncəyə hücum etməsi, Azərbaycan Milli Şurasını - Azərbaycan Xalq Cümhuriyyətini beşikdəcə boğmaq, Bakıya tərəf hərəkətə başlayıb Bakı sovetinin hərbi hissələri ilə birləşib "böyük Ermənistan" ideyasını tez bir zamanda reallaşdırmaq, Nuru Paşa komandanlığından Qafqaz İslam Ordusunun hərbi yardımı gəlib çatanadək Qafqazda - Türkiyə və İranla Rusiya arasında elan edilmiş müsəlman-türk cümhuriyyətinin yaranmasına imkan verməmək, koalisiya qüvvələrinin Atatürk komandanlığında Anadoluda uğradıqları sonuncu səlib yürüşündəki acı məğlubiyyətin əvəzini Qafqazda müsəlman türklərindən çıxmaq əsas məqsəd idi.

 

*Sələflər, xələflər:*

*Xosrov bəy* *Sultan bəy*



*Məhəmməd Əsədov*



*Valeh Bərşadlı*



*Şükür Həmidov*



*Əliyar Əliyev*



*Mais Bərxudarov*

Sultan bəyin tarixdə misli az-az olan peşəkarlıq, ermənilərin yuxuda da ağlına gəlməyən müdrik dəqiqliklə hazırlanmış həmin cəsarətli hərbi əməliyyatı Azərbaycan Xalq Cümhuriyyəti hökumətindən hərbi kömək almadan, ermənilərin havadarlarının bu planını puça çıxarmışdı. Həmin günlərdə paralel olaraq Sultan bəyin qardaşı, Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, Gəncə, sonra da Qarabağ quberniyasının general-qubernatoru Xosrov bəy Sultanovun rəhbərliyi altında Qarabağdakı milis və yenicə təşkil edilən hərbi dəstələrin iştirakı ilə erməni hərbi hissələrinə qarşı uğurlu əməliyyatlara başlanmış, Əsgəran və Şuşa azad edilmiş, erməni milli şurası Şuşadan qovulmuşdu.

Lakin çox təəssüf ki, ermənilərin Laçında, Şuşada, Əsgəranda aldıqları  sarsıdıcı zərbələrdən və Nuru Paşa ordusunun Bakını azad edəndən sonra da Azərbaycan Hökuməti Zəngəzur və Qarabağda erməni mövcudluğuna son qoymaq fürsətini əldən verdi. Üstəlik bunun ardınca Cümhuriyyət Hökumətinin Zəngəur qəzasına göndərdiyi qoşunların rəhbərliyin-dəki erməni əsilli xəyanətkar zabit Baş qərargahda hazırlanmış əməliyyat planını 200 min rubla ermənilərə satıb, qazanılmış uğurlara ağır zərbə vurub, çox sayda əsgər və zabitin ölümünə nədən olub.

Xatırladaq ki, 1918-ci il iyunun 4-dən (Batum müqaviləsindən) oktyabrın 30-dək (Mudros barışığınadək) olan dövrdə Azərbaycan Cümhuriyyətinin ərazisi 100600 kv.km, 1920-ci ilin aprel işğalınadək  113895,97 kv. km olub.

## Xosrov bəy Sultanov: "...geciksək, Zəngəzur və digər qəzaları itirəcəyik"

Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hərbi naziri Xosrov bəy Sultanov 1918-ci il 28 mayda Tiflisdə İstiqlal Bəyannaməsinə imza atan 26 nəfərdən biri, sonra isə Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ quberniyasının general-qubernatoru idi. Onun 1918-ci ilin mayından başlayaraq aprel 1920-ci ilədək Nazirlər Şurasına, Hərbi Nazirliyə, Milli Şuraya, Baş nazirlər Fətəlixan Xoyski və Nəsibbəy Yusifliyə ünvanladığı xeyli məktub, teleqram və raportlar arxivlərdə qalır. Xüsusən Qafqazda əsas söz sahibi olan ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair apardığı müzakirələrdən dərhal sonra 25 iyun 1919-cu il tarixdə Milli Şuraya göndərdiyi "Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər" adlı məlumat-məruzəsi, eləcə də Zəngəzur qəzasının rəisi Məlik Namazəliyevin Gəncəyə, ardınca da Bakıya göndərdiyi onlarca məktub, teleqram da Milli Şuranı, AXC Hökumətini lazımi zamanda qətiyyət, siyasi iradə, cəsarətli hərəkətə keçməyə sövq edə, inandıra bilmədi. Xosrov bəy həmin günlərdə israrla xarici emissarların kölgəsində Qarabağda lövbər salmış Erməni Milli Şurasına və onların himayəsindəki silahlı dəstələrə 6 gün ərzində tabeliyindəki hərbi hissələri ilə birlikdə Qarabağ və Zəngəzurun hüdudlarından çıxması barədə ultimatum verilməsini, yuxarı Qarabağ ərazisindəki əslində mövcud olan ikihakimiyyətliyə son qoyulmasını, imtina edib çıxmadıqları təqdirdə, AXC-nin hərbi hissələrinin təxirə salınmadan Zəngəzura yeridilməsinə icazə və kömək istəyirdi, İranla sərhəd bölgələrində boş-boşuna dayanmış

600 nəfərlik top-tüfəngli hərbçilərin bu məqsədlə onun sərəncamına göndərilməsini rica edirdi. Qarabağın general-qubernatoru Xosrov bəy sülhü və danışıqlardan istifadəni də məqbul sayırdı, məkrli qüvvələrin əli ilə Zəngəzur və Qarabağın dinc erməni əhalisinin də müsəlman türklərlə bərabər düçar olduğu bəlaları sadalayaraq özlərini vətənsevər, erməni millətinin xilaskarları adlandıran fitnəkarların hərəkətlərinə müqavimət göstərməyə, onların yalançı vədlərinə uymamağa çağırırdı. Xosrov bəyin Zəngəzur sakinlərinə rus, türk, erməni dillərində ünvanladığı müraciətdən: "Zəngəzur camaatı, fəhlələr və kəndlilər, mən sizə üz tuturam.. nümayiş etdirin ki, sizin anarxist və avantürist elementlərlə heç bir əlaqəniz yoxdur. Elə olarsa, mən sizə şəxsiyyət və əmlak toxunulmazlığı təminatı verirəm və mən həmişə sözümün sahibi olmuşam. Lakin əgər qanundankənar elementlərlə əlaqəyə cəhd göstərsəniz, siz Azərbaycan Respublikasının qanunlarına zorla tabe etdirmək üçün mənim kifayət qədər imkanlarım vardır. Belə olsa, töküləcək qan üçün məsuliyyət sizin üzərinizdə qalacaqdır". Bu müraciətin ardınca 1919-cu il avqustunda Şuşada Qarabağ ermənilərinin 7-ci qurultayının vəkil etdiyi təmsilçilər Azərbaycan hökumətini tanıyıb tabe olacaqları barədə Xosrov bəylə yazılı saziş imzaladılar. Erməni məsələsində tutduğu qətiyyətli mövqenin nəticəsi olaraq Rusiyada ali hərbi tibb təhsili almış general Xosrov bəy tezliklə istefaya getməyə məcbur oldu və yeni hökumətdə əkinçilik naziri postuna təyin edildi. İngilis hərbi-diplomatik missiyası isə Gəncə, Qarabağ general-qubernatorluğunu tanımaq üçün AXC hökuməti qarşısında bir xeyli təhqiramiz şərt irəli sürdü. General Tomson Yerevandakı qapalı iclasdakı çıxışında 9 dəfə Xosrov bəyin adını hallandıraraq demişdi: "...doktor Sultanov

Azərbaycanın Qarabağdakı agenti, pantürkist və Türkiyənin ən qatı tərəfdarıdır". Doğrudan da, bu qeyrətli, cəsur, vətənsevər insan ermənilərin Zəngəzurdan Şuşa da daxil olmaqla Qarabağın dağlıq hissəsinə girməsinə, Zəngəzur qırğınlarının burda təkrarına imkan vermədi, gücü, qüvvəsi yalnız bura qədər yetdi. Andranikin qərbi Zəngəzurda axıtdığı qanlar hələ qurumamışdı, ancaq onun şərəfsiz missiyasının davamçıları – vampir xislətli Njde, Dro əzazilliyi ilə onu kölgədə qoyurdu. Budur, həmin qanlı qırğınların növbəti siqnalını verən bədnam əmr:

*"Qafan-Genvaz-Tatev hərbi hissələrinə*

**ƏMR**

*Əsgərlər, sabah Gığı dərəsinə qarşı bizim hücumumuz, səlib müharibəmiz başlayır.*

*Bütün kəndləri yandırın, talan edin, hücum zamanı külli miqdarda dinamit və partlayıcı çəlləklərdən istifadə edin...*

*İrəli, Allah və Davud bəyin qisasçı ruhu bizimlədir.*

*Qafan, Tatev (Gorus)-Genvaz (Meğri) hərbi qüvvələrinin ümumi komandanı Njde"*

1919-cu il dekabrın 1-də sübh çağı üç istiqamətdə başlayan hücumlarda - Oxçuda əvvəlcə əli silah tutan kişilər gülləyə qənaət etməkdən ötrü xəncərlə doğranıb, gürzlərlə başları əzilib, ardınca da məscidin içinə 400-dən çox qadın və uşaq doldurulub, içəri qumbaralar atılıb, sonra od vurub yandırılıb. Bu kəndin 1400 sakinindən yalnız 10-12 nəfəri sağ qurtulub, öldürülənlərin yalnız 133-nün kimliyini tanımaq mümkün olub, Şabadindən cəmi 8 kişi, 7 qadın sağ çıxıb. Atqız kəndinin 4000 sakinindən yalnız 261 nəfəri mühasirədən çıxa bilib, onların da 167-si Gığı dərəsindən Ordubada keçən qarlı, şaxtalı yollarda donaraq ölüb, Çaylıda 900 müsəlman öldürülüb, tam mühasirəyə alınmış Mədən, Şəhərcik, Buğacıq, Mollalı, Həkəti, Keçi Sofulu, Kurud,

Keçili, Əsgərli, Pirçevan, Zəngəzur qəzasının 3-cü sahəsinin (Qubadlı rayonu) Xocahandan Qaladərəsinə qədər ərazidəki 48 kəndin əhalisi amansızlıqla qətlə yetirilib, evləri talan, qarət edilərək yandırılıb. Qubadlının 1993-cü ilin 31 avqust işğalına qədər o kəndlərin bir çoxunun xarabalıqları dururdu, heç kəs oralarda yenidən məskən salmağa ürək etməmişdi. Bəzi kəndlərin isə yalnız adları arxiv sənədlərində qalıb. Njde bu qırğın əmrini verəndən cəmi 1 həftə əvvəl - 23 noyabrda Tiflisdə Ermənistan və Azərbaycanın baş nazirləri A.Xatisovla N.Usubbəyov arasında Amerika ordusunun baş qərargah polkovnikinin, Gürcüstan xarici işlər nazirinin iştirakı ilə sülh sazişi imzalanmışdı və dekabrın sonlarına ABŞ, Böyük Britaniya, Fransa, İtaliya hökumətlərinin Qafqazdakı missiya başçılarının iştirakı ilə birgə sülh konfransının keçirilməsi barədə razılıq əldə olunmuşdu. Budur erməni məkri, hiyləsi. Arxivlərdə, son illər nəşr edilmiş kitablarda, o cümlədən AXC Parlamentinin iclas stenoqramlarında 1919-cu ilin noyabrından başlayaraq onlarca ziyalının, el-oba ağsaqqalının, hökumət tərəfindən vəkil edilmiş Zəngəzur qaçqınlarına yardım komitəsi üzvlərinin imzaları ilə göndərilmiş xəbərdarlıq teleqramlarından, xüsusən Zəngəzurdan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü seçilmiş Cəlil Sultanovun AXC Hökumətinə, parlamentə, "Müsavat", "İttihad", "Sosialistlər" fraksiyalarına ünvanladığı, Zəngəzurdan deputat seçilən Mirzə Sadıq Axundzadə tərəfindən parlamentdə oxunan, "Azərbaycan" qəzetində dərc edilən, dekabrın ilk günlərindən - Njdenin hücumları başlanmazdan əvvəl və sonra birbaşa qırğın yerlərindən, Zəngəzurdan, Qarabağdan gələn harayları dinləyək, erməni qətliamlarının tükürpədən gerçəkliklərinin əks olunduğu teleqramlardan bir neçəsinə nəzər salaq:

*"Biz Oxçu-Şabadin və Gığı dərəsi sakinləri hər tərəfdən ermənilərlə əhatə olunmuşuq, onların bütün əməlləri və rəftarları bizə hücum etməyə hazırlaşdıqlarını açıq şəkildə sübut edir, onların köməyinə nizami qüvvələr gəlib. Onların top və pulemyotları var. Biz çıxılmaz vəziyyətdəyik, biz qorxuruq. Sizin ayaqlarınıza düşüb mərhəmət diləyirik və bizi xilas etməyinizi xahiş edirik. Bizə güllə və pulemyotu olan bir neçə zabit göndərin. Əgər göndərməsəniz, xəbər verin ki, biz vaxtında öz kəndlərimizi tərk edək, yoxsa biz bilirik ki, xilas ola bilməyəcəyik".*

*"Silahının gücünü Zəngəzurun həmişə təqiblərə məruz qalmış, məzlum, bədbəxt müsəlman əhalisi üzərində sınayaraq cəzasız qalan ermənilərin təcavüzkar hərəkətləri barədə hökumətə dəfələrlə xəbər verilmişdir. Zəngəzur müsəlmanlarının müdafiəsi üçün hökumət tərəfindən indiyədək heç bir real tədbir görülməmişdir. Hökumətin fəaliyyətsizliyindən əl-qolu açılan Zəngəzur erməniləri nizami hissələrin köməyi ilə birləşmiş Qarabağ qüvvələri kimi hərəkət edib bütün yolüstü müsəlman kəndlərini məhv etmək, Qarabağa daxil olaraq Əsgəranı tutmaq, Şuşanı almaq qərarına gəliblər. Bu qərar indi icra edilir. Xankəndində əhalinin müdafiəsi tapşırılan qarnizon əmr verilmədən müdafiəyə başlamağa cəsarət etmir. Cinayətkar ermənilərin hökmranlığına və belə biabırçı hadisələrə son qoymağı, Qarabağ və Zəngəzurun mühüm ehtiyaclarının həlli üçün bir dəqiqə vaxt ayırmağa sizdən sonuncu dəfə xahiş və tələb edirik, əks təqdirdə, hökumətin köməyini və icazəsini gözləmədən özünümüdafiə tədbirləri görməli olacağıq".*

*"Fərəcan, Göyyal, Çərəli səkkiz kənd yanır, tüstü göyün üzünü bulud kimi alıb. Mən 300 silahlı adamımı ora Zəngəzura kömək üçün göndərmişəm. Lakin bu, dənizdə bir damladır. Xahiş edirəm tədbirlər görəsiniz. Bizim qüvvəmizlə onların qarşısını almaq olmaz".*

*"Ermənilər Zəngəzurun 3-cü sahəsini (Qubadlı rayonu) işğal etdilər. Hücum 4-cü sahəsinə və Cəbrayıl qəzasının sərhədində gedir. Ermənilərin 8 topu, 60 pulemyotu var, Ararat qoşunları*

*mütəşəkkildir. Patronları, silahları olmayan müsəlmanlar geri çəkilməyə məcburdurlar. Zəngəzurda artıq hər şey bitib".*

*"Bu gün axşam vaxtı qəza rəisi ili birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır. Ermənilərin döyüş meydanında qalmış ölüləri arasında bir neçə ingilis əsgəri də vardı. Xocahan və Zabux arasındakı bütün yüksəkliklər ermənilər tərəfindən tutulmuşdur. Əkərə çayının sağ sahili boyu üçüncü polis sahəsi tamamilə toplarla və pulemyotlarla məhv edilmişdir. Bu gün Zəngəzur qəzasının dördüncü polis sahəsinin sağ qalan hissəsini ermənilər mühasirə ilə kəsib ayıraraq onun da axırına çıxırlar (ARDA: f. 895, siy. 1, iş 299, vər. 18, 22, 26).*

Hazırda Beynəlxalq Məhkəmədə Ermənistanın ölkəmizə qarşı iddiaları üzrə işə baxılır; Azərbaycanın hüquq müdafiə heyətinin üzvü, hüquqşünas Stefan Talmon “Azərbaycan Ermənistana qarşı” işi üzrə keçirilən dinləmədə Azərbaycanın arqumentlərini belə təqdim edib: *“Başqa bir dövlətin ərazisinin beşdə birini işğal altında saxlamış, 23 minə yaxın vətəndaşını qətlə yetirən, 3900-ə yaxın insanın itkin düşdüyü vəziyyət yaradaraq, bütöv bir regionu etnik təmizləməyə məruz qoymuş, 1 milyon insanı öz yurd-yuvasından didərgin salmış, onları mülkiyyətlərindən məhrum edən, mədəni irsini məhv edən, təbii sərvətləri talayan bir dövlət ona qarşı heç bir iddianın qaldırılmayacağını necə düşünə bilər? Bu, qeyri-mümkündür, amma Ermənistanın son bir neçə gündə etdiyi məhz budur”.*

## Zəngəzurda ingilis planı: 1918-1920-ci illər

Zəngəzur və digər bölgələrdə bu qanlı qırğınları təkcə ermənilər törədə bilməzdi, xristian təəssübkeşliyi, böyük dövlətlərin geosiyasi maraqları, anti-türk, anti-müsəlman birliyi, hərbi-siyasi yardımı olmasaydı qətl, qarət, deportasiyanın vüsəti bu qədər amanısız, faciəli ola bilməzdi.

XIX əsrin sonlarından etibarən dünya güclərinin hərbi-siyasi planlarına uyğun və fəal dəstəyi ilə yaradılan erməni milli terror təşkilatları, nizami qoşun hissələri, ardınca tarixi Azərbaycan-türk torpaqlarında qurulan Ermənistan Respublikası mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə ötən yüzillikdə soydaşlarımıza qarşı ardıcıl etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər.

Böyük Britaniyanın Qafqazdakı diplomatik nümayəndəliyinin rəhbəri general Tomson 1919-cu il martın 28-də Yerevanda Ermənistan hökumətinin iclasında çıxışında demişdir: "...Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək...Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur-Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbir-

ləri görmüşdür...Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir".

Erməni stenoqraf protokolda "General Tomson dediklərinin evin divarlarından kənara çıxmayacağını bilərək açıq danışır..." qeydini etməyi də unutmayıb.

Bolşevik Rusiyasının Azərbaycana gəlişinə qədər Qafqazda cərəyan edən bütün proseslərdə ingilislərin əsas ssenari müəllifi, rejissor və baş rolun ifaçısı olduğu, Azərbaycandan qoparılıb Ermənistana veriləcək torpaqların sərhədlərinin cızıldığı arxivlərimizdə saxlanan bu və digər xeyli sənədlərdən də aydın görünür. Tomsonun Ermənistan hökumətinin rəhbərləri Xatisov və Tiqranyanla həmin iclasdakı dialoqları da çox mətləblərdən xəbər verir, həm də o vaxtkı erməni və azərbaycanlı siyasətçilərin Zəngəzur, Dağıq Qarabağ məsələsinə münasibətlərindəki, eləcə də xarakter və düşüncələrindəki fərqləri göstərir.

Bu iclasdan 4 gün sonra - aprelin 2-də Gorusda "Sisian və Zəngəzurun qurultayı" keçirilir və qərar qəbul edilir: "Azərbaycanın Ermənistanın bir hissəsi olan Zəngəzuru tutmaq cəhdlərinə qarşı silahla cavab verilsin."

Acı təssüflər olsun ki, Cümhuriyyətin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının işi qırmızı rus işğalı ilə yarımçıq qaldı, ancaq toplanmış faktlardan aydın olur ki, Cəbrayıl və Cavanşir qəzalarında da hücum və qırğınlar eyni amansızlıqla davam etmişdir.

Böyük Britaniyanın Hərbi naziri Çörçill 1919-cu il martın 6-da Qafqazla bağlı bir konfransda demişdi: “Heç şübhə yoxdur ki, Rusiyanın gələcək hökuməti bu regiona (Qafqaza-H.N) yenidən qayıdacaqdır, indiki fasilə məqamında baş verənlər əsas problem deyil, lakin Britaniya qoşunları o əra-

zilərdə nə qədər çox qalacaqsa, bizim caynağımız bir o qədər dərinə işləyəcəkdir.” 1917-ci ildə Rusiyada oktyabr inqilabından sonra, bolşeviklərə qarşı "14 dövlətin yürüşü" planının müəllifinin bu uzaqgörənliyini, ingilis diplomatiyasının gücünü, anlamaq üçün bp şirkətinin Azərbaycana-Xəzər regionuna gəlişi və burdakı fəaliyyəti, mənfəətlərini yada salmaq kifayətdir.

İngilis jurnalisti Skotland-Liddell həmin qanlı yanvar günlərində Zəngəzura gəlib törədilən qırğınları şəxsən görüb yanvarın 30-da Tiflisdə bölgəyə səfərində gördüklərini "Müsəlmanlarla müharibə, ermənilər yenidən hücum edirlər" adlı məqaləsində yazırdı: İndi zaman Azərbaycanın xeyrinə işləyir. Ona görə inamla deyə bilərik ki, heç nə zülmkar erməniləri xilas edə bilməyəcəkdir. Vaxt gələcək ki, erməni faşizmi əməllərinin layiqli cavablarını alacaqlar."

Və həmin Zaman gəldi...

## 100 il davam edən məkrli planlar və son

Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti 1918-20-ci illərdə ermənilərin Bakı, Naxçıvan, Quba, Zəngəzur və digər bölgələrdə törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, üzə çıxarılan həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda həmin dəhşətli

hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

1969-1982-ci və 1993-2003-cü illərdə–33 il Azərbaycana rəhbərlik etmiş Ümummilli lider Heydər Əliyevin həm ata, həm ana tərəfdən valideynləri Zəngəzurda doğulub, soy-kökü ilə bu torpağa bağlı olublar. O, XX əsrin əvvəllərində erməni terrorçu dəstələrinin Zəngəzurda törətdiyi qətliamları bütün dəhşətləri ilə yaxşı bilirdi, adını daşıdığı cavan dayısı Heydəri də erməni cəlladları qətlə yetirmişdi.

Tarixşünaslığımızda XX əsrdə ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımı və deportasiyanın elmi şəkildə öyrənilməsinə əsasən müstəqillik dövründə başlanmışdır. Azərbaycanın tarixi Zəngəzur bölgəsində erməni silahlı quldur dəstələrinin əvvəlcədən planlaşdıraraq 1905-1906, 1917-1920, 1948-1953, 1988-1994-cü illərdə törətdikləri etnik təmizləmə, deportasiyanın arxiv sənədləri əsasında sistemli tədqiqi bu cəhətdən tarixşünaslığımızda mühüm yer tutur.

XIX əsrin sonlarında, hətta indiki İran və Türkiyə ərazsisindən çarizmin müstəmləkə siyasətinə uyğun olaraq Qarabağa, o cümlədən Zəngəzura çox sayda erməni ailələrinin köçürülməsindən, ən münbit, səfalı torpaqlarda yerləşdirilməsindən sonra belə Zəngəzurda ermənilər həmişə azlıqda qalmışlar; qəzadakı 326 kəndin yalnız 81-də ermənilər yaşayırdı.

1 yanvar 1886-cı il tarixinə Yelizavetpol quberniyası əhalisinin qəzalar üzrə bölgüsündə Zəngəzurun sahəsi 6 644 verst, əhalisi 96 902 nəfər olmuşdur. 161 dövlət kən-



Ermənilərin İrandan Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V. Maşkovun çəkdiyi şəkil).1828-ci il.

dindən 111-i müsəlman, yalnız 49-u erməni kəndi idi. Əhalinin 38 712-i müsəlman, 30 850-i erməni idi. Azərbaycan XIX əsrin ilk otuzilliyində romanovlar Rusiyası tərəfindən işğalı və işğaldan sonrakı müstəmləkə əsarəti dövründə Vətənimiz çox ciddi sosial-iqtisadi, ictimai-siyasi və b. təbəddülatlara məruz qalmışdır. Hələ işğalın gedişində və ondan dərhal sonra imperiyanın yeni cızılmış sərhədləri boyunca cənubdakı iki müsəlman-türk səltənəti – Qacarlar və Osmanlı dövlətləri ilə Quzey Azərbaycanın müsəlman əhalisi arasında xristian əhalisindən «sanitar kordonu» yaratmaq üçün çar Rusiyası erməniləri kütləvi şəkildə bu dövlətlərin ərazisindən Şimali Azərbaycana köçürüb onları bu ölkənin aborigen türk-müsəlman əhalisinin ən yaxşı torpaqlarında yerləşdirib özünə sadiq xristian plasdarmı yaratmaq siyasətini yürütmüşdür. Nəticədə bütövlükdə Quzey Azərbaycanın, habelə onun ayrı-ayrı bölgələrinin, o cümlədən Zəngəzurun demoqrafik durumunda köklü mürtəce dəyişikliklərin əsası qoyulmuşdur. Çar işğalları ərəfəsində və onun gedişində Qarabağ xanlığının, daha sonra isə əsasən Qarabağ əyalətinin, eləcə də Zəngəzur bölgəsinin əhalisi haqqında

XIX əsrin əvvəllərinə aid məlumatlarda göstərilir ki, 1823-cü ildə Zəngəzur bölgəsinin əsas hissəsini özündə birləşdirmiş Sisian mahalının xəzinə torpaqlarında 203, Bərgüşad mahalının torpaqlarında 146, Püsyan mahalında isə 887 ailə qeydə alınmışdır.

1828-1829-cu illərdə Qarabağ əyalətinə köçürülüb gətirilmiş 16-17 min nəfərlik erməni köçkünlərinin müəyyən hissəsinin Zəngəzurda yerləşdirilməsi ilə burada köklü demoqrafik dəyişikliklərin əsası qoyulmuşdur. Doğrudur, Qacaqlar səltənətinin Qaradağ, Gərməli, Xoy və Səlmas bölgələrindən ermənilərin köçürülməsinədək də Zəngəzurun Mehri, Sisian (Əhlətyan, Pirnəkan, Şinətağ v.b. kəndlərdə) yerli xristian əhalisi yaşayırdı, ancaq onlar alban əsilli idilər və onları erməni saymaq düzgün deyil. Yeni gətirilən köçkünlər isə Zəngəzur bölgəsinin Bələk, Məzrə, Şələk, Qarakilsə, Əlili, Əngəlyurd, Quşçutəzəkənd, Qafan, Uz və b. kəndlərində məskunlaşdırıldı. Bir qədər sonra bölgəyə az sayda rus əhalisi də köçürüldü. Onlar Sisianın Bazarçay kəndində məskunlaşdırılmışdılar. Erməni köçləri sonralar da davam etmişdir. Belə ki, 1874-cü ilin kameral siyahıyaalmalarının məlumatlarına görə, Zəngəzur qəzasının 168 xəzinə kəndindən artıq 42 kənd sırf erməni, 1 kənd rus, 5 kənd isə əhalinin qarışıq, qalanı müsəlman türk-azərbaycanlıların yaşadığı kəndlər idi. Həmin il qəzada qeydə alınmış 8563 həyətdə cəmi 20516 nəfər yaşayırdı.

1884-1885-ci illərdə, Cənubi Qafqaz xəzinə kəndlilərinin iqtisadi məişətinin öyrənilməsi üçün aparılmış tədqiqatların nəticəsinə görə isə, Yelizavetpol quberniyasının Zəngəzur mahalının dörd sahəsində – Mehri, Qafan, Zəngəzur və Sisian sahələrində 293 yaşayış məntəqəsi qeydə alınmışdır ki, bunlardan da 49-u -16%-ı erməni, 1-i rus, 7-si isə

qarışıq əhalili kəndlər idi. XIX əsrin 80-ci illərinin ortalarında qəzada qeydə alınmış 10828 həyətdə birləşmiş 70015 nəfər əhalinin artıq 36%-ni ermənilər, 63%-ni isə müsəlmanlar təşkil edirdilər. 1886-cı il ailə siyahıyaalmalarına görə Zəngəzur qəzasında əhalinin 53,3 faizini müsəlmanlar, 46, 3 faizini ermənilər təşkil edirdi. Qəzadakı 326 kəndin yalnız 81-də ermənilər yaşayırdı. Digər mənbədə göstərilir ki, 1 yanvar 1886-cı il tarixinə Yelizavetpol quberniyası əhalisinin qəzalar üzrə bölgüsündə Zəngəzurun sahəsi 6 644 verst, əhalisi 96 902 nəfər olmuşdur. S.Zelinskiyə görə, 1886-cı ildə qəzada olan 161 dövlət kəndindən 111-i müsəlman, 49-u erməni kəndi idi. Əhalinin 38 712-i müsəlman, 30 850-i erməni idi. 1890-cı ildə Zəngəzur qəzasındakı 326 kənddə 19447 həyət, 123997 nəfər əhali qeydə alınmışdır. Romanovlar səltənətinin bütün mövcudluğu dövründə aparılmış çoxsaylı və çoxçeşidli əhali və b. sayımlar içərisində ən mükəmməli, sistemlisi və daha çox məlumatvericiliyi ilə seçilən 1897-ci il sayımının nəticələrində də Zəngəzur qəzasının demoqrafik durumu haqqında maraqlı, əhatəli məlumatlar vardır.  Çar II Aleksandrın 1867-ci il 9 dekabr tarixli fərmanı ilə Yelizavetpol quberniyası yaradıldı. Quberniyanın tərkibindəki Zəngəzur qəzasının ərazisi 6 829,7 kv.verst idi, mərkəzi Gorus kəndi idi.

Quberniyada qeydə alınmış 878 415 nəfər əhalidən 137 871 nəfəri Zəngəzur qəzasında yaşayırdı. 1897-ci ildə bu qəzada qeydə alınmış əhali içərisində 1783 nəfər xarici dövlət təbəəsi və 1623 nəfər müvəqqəti məskunlaşmış əhali olmuşdur. 1897-ci ilin digər məlumatına görə, 142 min nəfərlik qəza əhalisinin 71,2 mini müsəlman, 63,6 mini erməni, 1 807-i kürd, 1236-ı digər (rus, ukraynalı, alman, dağıstanlı idi. 1897-ci ildə ermənilərin böyük əksəriyyəti artıq «yerli əhali» qrupuna aid edilirdi. XIX əsrin 90-cı illərinin

ortalarında xarici havadarlarının qısqırtması ilə Anadoluda qaldırılmış erməni qiyamları Osmanlı hakimiyyəti tərəfindən qətiyyətlə yatırıldıqda Cənubi Qafqaza yeni erməni qaçqın kütlələri yönəlmiş və onların da əksər hissəsi yenə də Azərbaycan torpaqlarında – İrəvanda, Naxçıvanda, Qarabağda, habelə Zəngəzurda yerləşmişdi. 1901-ci ildə qəzada 294753 nəfər əhalinin 197066-ı müsəlman (67 faizi), 97204-ü erməni-qriqoryan (32,9 faizi), 483-ü digər millətlər idi. 1905-ci il yanvarın 1-nə olan məlumata görə, qəzada 151140 nəfər yaşamışdır ki, onlardan 77.433 nəfərini türklər, 66181 nəfərini ermənilər, 6655 nəfərini kürdlər, 785 nəfərini ruslar və 76 nəfərini Avropa xalqlarının nümayəndələri təşkil etmişdilər. 1908-ci ildə Yelizavetpol quberniyası üzrə statistik məlumatlarda Zəngəzur qəzası əhalisinin 294 min 753 nəfər olduğu göstərilir. Bunlardan 197 mini müsəlman, 97 mini erməni idi. Qəzada mövcud olan 406 kənddən 314-də müsəlmanlar, 92-də ermənilər yaşayırdılar. XX əsrin əvvəllərində xristian imperiyasının hərtərəfli dəstəyi şəraitində Şimali Azərbaycanda kök salmış ermənilər «Qoy özümə yer eləyim, gör sənə neylərəm!» – prinsipini rəhbər tutaraq hakimiyyət orqanlarının cinayətkar fəaliyyətsizliyi, bəzi hallarda isə açıq-aşkar xristian təəssübkeşliyindən faydalanaraq, Quzey Azərbaycanın İrəvan, Naxçıvan, Bakı, Gəncə, Qarabağ və b. bölgələri kimi Zəngəzurda da bu torpaqların tarixi sahibləri, aborigen sakinləri olan türk-müsəlman əhalisinə qarşı görünməmiş vəhşiliklər törətdilər. Bu qanlı-qadalı illərdən sonra Zəngəzur qəzasının əhalisi təbii artım, inzibati-ərazi dəyişiklikləri hesabına artmaqda davam etmişdir.1910-cu ildə 187 851 nəfərə, Birinci dünya savaşı ərəfəsində isə 220 186 nəfərə çatmışdı. Bu dövrdə müsəlman əhalisi Zəngəzur qəzasında başlıca demoqrafik toplum olaraq qalmaqda idi. Belə ki, müsəlmanların sayı

təxminən 132 min nəfər olduğu halda, ermənilərin sayı 87 min nəfər, rusların sayı isə cəmisi 1,7 min nəfər təşkil edirdi. 1917-ci ilə aid statistik məlumatlara görə, Zəngəzurda azərbaycanlılar 123085 (55 faiz), ermənilər isə 99257, (44,3 faiz) təşkil edirdi. 1917-ci ildə qəzanın 109 kəndi dağıdılmış, qəzanın şərq bölgələrində yaşayan müsəlman əhalisinin sayı çəkisi xeyli azalmışdı.

1918-1919-cu illərdə daşnak Ermənistanın təcavüzü nəticəsində qəzada 10 min nəfərdən çox müsəlman qətlə yetirilsə də, yenə əhalinin yarıdan çoxu müsəlman türklər idi. 1920-ci ildə Zəngəzur qəzasına daxil olan Qafan, Gorus, Sisyan, Mehri, Zəngilan, Qubadlı və Laçın rayonları 2233 təsərrüfatı birləşdirmiş, 224197 nəfər əhalisi olmuşdur, əhalinin 70 %-i Azərbaycanlı idilər. Zəngəzur torpaqlarının xeyli hissəsinin Azərbaycandan qoparılıb alınması sovet Rusiyasının əli ilə reallaşdırıldı, Zəngəzurdan Azərbaycan-türk əhalisinin sonuncu nəfərədək qovulması isə 1991-ci ildə çağdaş Rusiyanın hərtərəfli şəkildə dəstəklədiyi müasir daşnak quldurları tərəfindən həyata keçirildi.

Ermənilərin Zəngəzurda törətdikləri qanlı qırğınlar, soyqırımı və deportasiya erməni müəlliflərinin əsərlərində də faktlarla təsdiq və etiraf olunmuşdur. Tanınmış erməni tarixçisi T.Haçikoğlyan Sovet Ermənistanının Qızıl Ordu tərəfindən tutulmasının 10-cu ildönümü münasibətli ilə nəşr etdirdiyi kitabçasında bu dövrdə erməni xalqının törətdikləri vəhşilikləri belə təsvir edirdi: «Şərəfsiz daşnak «cümhuriyyəti»nin qısa dövründə Azərbaycan, Gürcüstan və Türkiyə ilə aparılan döyüşlərdə daşnakların qanlı əlləri ilə minlərlə türkü məhv etdikləri, kəndlərini yandırıb külə çevirdikləri Zəngəzur, Şərur, Dərələyəz, Meğri, Ağbaba, Zəngibasar, Böyük Vedidəki türk kəndlərində yaşanan vəhşi-

liklər, qətliamlar, soyğunçuluqlar hələ də yaddaşlardan silinməyib....1920-ci ildə isə ermənilər fəhlə və kəndlilərinin may qiyamının yatırdılmasından sonra daşnaksutyun «müsəlmanlar bizim düşmənimizdir» şüarı altında azərbaycanlı və kürd kəndlərini bombalayaraq minlərlə sadə insanları məhv etdi. Əsgərlərdə yaltaqlıq, keyfiyyətsizlik, çalıb-çapmaq, başqasının hesabına yaşama, günahsız və çarəsiz insanları öldürmə psixologiyası kök atmışdı».

1918-1920-ci illər hadisələrinin Cənubi Qafqazda yerli əhalinin etnik tərkibinə təsirini Zəngəzur qəzasının nümunəsində apardığı tədqiqatlarla izləyərək şərh edən rus tədqiqatçı N.Q.Volkova yazırdı: "1897-ci ildə 137, 9 min əhalinin 71,2 mini (51,7%) azərbaycanlılar, 63,6 mini (46,2%) ermənilər, 1,8 mini (1,3%) kürdlər olmuşdur. 1922-ci ilin siyahıya alınmasına görə, Zəngəzurda cəmi 65, 5 min nəfər yaşayırdı ki, bunun da 56,9 mini (89,5%) erməni, cəmi 6,5 mini (10,2%) azərbaycanlı idi». 1917-1920-ci illərdə Zəngəzurda 10 mindən çox müsəlman azərbaycanlı soyqırımına məruz qalmış, 50 mindən çox azərbaycanlı bütün var-yoxunu itirərək qəzadan deportasiya edilmiş, sonradan onların yalnız 5 mini öz vətəninə dönmüşdü. 1917-ci ildə Zəngəzur qəzasında 123085 nəfər təşkil edən azərbaycanlıların 1926-cı il siyahıyaalınma göstəricilərinə görə sayı təxminən 2,5 dəfə azalmışdı.

1945-ci il noyabrın 21-də Ermənistan hökumətinin vəsadəti nəzərə alınmaqla, azərbaycanlıların Ermənistana köçürülməsi, xaricdəki ermənilərin də Ermənistana köçürülməsi barədə SSRİ hökumətinin qərarı qəbul edildi. Qərarın icrası ilə bağlı xeyli yeni qərarlar da verildi. Bu qərarlara qarşı Zəngəzurda güclü müqavimət oldu, yalnız Gorus rayonunun 5 kəndindən- Şurnuxu, Ağbulaq, Qurdbulaq, Şahverdi-

lər, Şamsız kəndlərindən cəmi 131 ailə - 712 nəfər Mingəçevir şəhərinə bitişik Hürüuşağı kəndinə köçürüldülər, orda məskunlaşdılar. Qohum-əqrəbalar 1993-cü ilə qədər Mingəçevirlə Zəngəzurun arasında qalmışdılar.

Ermənistan silahlı qüvvələri tərəfindən 1988-ci ildən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan dağlıq Qarabağın, eləcə də ona bitişik olan 7 rayonun ərazisi işğal olunmuş, 700 min nəfərədək azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min nəfər azərbaycanlı həlak olmuş, 100 min nəfər yaralanmış, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuş, 4011 nəfər itkin düşmüşdür. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ölkəyə dəymiş ziyan təxminən 800 milyard ABŞ dollarından çoxdur. Ermənistan dünyada ən böyük insan orqanı ixracatçısıdır. Qarabağ müharibəsində itkin düşmüş Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında qeydiyyatda olan azərbaycanlıların sayı 3890 nəfərdir.

27 sentyabr 2020-ci ildən başlanan 44 gün davam edən Vətən müharibəsi 10 noyabrda böyük Zəfərlə - Ermənistanın hərbi kapitulyasiyası ilə başa çatdı. Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, Azərbaycan silhalı qüvvələri tərkibində döyüşən əsgər və zabitlərimizin sarsılmaz cəsarəti, igidliyi, ordumuzun ən müasir silahlarla təchizatı və idarə edilməsi sahəsində qazanılmış təcrübə, xalq-ordu birliyi və dost ölkələrin hərbi-siyasi dəstəyi nəticəsində Şərqi Zəngəzur elləri azadlığa qovuşdu, Azərbaycan tarixinin yeni, şərəfli dövrü başlanır.

## Zəngəzur abidələrinə, toponimlərinə sui-qəsdlər

Zəngəzur ərazisi alban və oğuz türklərinin abidələrinin zənginliyi iləxüsusi diqqət çəkir. Bu abidələr tarixən bu ərazilərin oğuz-türk yurdu olmasını təsdiqləyir. Qədim qəbiristanlıqlar, məqbərələr, məscidlər, qalalar, daş fiqurlar, süjet xarakterli oymaların bir çoxu zaman-zaman ermənilər tərəfindən dağıdılsa da, onların bir çoxu dövrümüzə qədər gəlib çıxıb.

Nankor qonşularımız xristianlıq dövrünə qədər olan abidələrin hamısını ermənilər bazilika, sovmə, qəbirüstü tikili və qurğuları, inzibati binaları, xatirə abidələrini hətta yeraltı qazmaları və kahaları erməni kilsələri adlandıraraq, bu ərazilərdə ermənilərin ulu əcdadlarının yaşadıqlarını "sübut" etməyə çalışırlar. Qafqaz Albaniyası kimi tanınan min illik tarixi olan bir dövlətin mədəniyyətinin və tarixinin inkar edilməsi əlbəttə erməni saxtakarlığından başqa bir şey deyil. Erməni saxtakarlığı bu ərazilərdə daha çox memarlıq abidələrində özünü büruzə verir.

Ermənilər, nadir alban dövrü tikililərinin üzərindən bir çox bədii ornamental görüntüləri, yazı və simvolları silir, abidələrin daxili və xarici interyerində dəyişiklik edərək abidəni tanınmaz hala salırlar. Bir çox hallarda türklərin yaşadıqları qədim inzibati yaşayış məntəqələrini dağıdaraq xarabalığa çevirirlər. Acı təəssüf hissi ilə demək olar ki, Qərbi Zəngəzur ərazilərində 200 müsəlman türk, kürd kəndi dağıdılıb. Ermənilər bu ərazilərdə Çar Rusiyasının təşəbbüsü ilə tarixin müəyyən mərhələlərində müxtəlif ölkələrdən köçürülərək məskunlaşdırılıblar. Bu baxımdan Qərbi Azərbaycanın müxtəlif şəhərlərində məskunlaşdırılan ermənilər dil, ləhcə və xarakter baxımından bir-birləri ilə kəs-

kin fərqlənirlər. Məsələn İrəvanda yaşayan ermənilər, Mehridə, Gorusda və Qarabağda yaşayan ermənilərin dillərini çətin anlayırlar.

Bir əsrdən çoxdur ki, Qərbi Zəngəzurda ermənilər, Azərbaycanın mədəni irs nümunələrinin məhv edilməsini həyata keçirirlər. Vorotan (Bazarçay, Bərguşadçay) dərəsindəki Köhnə Xot, Köhnə Şinuayr, Köhnə Əlidərə kəndlərinin xarabalıqları döyüş meydanına oxşayır, sanki burada xeyirlə şərin mübarizəsi gedib. Baxanda vahimələnirsən, sanki hər bir binanın xarabalığında bir vampir yaşayır. Bu kəndlərdə ermənilər tərəfindən 800-dən çox tarix və mədəniyyət abidələri, yaşayış evləri, məscidlər, Alban dövrü bazilika və sovmələr, bədii daş nümunələri, qəbirüstü abidələr, qəbir daşları, at, qoç fiqurları dağıdılaraq yararsız hala salınıb. Azərbaycanın mədəni-irs nümunələrindən təmizlənən bu ərazidə, yalnız Bazarçay dərəsinin sol yamacında Alban memarlığının yadigarı Tatev monastırı öz əzəmətini qoruyub saxlaya bilib. Keçən əsrin əvvəllərindən süni şəkildə Rusiya tərəfindən bölgədə məskunlaşdırılan ermənilər Cənubi Qafqazdakı Alban abidələrinin üzərindəki ornamentləri, elementləri və digər yazı nümunələrini dəyişərək saxtalaşdırırlar, yəni erməniləşdirirlər. Bu da kütləvi şəkildə Alban dövrü abidələrinin ilkin görkəminin itirilməsinə və Alban mədəniyyətinin tədricən məhv edilərək tarixdən silinməsinə səbəb olur. Rus çarı I Nikolayın 1828-ci il martın 21-də verdiyi Fərmana görə Azərbaycanın qərbində İrəvan xanlığı ləğv edilərək, əvəzində rus imperatorluğu tərəfindən idarə olunan "Erməni mahalı" adlanan yeni vilayət yaradılıb. Vilayətin yaradılmasında məqsəd, birbaşa İran və Türkiyə sərhədlərində Rusiyaya qarşı baş verə biləcək hər hansısa hücumların qarşısını almaq məqsədilə itaətkar er-

məni millətindən ibarət cəbhə formalaşdırmaq idi. Azərbaycan torpaqlarında Rusiyanın vilayət yaratma təşəbbüsü ermənilərin işinə yaradı. Çünki heç vaxt dövləti və dövlətçilik ənənəsi olmayan bir millət üçün bu, tarixi bir fürsət idi. Dünyanın bir çox ölkələrindən bu ərazilərə köçürülən ermənilər bu hadisəni sevinclə qarşıladılar. Qısa zaman ərzində ermənilər nəinki Qərbi Azərbaycan ərazilərində, eyni zamanda, Qarabağ, Gəncə, Şamaxı və Quba bölgələrində də sürətlə məskunlaşmağa başladılar. Tarixdən məlumdur ki, antik dövrlərdə və erkən orta əsrlərdə indiki Azərbaycanın bütün bölgələri Qarabağ da daxil olmaqla Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olub. Məhz həmin dövrlərdə memarlıq sənəti bu ərazilərdə çox yüksək səviyyədə və böyük sürətlə inkişaf edib. Təqribən min illik tarixi olan Alban dövlətinin mövcud olduğu dövrlərdə Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən Zəngəzurda və Dağlıq Qarabağda öz spesifik quruluşuna görə tamam fərqli alban-xristian dininə aid məbədlər, bazilikalar və sovmələr meydana gəlməyə başlayıb. Öz dövrü üçün xarakterik olan bu cür memarlıq üslubundan aydın olur ki, o dövrdə Albaniyada şərq xristianlığına məxsus memarlığın bütün növləri inkişaf edib. Hələ orta əsrlərdən başlayaraq bu tarixi həqiqətləri inkar edən ermənilər, alban xristian abidələrinin divar yazılarını və bəzi bədii ornamentlərini dəyişdirərək bu abidələrin ermənilərə məxsus olduğu barədə təbliğat aparırlar. Cənubi Qafqazda mədəni dəyərlərin erməniləşdirilməsində Rusiyanın dəstəyinin mühüm rolu olub. Belə ki, 1836-cı ildə Azərbaycanda fəaliyyət göstərən Alban Patriarxat kilsəsinin ləğv olunaraq və onun mülklərinin erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi barədə rus çarı I Nikolay xüsusi olaraq Fərman da imzalayıb. XVIII əsrin sonlarından başlayaraq Alban dövlətinin qərb əraziləri -

Zəngəzur və Qarabağ regionlarında və bütünlüklə Qərbi Azərbaycanda, ermənilərin davam edən sıx məskunlaşmaları nəticəsində, Alban kilsəsi müstəqilliyini itirib və həmin yerlərin xristian əhalisinin qriqoryanlaşdırılması, yəni, ermənipləşdirilməsi prosesi başlayıb. Bu hadisə ermənilər tərəfindən Alban kilsələrindəki əlyazmaların bəzilərinin erməni dilinə tərcümə edilməsinə və kilsədə saxlanan bütün sənədlərin orginallarının yandırılmasına səbəb olub. Alban dövrü kilsə və monastırların interyerindəki yazıların və bədii daş nümunələrinin eləcədə kilsə və monastırların bütünlüklə xarici görkəmləri dəyişdirilib. Alban dövrü memarlıq abidələrinin daş və divar rəsmlərində və eləcədə süjet xarakterli oymalarda daha çox türkdilli xalqlara məxsus elementlərdən istifadə edilməsi, hazırkı dövrdə bu abidələrin ermənilər tərəfindən daha çox zərər görməsinə səbəb olur. Birmənalı şəkildə ermənilər məskunlaşdıqları ərazilərdəki tarix və mədəniyyət abidələri üzərində alban-türk ornamentlərinin və simvollarının olmasını qəbul etmirlər. Çünki onlar alban dövrü abidələrini olduğu kimi qəbul etsələr, onda bu abidələrin erməniləşdirilməsi mümkün olmazdı. Qafqaz Albaniyası dövrü memarlıq abidələrinin alban–türk memarlıq abidələri kimi də qeyd olunması təsadüf sayılmamalıdır. Çünki bu abidələr üzərində varislik yalnız azərbaycanlılara məxsusdur. Cənubi Qafqazda Alban dövrü abidələrinə varisliyin yalnız azərbaycanlılara məxsusluğu barədə, görkəmli Qafqazşünas tarixçi alim Y.İ.Krupnov yazırdı: “Albaniya tarixinin öyrənilməsi işində heç bir məhdudiyyət və məcburiyyət olmayıb. Albaniya tarixini müxtəlif ölkələrin tarixçiləri öyrəniblər. Lakin bir şey məlumdur, Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Onlar bu sahədə dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar”.

AZƏRTAC-a açıqlamasında AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov bütün bunlar barədə danışarkən deyib ki, Qarakilsədə 1918-ci ilə kimi 76 kənd olub. Onun 61-də türk tayfaları, 15-də albanlar yaşayıblar. Əsasən sovet hakimiyyətinin bərqərar olmasından sonra Qarakilsəyə xarici ölkələrdən erməni axını başlayıb. Rayon mərkəzindən 15 kilometr aralıda - Salvartı dağının ətəyində yerləşən Comərdli Qarakilsənin ən böyük türk kəndlərindən biri idi. Məlumdur ki, Zəngəzur vaxtilə Gəncə quberniyasının qəzası olub. 1920-ci ildən sonra Zəngəzurun Qafan, Gorus, Qarakilsə və Mehri bölgələri Sovet rəhbərliyi tərəfindən yenicə yaradılmış Ermənistan dövlətinin tərkibinə verilib. Zəngəzurun hansı səbəbdən ermənilərə bağışlanması hələ də dəqiqliklə açılmayıb. 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 389 məscid fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası - 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Cicimli 1, Cicimli 2, Qaroaçalı, Seydlər, Mollalar, Təzə Kilsə, Nərcan, Zor, Əfəndilər, Pasan, Xurtekes, Hacıqəmbər, Qarabağlar, Dəmirçilər, Dondarlı, Kurdaluq, Ulaclı, Saraclı, Dərzili, Oxçi, Kaqlar kəndlərində fəaliyyət göstərib.

1988-ci ildə kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edilib. 1988-ci ildə təkcə Zəngəzurda deyil,

Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulublar. Qərbi Zəngəzurun etnik təmizləməyə məruz qalan Gorus, Qafan, Mehri, Qarakilsə (Sisian) rayonlarının tarixi əhəmiyyətli yaşayış evləri, inzibati yaşayış məntəqələri, qəbiristanlıqlar, qəbirüstü abidələr, məscidlər, türbələr tamamilə məhv edilib, Alban dövrü kilsə və monastırlar isə formaları dəyişdirilərək yararsız hala salınıblar. Ermənilər Azərbaycan türklərinə qarşı təkcə fiziki cəhətdən soyqırım törətməyiblər, həm də onun maddi-mənəvi mədəniyyətinin, toponimlərinin, coğrafi adlarının da izini itirməyə çalışıblar.

AMEA-nın A.A.Baxıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi Ramin Əlizadə AZƏRTAC-a müsahibəsində deyib ki, müasir Ermənistan ərazisindəki qədim yer-yurd adları bu ərazinin əzəli sakinlərinin Azərbaycan türkləri olduğunu sübut edir. Yalnız son yüz ildə Qərbi Azərbaycan ərazisində qondarma Ermənistan dövləti yaradıldıqdan sonra İrəvan “Yerevan”, Göyçə “Sevan”, Zəngəzur “Sünik”, Dərələyəz “Vayodzor”, Basarkeçər “Vardenis”, Alagöz “Araqats”, Qaranlıq dərə “Xınzirək” kimi saxta adlarla əvəz edildi. Zəngəzurun ən böyük rayonu olan Qarakilsə rayonu da bu cür erməni saxtakarlığına məruz qaldı.

Qarakilsə rayonu Qərbi Zəngəzurun ərazisinə görə ən böyük rayonudur. Rayonun mərkəzi olan Qarakilsə şəhərinin adı burada hündür təpənin üzərində VII əsrdə boz tuf daşından inşa edilmiş Qarakilsə xristian məbədinin adı ilə bağlı olaraq yaranıb. 1590-cı ildə tərtib edilmiş “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə Qarakilsə kəndinin adı qeyd edilib. Qarakilsə rayonu ərazisində ən qədim xristian abidəsi V əsrdə inşa edilmiş Qızılkilsə məbədidir. Ərəfsə kəndi yaxınlığında hündür təpənin üzərində yerləşən bu

məbədin bir hissəsi hazırda dağılmış vəziyyətdədir. Qızılkilsə qədim Alban kilsəsidir. Qızılkilsə məbədində Alban xaç təsviri və kilsənin yaxınlığında qədim Alban məzarlığı aşkar edilib. Hazırda Ermənistan hakimiyyəti bir çox Alban məbədi kimi Qızılkilsə məbədini də erməni abidəsi kimi təqdim edir. Ermənistanın bu yalanını həm Qızılkilsə adının, həm də bu məbədin yerləşdiyi ərazidə qədim yer-yurd adlarının Azərbaycan türkcəsində olması bir daha ifşa edir. Azərbaycan xalqı tərəfindən uzun illər Qızılkilsə adlandırılan bu abidəni hazırda ermənilər xristianlığaqədərki bütpərəstlik tanrısı hesab edilən Anahitin şərəfinə Tanaat adlandırırlar. Özlərini xristian dünyasına əzabkeş toplum kimi təqdim edən ermənilərin bu dini məbədə bütpərəstlik tanrısının adını verməsi onların həqiqi xristian olmadığının açıq-aydın təsdiqidir.

XIX əsrin birinci yarısında Zəngəzura köçürülmüş ermənilər uzun müddət bu məbədi Azərbaycan türkcəsində olduğu kimi "Qarakilsə" adlandırdılar. Qarakilsə məbədinin divarında Zəngəzurun Qıpçaq türk soyundan olan hakimi Göysoylu xanın, həmçinin xristian müqəddəslərinin rəsmi və "İncil"dən dualar təsvir olunub. Farslar bu Qıpçaq xristian xanını Kayozad adlandırıblar. 1931-ci ildə baş vermiş zəlzələ nəticəsində Qarakilsə məbədi ciddi dağıntıya məruz qaldı. 1940-50-ci illərdə erməni memarları bu məbədin memarlıq quruluşunda erməni-qriqorian elementləri daxil edərək əvvəlki görkəmini dəyişdirdilər.

Ermənilər bu məbədin ön divarları üzərindəki iki pəncərəni daşla hörüb, məbədin divarı üzərində erməni dilində saxta yazılar həkk ediblər. Qarakilsə məbədinin həyətində qədim türk tayfalarının elat həyat tərzini əks etdirən daş sənduqələr, qoç daşları və Alban məzarlığı var idi. Ermənilər bu abidələrin böyük bir qismini məhv edərək yerində

yeni erməni qəbiristanlığı salıblar. Bu məbədin ətrafında olan qoç daşları isə hazırda Qarakilsə rayonunun Tarix Muzeyinin həyətində baxımsız vəziyyətdə saxlanılır. 1961-ci ildə Qarakilsə məbədi erməni-qriqorian kilsəsinə çevrildi, məbədin hazırkı görünüşü erməni memarları tərəfindən saxta elementlərin daxil edilməsi ilə ciddi saxtakarlığa məruz qalıb.

Qədim mənbələrdə Qarakilsə adı ilə tanınan yaşayış məntəqəsi XIX əsr xəritələrində də öz adı ilə qeyd edilirdi.

Ermənistan SSR-nin yeni ərazi bölgüsü təşkil ediləndə 1930-cu il sentyabrın 9-da Qarakilsə rayonu yaradıldı və 1940-cı il martın 2-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Qarakilsə adı qondarma "Sisian" adı ilə əvəz edildi.




QARAKİLSƏ (Sisian) RAYONUNUN 1918-1988-ci illər XƏRİTƏSİ
Bərpa edilmiş Azərbaycan kəndlərinin əhalisi 1988-ci ildə deportasiya olunmuşdur
QARAKİLSƏ
Ağkənd - Qarakilsə rayonunun ermanilәşdirilmiş kəndləri
"erməni" adları
Dağlar
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: 2015

# Zəngəzurun təbiəti, tarixi abidələri



***Şəki şəlaləsi***



***Sisyan (Qarakilsə) şəhərində qəbirüstü qoç heykəllər muzeyi***



*Şəki kəndi ərazisində “Qoşundaş” menqirləri*



*Nüvədi kəndində Qarqadaşı kitabəsi*



*Tatev məbədi*



*Ağudi kəndində alban məbədi*



***Urud kəndində qəbirüstü sənduqələr***



***Ağudi kəndində qəbirüstü abidə-qoç heykəl***



*Xudavəng alban məbədi*



*Ağoğlan alban məbədi*



***Güləbird kəndində Sarı Aşığın xatirə muzeyi***



***Məmər kəndində məscid. XVIII əsr***



***Dəmirçilər kəndində Hacı Bədəl körpüsü***



***Əliquluuşağı kəndində Laləzər körpüsü***



*Dəmirçilər türbəsi*



*Məmmədbəyli türbəsi*



*Cəbrayıl abidələri*





***Qubadlıda Xalq qəhrəmanları Qaçaq Nəbi, Qaçaq Həcər abidələri***




***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".***

***"Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq".***

***"Qərbi Zəngəzura qayıdacağıq, kimsə bizi dayandıra bilməz! Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək, bütün region ölkələri üçün yeni imkanlar yaradacaq. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq? Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm. Zəngəzurun Şərqi varsa, onun Qərbi də var, bunların qovuşması artıq zaman məsələsidir".***

***İlham Əliyev***

**İlham Əliyev: "Azərbaycan xalqı 101 il əvvəl əlimizdən alınmış Zəngəzura qayıdacaq"**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsindən: "Bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir. Biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun. Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv edəcəyik. Bunu hər kəs bilməlidir - həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir. Bununla paralel olaraq, biz əməkdaşlığa da hazırıq - baxmayaraq ki, Ermənistan azərbaycanlı-

lara qarşı dövlət səviyyəsində soyqırımı törətmişdir. Baxmayaraq ki, bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, biz gələcəyə baxmalıyıq. Biz, əlbəttə ki, erməni vəhşiliyini heç vaxt unutmayacağıq.

Bu gün Ermənistanda böyük hay-haraya səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasının əsas məqsədi odur ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmasın. Biz heç vaxt unutmamalıyıq. Biz bunu heç vaxt bağışlamayacağıq. Bunu hər kəs bilsin. Amma bununla paralel olaraq, biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq. Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır."

Ulu öndər Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi illərdə daim Qərbi Azərbaycan torpaqları-Göyçə, Zəngəzur, İrəvan və digər ərazilər haqqında bir millətin yol xəritəsi və mübarizə idealını təşkil edən çağırışlarla çıxış edib. Xankəndi Zəfəri və ordumuzun təntənəli yürüşü Heydər Əliyevin ikinci ən böyük arzusunun-Göyçəyə, Zəngəzura, İrəvana da dönüşü gerçələşdirəcək. Lakin bu qayıdış dinc qayıdış, qalıcı və sülh yolu ilə reallaşacaq. Azərbaycan xal-

qı 1805-ci il Kürəkçay müqaviləsindən indiyədək İrəvandan Dərbəndə, Borçalıdan Təbrizədək böyük ərazilərini itirib. İndi Qarabağda əldə edilən Zəfərdən sonra xalqımızın mənəvi ruhunda da bir oyanış başlanıb və oyanışın ağıllı məcrada davamı, xeyirli nəticələrə ulaşması üçün Xalq-Dövlət birliyi, Türk birliyinin gücü vahid məcraya yönəlməlidir.

Biz dəyişən dünyanın yaratdığı təbəllüatlara hazır olmalıyıq. Azərbaycanlıların könül dünyası təkcə 86.6 min kvadrat kileometr ərazi ilə kifayətlənə bilməz.

Xalqımızın, Prezidentimizin siyasi iradəsi, müzəffər Ordumuzun qəhrəmanlığı, Şəhid və Qazilərimizin misilsiz şücaəti, bənzərsiz döyüş və mənəvi ruhu sayəsində qalibiyyətli II Qarabağ müharibəsindən, 10 noyabr 2020-ci ildə ağır məğlubiyyətinin imzalı təsdiqindən sonra da ermənilərin terror, təxribat əməllərini, siyasi oyunbazlığını dayandırmaması bir daha sübut edir ki, iki əsrdən bəri davam edən, başımıza gələn, gətirilən bəlalardan ibrət dərsi almalıyıq, erməni toplumunun əsrlərlə formalaşmış mənəvi-psixoloji aspektlərini analiz edib zəif və güclü cəhətlərini öyrənməliyik, məkrli, hiyləgər, təpədən dırnağa kin, qisas, nifrətlə yüklənmiş, bədnam qonşu ölkə, xalqla və onun Moskva və Qərbdəki hərbi-siyasi havadarları ilə münasibətlərimizin aydın, prinsipial taktika, strategiyasını hazırlamalıyıq. Arxayınçılıq yolverilməzdir, hələ çox şey bitməyib. Saytlarda indilərdə bu başlıqla xəbərlər yayılıb: “Paşinyanın ondan qisas tələb edən millətçilərə mesajı: bu ordu ilə heç nə etmək mümkün deyil. Mənə 4-5 il vaxt verin. Ordunu yenidən qurum...”

24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqindən: “Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əmə-

liyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır, - istər iqtidarda, istər müxalifətdə, - faktiki olaraq bizim üçün fərqi yoxdur. Çünki Ermənistanda cəmiyyətin şüuru o qədər zəhərlənib, azərbaycanofobiya o qədər geniş vüsət alıb ki, orada faktiki olaraq normal düşüncəyə malik olan, - mən siyasi sahəni nəzərdə tuturam, - qalmayıb. Ona görə onlar revanş fikri ilə yaşayırlar. Onlar yenə də ümid edirlər ki, kimsə gələcək onların əvəzinə bizimlə müharibə aparacaq, onlar da hər zaman olduğu kimi, hansısa himayədarın arxasında gizlənərək yenə də bizə qarşı öz məkrli planlarını həyata keçirəcəklər. Bax, özümüzü bundan sığortalamaq üçün biz mütləq Azərbaycan-Ermənistan sərhədi istiqamətində daha əlverişli mövqelərə sahib olmalı idik və buna nail olduq. Bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir. Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz”.



***Prezident Qubadlıda ermənicə lövhəni sökdürdü: "Bilsinlər ki, bura Qəzyandır"***



## Müəllifdən Son Söz

## Zəngəzur ellərinə qayıdış borcumuz var!

Azərbaycan hazırda öz tarixinin ən şərəfli günlərini, yeni inkişaf dövrünü yaşayır; 2020-ci ilin sentyabr-noyabrında 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabrında cəmi 23 saat 40 dəqiqə sürən anti-terror əməliyyatı nəticəsində dövlətimiz bütün ərazisində suverenliyini tam bərpa etdi, 2024-cü il aprelin ortalarından başlayaraq Qarabağda müvəqqəti yerləşmiş Rusiya sülhməramlı hərbi kontingenti ölkəmizin ərazisini vaxtından əvvəl tərk etdi, atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Müşahidə Mərkəzi öz fəaliyyətinə son qoydu, Azərbaycanla Ermənistan arasında dövlət sərhəddinin dəqiqləşdirilməsinə, delimitasiyası və demarkasiya işlərinə başlandı.

Şübhə yoxdur ki, bu tarixi hadisələrin gerçəkləşməsinin siyasi memarı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir və qazanılan nəticələr regionumuzda daimi sülhün, əmin-amanlığın tezliklə bərqərar olacağına da güclü inam yaradır. 30 ildən artıq davam edən Qarabağ sorununun həllində son nöqtənin qoyulması, Qarabağ, Zəngəzur ellərimizin əbədi olaraq Ana Vətənə - Azərbaycana qovuşması ilə işğaldan azad edilən torpaqlarımızda genişmiqyaslı bərpa, quruculuq, yenidənqurma və məskunlaşma işlərinə başlandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin **“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında”** 7 iyul 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərimizdə Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli,




Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və "Şərqi Zəngəzur iqtisadi rayonu"nun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması, ardınca Kəlbəcər, Cəbrayıl, Laçın, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkili, heç şübhəsiz, II Qarabağ müharibəsindən sonrakı əlamətdar hadisələrdən biri oldu. 1933-cü ildə Azərbaycanın coğrafi xəritəsindən silinmiş Zəngəzur adının yenidən coğrafi, siyasi anlamda bərpası xalqımızın, dövlətimizin ictimai-siyasi, mənəvi həyatında mühüm tarixə çevrildi. Dövlət başçımızın bu növbəti müdrik, uzaqgörən qərarı həm də qarşımızda bizi tarixi ədalətin bərpası - minlərlə günahsız insanın qanı ilə suvarılmış, zorla Ana Vətəndən qoparılmış Zəngəzur torpaqlarımızın bütövləşib, şərqi, qərbi ilə birlikdə Azərbaycana qovuşmasına aparan yola işıq saldı, mayak, strateji yol xəritəsi oldu: "*Mən mövqeyimi təqdim edirəm. Zəngəzurun Şərqi varsa, onun Qərbi də var, bunların qovuşması artıq zaman məsələsidir*".

Bunu da unutmayaq ki, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev və onun mənəvi varisi Prezident İlham Əliyev də əslən Zəngəzurludur. Ölkəmizin rəhbəri 2022-ci il yanvarın 12-də yerli televiziya kanallarına üç saat davam edən müsahibəsində Zəngəzurla bağlı olduqca maraqlı fikirlərini paylaşıb, bu qədim torpağa dərin sevgisinin həm də soy, nəsil, ailə yaddaşından gəldiyini, qırılmaz mənəvi tellərlə o yerlərə bağlılığının, mərhəm duyğularının dərin səbəblərini də səmimiyyətlə bölüşüb: *"Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziya rət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir. Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm..."*

Kəlbəcər, Laçından Naxçıvana qədər böyük bir ərazini tutan tarixi Zəngəzurun şərq hissəsində ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları olan, Azərbaycan Respublikası ərazisinin 7,5 % -ni təşkil edən Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsi vaxtında verilmiş qərar idi.

Zəngəzur Vətənimizin, hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır, xalqımız üçün müqəddəs,

əziz məkandır və “Şərqi Zəngəzur” coğrafi adının artıq beynəlxalq əhəmiyyətli bir sıra müqavilələrdə də işlənməsi qürurverici hadisədir. Prezident İlham Əliyev 2022-ci il martın 11-də Bakı şəhərində imzalanmış “Azərbaycan Hökuməti ilə İran Hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu”nun təsdiq olunması haqqında 5 aprel 2022-ci ildə Fərman imzalaması, artıq bu Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsinə başlanması bunun bir sübutudur.

Dövlət rəhbərinin imzaladığı “Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış” Dövlət Proqramı, “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” fərman və sərəncamlara uyğun olaraq hazırda şəhər və kəndlərin bərpası uğurla həyata keçirilir. Şəhərlərimizin təsdiq edilmiş Baş planları icra edilir və ötən müddətdə on milyard manatdan artıq vəsait xərclənmişdir. Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın altı əsas istiqamət üzrə inkişafı təmin edilir; kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, “yaşıl enerji”, nəqliyyat-logistika və turizm. Təbii iqlim şəraiti, tarixi ənənə, coğrafi yerləşmə və demoqrafik potensiala uyğun olaraq işğaldan azad edilmiş ərazilərin əsas inkişaf drayverləri də müəyyənləşir. Ağdam şəhəri yüngül sənaye və xidmət mərkəzi, Araz boyunca düzülən Füzuli, Cəbrayıl və Zəngilan rayonları nəqliyyat-logistika qovşağı, “yaşıl enerji” və əkinçilik, Kəlbəcər və Laçın rayonları dağ-mədən sənayesi, “yaşıl enerji”, heyvandarlıq, turizm məkanına çevrilir.

Qarabağın zümrüd tacı Şuşa isə artıq mədəniyyət paytaxtına, bölgənin qravitasiya mərkəzidir.

Hesablamalar göstərir ki, 2030-cu ilə qədər Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər.

Bu kitabda oxuculara haqqında bəhs edilən məsələlər haqqında analitik, elmi, publisistik məqalələr, sistemli məlumatlar təqdim edilir.

Minnətdarlıq hissilə bildiririk ki, təqdim olunan kitabda president.az, preslib.az, azertag.az, arxkom.gov.az, ereforms.gov.az, aayda.gov.az, zengezur.com saytlarının foto və informasiya materiallarından istifadə olunub.

Sevindirici haldır ki, keyfiyyətcə ciddi yeniləşmə yolu ilə ölkəmizdə və xaricdə öz nüfuzunu gücləndirən, beynəlxalq əlaqələrini genişləndirən, vətəndaş cəmiyyəti quruculuğunda, Azərbaycan həqiqətlərinin dünyada yayılmasında son illər xeyli uğurlu işlər görən QHT Agentliyi ölkəmiz, xalqımız üçün bu taleyüklü mühüm sahələrdə də ciddi fəallıq göstərir, əhəmiyyətli layihələr həyata keçirir.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi tərəfindən həyata keçirilən 2022-ci ilin aprelində “Şərqi Zəngəzura qayıdışa mənəvi dəstək” layihəsi çərçivəsində Böyük Qayıdışın ilk ünvanı olan Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "QHT kitabxanası" yaradılıb. QHT-miz tərəfindən kitabxanaya 200 nüsxə dövlətçiliyin, rəsmi siyasətin təbliği, elmi-kütləvi, ictimai məzmunlu, vətənpərvərlik ruhlu ədəbi-bədii kitablar, foto-plakat, şəkillər, albomlar alınıb verilib.

QHT Agentliyi tarixi Qarabağ və Şərqi Zəngəzurda qa-

zanılan hərbi Zəfərin ardınca işğaldan azad edilən torpaqlarımızda başlanmış dinc quruculuq, böyük qayıdış, məskunlaşma işlərinə ictimai dəstək verir, bu istiqamətdə müəyyən edilən dövlət siyasətinin gerçəkləşməsinə, təbliğinə, informasiya, maarifləndirmə bazasının yaradılmasına, Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə, bu günkü və gələcək nəsillərə çatdırılmasına "Şərqi Zəngəzur - Quruculuq və Böyük Qayıdışın ünvanı" kimi nəşr layihələrini maliyyələşdirməklə də uzunömürlü, layiqli töhfələr verir.

Tarixdə bütün müharibələrin sonu sülhlə, danışıqlarla bitib, xüsusən taleyin hökmü ilə yanaşı yaşamağa məhkum olmuş xalqlar bu sadə həqiqəti daha aydın anlayırlar.

Son 200 ildə saysız-hesabsız itkilər verən, faciəli mərhumiyyətlər yaşayan Azərbaycan xalqının tarixində 3 şərəfli, taleyüklü mühüm hadisə olub; Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, Azərbaycan Respublikasının – müstəqil dövlətimizin yenidən bərpası və Vətən müharibəsində qazandığımız Zəfərdən sonrakı ötən dövrdə Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazisində suverenliyini tam təmin etməsi.

Prezident İlham Əliyevin ölkəmizdə, Cənubi Qafqazda, regionumuzda daimi sülhün, əmin-amanlığın bərpası istiqamətində ardıcıl səylərinin də Vətən torpaqları uğrunda savaşlarda olduğu kimi, ən yaxın aylarda xeyirli nəticələr verəcəyinə inamımız böyükdür.

Unutmayaq! Azad edilən torpaqları yenidən Ana Vətənə çevirmək borcumuz var, həm də o torpaqlarda axıdılmış Şəhid qanlarının, ulularımızın ruhu xatirinə!

# ZƏNGƏZUR



Gorus
Qubadlı
Şuşa
Ordubad
ÇAXMAQ ÇÖLÜ
ŞƏRTİ İŞARƏLƏR
GORUS - qəza mərkəzləri
Qubadlı - mahal mərkəzləri
Ərəfsə - kəndlər
Şose yolları
Araba yolları
Qırxlar d. - hündür dağlar
Müəlliflər: t.ü.f.d., dos. Elmar Məhərrəmov
t.ü.f.d., dos. Hacı Həsənov
elmi işçi Lətifə Əsgərova-Surxəlizadə
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: 2020-ci il
MİQYAS
1 santimetr = 2000 metr
2 km
4 km
10 8 6 4 2 0 10 20



## HACI NƏRİMAN OĞLU ABDULLA

Qubadlı rayonunun Saray kəndində doğulub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Qubadlı rayon komsomol və icraiyyə komitələrində, icra hakimiyyətində, AzərTAc, AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, AR Sənaye və Energetika Nazirliyi, AR Prezidenti yanında Bilik Fondu, Azərbaycan Universiteti, Azərbaycan Dövlət Tərcümə Mərkəzində işləyib. 2008-ci ildən "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, www.zengezur.com saytının təsisçi, baş redaktorudur. 25 kitabın, Azərbaycan, türk, rus, ingilis, fransız dillərində dərc olunmuş 100-dən çox elmi, elmi-publisistik məqalənin müəllifi, tarix üzrə fəlsəfə doktoru, Qarabağ müharibəsi veteranıdır.

# Fəsil başlıqları

**ÖN SÖZ.............................................................................3**

**I fəsil. ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONU.......................................................................11**

**II fəsil. ZƏFƏR TARİXİMİZİN XRONİKASI...............................................................45**

**III fəsil. ŞƏRQİ ZƏNGƏZURUN DİRÇƏLİŞİ, BÖYÜK QAYIDIŞ.....................................................73**

**IV fəsil. TÜRKİYƏ ŞƏRQİ ZƏNGƏZURUN DİRÇƏLİŞİNDƏ.....................................................117**

**V fəsil. ZƏNGƏZUR KEÇMİŞDƏN BU GÜNƏ...................................................................156**

**VI fəsil. KEÇMİŞİ UNUTMAYAQ .....................................186**

**MÜƏLLİFDƏN SON SÖZ...........................................................................231**

**Hacı Nərimanoğlu**

**Şərqi Zəngəzur - Quruculuq**
**və**
**Böyük Qayıdışın ünvanı**

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Həmidə Bağırova

Çapa imzalanıb: 24.05.2024.
Nəşrin formatı: 60x84 1/16.
Şərti çap vərəqi: 10,75.
Tiraj: 500.
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69